RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 253 (9708) 17 noyabr 2024-cü il BAZAR

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR




# İlham Əliyevin sülh və əməkdaşlıq missiyası

## Azərbaycan COP-un ən mühüm sammitlərindən birinə evsahibliyi edir

### Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Möhtərəm cənab Prezident İlham Əliyev!

Yenidən gözəl Azərbaycana və gözəl Bakı şəhərinə gəlmək mənim üçün böyük şərəfdir. İkinci səfərim zamanı mənə göstərdiyiniz sevgi və səmimiyyətə görə minnətdaram.

Azərbaycan COP-un ən mühüm sammitlərindən birinə evsahibliyi edir. Planetimizin torpaqlarının qlobal səviyyədə dəhşətli çirklənməsinə səbəb olan böhranla üz-üzə olduğu bir dövrdə "yaşıl dünya" naminə həmrəylik böyük əhəmiyyət daşıyır və aktualdır. Torpaqların sağlamlaşdırılmasının təcili diqqətə ehtiyacı olduğuna dair dünya dövlətləri arasında geniş konsensusu nəzərə alaraq Azərbaycanın bu gün torpağın sağlamlaşdırılması və münbitliyinin bərpası istiqamətində regionda liderlik etmək, torpağın qida, su təhlükəsizliyinə və biomüxtəlifliyə, iqtisadiyyata və ekologiyaya təsirini nümayiş etdirmək imkanı var.

"Save Soil" hərəkatı inkişaf edən və zəngin nemətlərə malik planetin bərpasına dərindən sadiqliyini bildirir. Biz daha yaşıl və daha sağlam planetə kollektiv baxışımızı nümayiş etdirmək məqsədilə ölkənizin torpağın yenidən sağlamlaşdırılmasında bütün Mərkəzi Asiya regionunda lider rolunu oynaması üçün hər cür lazımi dəstəyi təklif edəcəyik.

Bu möhtəşəm tədbirə evsahibliyi etdiyinizə, o cümlədən səmimi və yüksəksəviyyəli qonaqpərvərliyə görə Sizi və Azərbaycan xalqını təbrik edir, minnətdarlığımızı bildiririk.

*Dərin hörmətlə,*

***Sadhquru (Caqqi Vasudev)***
***İşa Xeyriyyə Fondunun təsisçisi***

## Azərbaycanın "yaşıl gündəliy"i dünya liderləri tərəfindən böyük etimad qazandı və təqdir olundu

COP29-da iqlim dəyişmələrinin fəsadlarının aradan qaldırılması üçün mühüm və effektiv qərarların qəbul olunacağına böyük ümid bəslədiklərini söyləyən ölkə rəhbərləri Azərbaycanın məharətlə sədrlik etdiyi bu nəhəng tədbirin yüksək səviyyədə təşkilinə görə şəxsən Prezident İlham Əliyevə təşəkkürlərini bildirirlər.

Liderlər Sammitinin açılış mərasimində Malayziyanın paytaxtı Kuala Lumpurun meri, BMT-nin Məskunlaşma Proqramının (UN-HABITAT) sabiq icraçı direktoru xanım Maimuna Mohd Şərif çıxışında Prezident İlham Əliyevə xitabən söylədi: "Siz həqiqətən də öz rəhbərliyiniz və liderliyinizlə hamını sülhün vacibliyinə inandırdınız. Sülh olmadan dayanıqlı inkişaf barədə danışmaq mümkün deyil. Dayanıqlı inkişaf olmadan da biz sülhü yarada bilmərik. Mən Azərbaycana Dayanıqlı İnkişaf Məqsədlərinə verdiyi töhfələrə görə təşəkkür edirəm. Siz öz şəhərlərinizi yenidən bərpa edirsiniz. Bunu Dayanıqlı İnkişaf Məqsədlərinə əsasən edirsiniz".

Türk dünyası ailəsinin üzvləri, Azərbaycana qardaş ölkələr - Türkiyə, Özbəkistan, Qazaxıstan, Qırğızıstan, Macarıstan COP29-da ən yüksək səviyyədə təmsil olundular.

Azərbaycana tam dəstəklərini ifadə edən qardaş ölkələrin liderləri COP29-un uğurla keçirilməsi münasibətilə təbriklərini çatdıraraq, iqlim konfransının çox yaxşı təşkil olunduğunu vurğuladılar.

Hələ bu ilin iyulunda Şuşada təşkil olunan Türk Dövlətləri Təşkilatına (TDT) daxil olan ölkələrin dövlət rəhbərlərinin qeyri-rəsmi Zirvə görüşündə də dövlət başçıları tərəfindən birmənalı olaraq vurğulandı ki, türkdilli dövlətlər COP29 konfransının işində fəal iştirak edəcəklər.

Şuşada keçirilən qeyri-rəsmi Zirvə görüşündə imzalanan və türk dünyası üçün böyük əhəmiyyət kəsb edən Qarabağ Bəyannaməsində də COP29-a yekdil dəstək öz əksini tapıb: "2024-cü il noyabrın 11-22-də Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının (COP29) 29-cu sessiyasına evsahibliyi etməkdə Azərbaycan Respublikası Hökumətinə uğurlar arzulayır və Konvensiyanın tərəflərinin gözləntiləri əsasında COP29-un konkret nəticələrinin əldə edilməsində Azərbaycanın ardıcıl səylərini dəstəkləyirik".

Noyabrın 13-də Prezident İlham Əliyevlə görüşdə Özbəkistan Prezidenti Şavkat Mirziyoyev COP29-un uğurla keçirilməsi münasibətilə təbriklərini çatdıraraq, bu tədbirin çox yüksək səviyyədə təşkil olunduğunu vurğuladı. Qeyd etdi ki, Özbəkistan Azərbaycana dost, qardaş və müttəfiq ölkə olaraq buna sevinir. Ali qonaq dedi ki, Özbəkistanda Azərbaycana xüsusi münasibət var.

→ 5

## Əl-Əzhərin Şeyxi, Müsəlman Ağsaqqalları Şurasının sədri Əhməd Əl-Tayyib Həzrətlərinə

Zati-həzrətləri!

Ailənizə üz vermiş ağır itki - bacınız Samiha Məhəmməd Əl-Tayyibin vəfatı xəbəri məni olduqca kədərləndirdi.

Bu üzüntülü anlarda dərdinizi bölüşür, Sizə, ailənizin bütün üzvlərinə səbir diləyir, dərin hüznlə başsağlığı verirəm.

Allah rəhmət eləsin!

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 noyabr 2024-cü il*




## Ədalətli əməkdaşlıq və real tədbirlər

Mehriban Əliyeva COP29 çərçivəsində əməkdaşlıq, təcrübə mübadiləsi, gənc nəsil tərəfindən birgə layihələrin müəyyənləşdirilməsi üçün platformanı yaratmaq imkanımızın olacağına ümid etdiyini bildirdi.

Azərbaycanın BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına, yəni COP29-a evsahibliyi etməsi ölkəmizin dünyada artan nüfuzunun bariz nümunəsidir. Ölkəmizin birinci xanımı COP29 ölkəsi seçilməyin böyük şərəf olduğunu vurğuladı: "Biz fərəhlənirik ki, Cənubi Qafqazda, Mərkəzi Asiyada və daha geniş regionda ilk COP konfransı məhz Azərbaycanda keçirilir".

Dünyanın biosferin çirklənməsi, içməli suyun qıtlığı, tez-tez baş verən quraqlıq və ərzaq təhlükəsizliyində artan risklər kimi ciddi ətraf mühit çağırışları ilə üz-üzə qaldığını, bizim ölkəmizin də istisna olmadığını diqqətə çatdıran Azərbaycanın birinci xanımı bildirdi ki, biz çay sularının, Xəzər dənizinin səviyyəsinin azalmasını müşahidə edirik və su qıtlığı təhlükəsi ilə üzləşirik.

→ 7

## Naxçıvandan Xankəndiyə və... COP29-a

### 34 il əvvəl Ulu Öndər Heydər Əliyevin Naxçıvanda ucaltdığı bayraq Zəfər rəmzinə çevrilərək bu gün bütün dünyanı Azərbaycanda birləşdirir

34 il əvvəl - 1990-cı il iyulun 22-də xalqımızın dahi oğlu, görkəmli dövlət xadimi Heydər Əliyevin Naxçıvana qayıtması və siyasi fəaliyyətini davam etdirməsi respublikamızda milli dirçəliş hərəkatını yeni mərhələyə yüksəltdi. Naxçıvandan başlanan bu proses qısa vaxtda ölkəmizin ictimai-siyasi mühitində böyük hərəkata çevrilməklə Azərbaycanın dövlət müstəqilliyinin bərpası istiqamətində mühüm tarixi hadisələrin baş verməsinə səbəb oldu. Müstəqilliyin qazanılmasına, onun qorunub saxlanmasına böyük əmək sərf edən dahi rəhbər Azərbaycanın dövlət müstəqilliyi elan edilməmişdən hələ bir il əvvəl, yəni 1990-cı il noyabrın 17-də üçrəngli Azərbaycan bayrağını Naxçıvan Muxtar Respublikasının Ali Məclisində qaldırdı. Həmin sessiya tariximizdə Azərbaycan dövlətçiliyinin bərpası prosesinin həyata keçirilməsi ilə bağlı bir çox məsələnin müzakirə olunması, ölkəmizi müstəqilliyə aparan yolda tarixi qərarların qəbul edilməsi ilə əlamətdar olmuşdur. Ali Məclisin 1990-cı il noyabrın 17-də Ümummilli Lider Heydər Əliyevin sədrliyi ilə keçirilən sessiyasında Azərbaycanın müstəqil, demokratik və dünyəvi dövlət kimi fəaliyyət göstərməsi üçün tarixi qərarlar qəbul edildi.

→ 6




## Azərbaycan pavilyonu: COP29-un ən maraqlı ziyarət məkanı

Bir neçə hissədən ibarət olan "mavi zona"da 26 görüş, yan tədbirlər üçün isə 9 görüş otağı ayrılıb. Hamısı da lazım olan texniki avadanlıqlarla təmin edilib. Xüsusi ərazilərdən biri pavilyonlar zonasıdır ki, burada 155 pavilyon müxtəlif ölkələri təmsil edir. Ərazidə qonaqların rahat şəkildə istədikləri yerlərə getmələri üçün xidmətlər mövcuddur. Ümumilikdə isə yerli və xarici qonaqlar, ziyarətçilər burada 350 tədbirin iştirakçıları və şahidləridir. İndiyə kimi Azərbaycanın dövlət qurumlarının bir neçə tədbiri keçirilib və onlar davam edəcək. Eyni zamanda burada qeyri-hökumət təşkilatlarının, beynəlxalq təşkilatların tədbirləri də həyata keçirilir. Ərazidə xarici ölkə nümayəndələrinin də pavilyonları var.

Ən böyük və maraqlı pavilyon isə Azərbaycana aiddir. Əlavə olaraq böyük pavilyonla təmsil olunan CAR, Çin, İndoneziyanın da adını çəkə bilərik. Qeyd edək ki, Çin pavilyonuna daha çox maraq var. Çünki Çin bu gün ticarət nəhənglərindəndir. Bu baxımdan onların pavilyonlarında keçirdikləri tədbirlərə Qlobal İqlim Cəmiyyətinin marağı yüksəkdir.

→ 10

COP29
Baku
Azerbaijan

# Parlament Görüşü başladı

**Noyabrın 16-da Bakıda BMT-nin İqlim Dəyişmələri üzrə 29-cu Konfransı (COP29) çərçivəsində Parlamentlərarası İttifaq və Azərbaycan Respublikası Milli Məclisinin birgə təşkilatçılığı ilə Parlament Görüşü işə başlayıb.**

















Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, tədbiri giriş nitqi ilə açan Milli Məclisin Sədri Sahibə Qafarova qonaqları salamlayıb. O, tədbirdə milli parlamentləri, parlamentlərarası təşkilatları, habelə müxtəlif təsisatları təmsil edən 90-a yaxın nümayəndə heyətinin iştirak etdiyini bildirib. Qeyd olunub ki, bu, zəmanəmizin ən aktual problemi olan iqlim dəyişikliyi məsələsinin həllindəki qətiyyətimizin və fədakarlığımızın göstəricisidir.

COP29 çərçivəsində Parlament Görüşünün təşkil olunması fikrinin Parlamentlərarası İttifaqın Baş katibi Martin Çunqonq tərəfindən irəli sürüldüyünü bildirən Milli Məclisin Sədri, dəyərli təşəbbüsə görə ona təşəkkür edib və qeyd edib ki, bu tədbir Azərbaycanın keçən ilin dekabrında yekdilliklə COP29-a evsahibliyi edən ölkə kimi seçilməsindən sonra mümkün olmuşdur.

Spiker qeyd edib ki, iqlim dəyişikliyinin təsirləri dünyanın bütün ölkələrinə sirayət edir və bu baxımdan, ölkəmiz də istisna deyil. Son illərdə Azərbaycan həddindən artıq istilər, su qıtlığı, Xəzər dənizinin dayazlaşması və daşqınlar kimi problemlərlə üzləşib. Bu çağırışın əhəmiyyətini anlayan və qabaqcadan dəyərləndirən Azərbaycan, hələ COP29-a ev sahibi seçilməzdən xeyli əvvəl, Prezident İlham Əliyevin rəhbərliyi ilə iqlimlə bağlı fəaliyyətləri öz milli planlarının mərkəzinə yerləşdirib. Azərbaycan könüllü öhdəliklər götürərək, "yaşıl gündəliy"i milli inkişaf proqramlarına daxil edib, bərpaolunan enerji ilə bağlı layihələr həyata keçirərək və "yaşıl enerji" zonaları yaradaraq, gələcək inkişaf yolunda əzm və qətiyyət nümayiş etdirib.

Eyni zamanda bildirilib ki, Azərbaycanın COP29-a ev sahibi qismində seçilməsi, dünya ictimaiyyətinin ölkəmizin körpü qurucusu kimi çıxış etmək, icmaları və ölkələri ortaq bir məram ətrafında birləşdirmək bacarığına və təcrübəsinə olan inamının nəticəsidir. Qonaqların diqqətinə çatdırılıb ki, digər ölkələrlə müqayisədə hazırlıqlar üçün daha az vaxt - yalnız 11 ay olmasına baxmayaraq, COP29 Azərbaycan sədrliyi bütün maraqlı tərəfləri cəlb etmək, onların ehtiyaclarını dinləmək və gözləntilərini anlamaq istiqamətində böyük işlər görüb.

Təəssüf hissi ilə qeyd olunub ki, bu hazırlıqlar zamanı ölkəmiz bəzi dövlətlər və media platformaları tərəfindən qərəzli və əsassız ittihamlarla, ikili standartlarla, dezinformasiya kampaniyaları ilə üzləşib. Bu fəaliyyətlərdə az sayda milli parlamentlər və parlamentlərarası təşkilatlar da rol oynayıblar. Parlamentin spikeri bildirib ki, bəziləri ümumi çağırışlar qarşısında dialoqun, əməkdaşlığın və həmrəyliyin gücünü unudurlar. Digər tərəfdən, onlar hələ də başa düşmürlər ki, mühüm əhəmiyyətə malik olan iqlim dəyişikliyi məsələsi, onların dar maraqlarını və siyasi motivli ambisiyalarını nümayiş etdirmək üçün platforma rolunu oynaya bilməz.

Spiker çıxışında qeyd edib ki, bu xoşagəlməz hallara baxmayaraq, COP29 uğurla işinə başlayıb və bütün maraqlı tərəflərin iştirakı ilə öz işini davam etdirir. O deyib ki, bugünkü Parlament Görüşü, Dünya Liderlərinin İqlim Fəaliyyəti Sammitindən və bir sıra digər mühüm tədbirlərdən və görüşlərdən sonra keçirilir. Fəaliyyət gündəliyi və COP29 sədrliyi tərəfindən irəli sürülən 14 təşəbbüs inklüziv prosesin nəticəsi olmaqla yanaşı, hərtərəfli yanaşma nümayiş etdirir və qlobal iqlim fəaliyyətində hamını bir araya gətirir. Diqqətə çatdırılıb ki, davam edən müzakirələr nəticəsində artıq bəzi mühüm nəticələr də əldə olunub.

Çıxışında "Qlobal iqlim səylərində parlamentlərimizin bizim rolumuz nədir?" suallarını səsləndirən Sahibə Qafarova vurğulayıb ki, bu suallar ritorik suallar deyil və onların cavabları mövcuddur.




Spiker Sahibə Qafarova deyib ki, biz deputatlar xalqlarımızın nümayəndələri kimi onlarla gündəlik ünsiyyətdə oluruq. Biz iqlim dəyişikliyinin onların üzərində dağıdıcı təsirlərinin ilk şahidləriyik. Bu mənada, parlamentlər onların ehtiyaclarını və perspektivlərini ön plana çıxarmaqla bu prosesi öz üzərinə götürür və onu daha əhatəli edir.

Parlamentlərimiz hökumətlərimizə iqlimlə bağlı fəaliyyətin inkişafında dəstək olmaq üçün qanunvericilik, büdcə və ya nəzarət vasitəsilə lazım olan alətlərə malikdirlər. Əminəm ki, parlamentlərimizin əksəriyyəti artıq emissiyaların azaldılması, enerji keçidi və "yaşıl inkişaf"la bağlı qanunlar qəbul ediblər.

Sahibə Qafarova deyib ki, iqlim dəyişikliyi bəşəriyyətin istənilən milli sərhədləri aşan və kollektiv səylər tələb edən ən böyük problemidir. Dünyanın hər yerindən çoxlu parlamentarilərin bu gün burada bizə qoşulmasını görmək mənə böyük qürur və sevinc verir. Bu, ümumi məqsəd uğrunda birliyimizi və prosesdə güclü iştirakımızı göstərir.

Biliklərimizin, təcrübəmizin və qabaqcıl praktikalarımızın paylaşılması sahəsində parlament əməkdaşlığımız xüsusi əhəmiyyət kəsb edir və hamımız üçün faydalıdır. Bu mənada, Parlamentlərarası İttifaqın rolunu da yüksək dəyərləndirmək lazımdır. Dialoq və həmrəylik fikrinə sadiq qalaraq, bu təşkilat bizi əhəmiyyətli təşəbbüslər, o cümlədən iqlim tədbirləri ətrafında səfərbər edir və səsimizin eşidilməsini təmin edir. Lakin iqlim böhranı getdikcə pisləşdikcə, iqlim dəyişikliyinin mənfi təsirlərinin aradan qaldırılması işi daha da çətinləşir. Çünki getdikcə vaxtımız daralır. Aydındır ki, iqlim dəyişikliyi ilə mübarizə daha çox diqqət və fəaliyyət tələb edir, bu da öz növbəsində bizim iştirakımızı gücləndirməyimizə ehtiyac olduğunu göstərir.

Qeyd olunub ki, biz qanunvericiliyimizi daha da təkmilləşdirməli, hökumətlərimizi öz səylərini daha yaxşı səfərbər etməyə təşviq etməli və öhdəliklərini yerinə yetirmək üçün onlara təsir göstərməliyik. Vətəndaş cəmiyyəti ilə əməkdaşlığın artırılması onların narahatlıqlarını daha yaxşı anlamağa kömək edəcək.

Milli Məclisin Sədri deyib ki, bizim ikigünlük tədbirimiz və ümumi mövqeyimizi əks etdirən yekun sənəd, iqlim maliyyələşdirilməsi, təsirlərin azaldılması və uyğunlaşması, şəffaflıq, milli səviyyədə müəyyən edilmiş töhfələr kimi ən aktual problemləri və vacib məsələləri ön plana çəkir. Bu məsələlər, eyni zamanda COP29 Azərbaycan sədrliyinin prioritetləridir və bugünkü qlobal iqlim gündəmini əks etdirir.

Aydındır ki, yenidən təkər icad etməyə ehtiyac yoxdur. Əksinə, uğur, ümumi istəkləri və verilən sözləri konkret addımlara çevirməkdən asılıdır. COP29 qlobal iqlim fəaliyyəti üçün mühüm məqamdır. Hərəkət etmək məsuliyyəti hamımızın üzərinə düşür. İndi qlobal həmrəylik və birlik nümayiş etdirmək vaxtıdır.

Çıxışının sonunda Milli Məclisin Sədri əminliyini ifadə edib ki, ölkələrimiz daha güclü tərəfdaşlıq, dəstək və öhdəliklərlə "yaşıl dünya", daha yaxşı və davamlı gələcək naminə həmrəyliklə irəliləyəcək.

Sonra tədbirdə çıxış edən Tanzaniya Birləşmiş Respublikası Milli Assambleyasının sədri, PAİ prezidenti Tulia Akson, Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri, COP29-un prezidenti Muxtar Babayev, PAİ-nin Baş katibi Martin Çunqonq, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının icra katibi Saymon Stil, Özbəkistan Respublikası Ali Məclisi Senatının Sədri Tənzilə Narbayeva bütün dünyanı narahat edən iqlim dəyişmələri problemi, iqlim dəyişmələrinə qarşı mübarizə, bu sahədə parlamentlərin rolu barədə fikirlərini bildiriblər. Qonaqlar COP29-un yüksək səviyyədə təşkilinə görə Azərbaycan tərəfinə təşəkkür ediblər, bu tədbir çərçivəsində görüləcək işlərin öz bəhrəsini verəcəyinə əminliklərini ifadə ediblər.

Sonra tədbir iştirakçılarına iqlim dəyişmələrinin real təsirlərinə həsr olunmuş videoçarx nümayiş etdirilib, mövzu ətrafında çıxışlar dinlənilib.

Daha sonra Parlament Görüşü sessiyalarda öz işini davam etdirib. Sessiyalarda "İqlim öhdəliklərinin reallığa çevrilməsi üçün təsirlərin azaldılması ilə bağlı iddialı tədbirlərin artırılmasında və milli səviyyədə müəyyən edilmiş töhfələrin həyata keçirilməsində parlamentlərin rolu", "İqlim maliyyələşdirilməsinin qlobal arxitekturasının inkişafı", "İqlim dəyişmələrinə qarşı dayanıqlılığın artırılması" və digər mövzularda müzakirələr aparılıb.

Müzakirələrdə çıxış edən bir sıra ölkələrin parlament rəhbərləri, deputatlar, beynəlxalq təşkilatların nümayəndələri COP29-un iqlim dəyişmələrinə qarşı mübarizədə əhəmiyyəti barədə danışıblar, tədbirin yüksək səviyyədə təşkilinə görə Azərbaycan tərəfinə təşəkkürlərini bildiriblər.

Parlament Görüşündə Milli Məclis Sədrinin birinci müavini Əli Əhmədov, sədr müavinləri Ziyafət Əsgərov, Musa Qasımlı, Rafael Hüseynov, parlamentin komitə sədrləri, deputatlar, müxtəlif ölkələrin və beynəlxalq təşkilatların nümayəndələri iştirak ediblər.

Tədbir noyabrın 17-də işini davam etdirəcək.

*"Azərbaycan"*

# Azərbaycan Milli Məclisi ilə Tolerantlıq və Sülh naminə Beynəlxalq Parlament arasında anlaşma memorandumu imzalanıb










**Xəbər verdiyimiz kimi, noyabrın 16-da Bakıda COP29 çərçivəsində Parlamentlərarası İttifaq və Azərbaycan Respublikası Milli Məclisinin birgə təşkilatçılığı ilə Parlament Görüşü keçirilib. Tədbir zamanı Azərbaycan Respublikasının Milli Məclisi ilə Tolerantlıq və Sülh naminə Beynəlxalq Parlament arasında anlaşma memorandumu imzalanıb.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, sənədi Azərbaycan tərəfindən Milli Məclisin Sədri Sahibə Qafarova, Tolerantlıq və Sülh naminə Beynəlxalq Parlament tərəfindən isə Qlobal Tolerantlıq və Sülh Şurasının sədri Əhməd Məhəmməd Əlcərvan imzalayıblar.

Milli Məclisin Sədri Sahibə Qafarova sənədin əhəmiyyətini qeyd edərək vurğulayıb ki, anlaşma memorandumu Azərbaycan parlamenti ilə Qlobal Tolerantlıq və Sülh Şurasının parlament ölçüsü olan Sülh naminə Beynəlxalq Parlament arasında əməkdaşlığı möhkəmləndirəcək.

*"Azərbaycan"*

COP29 Baku Azerbaijan

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 478 **QƏRAR** Bakı şəhəri, 15 noyabr 2024-cü il

## Füzuli rayonunun inzibati ərazisində dövlət mülkiyyətinə aid torpaq sahəsinin bərpa olunan enerji mənbələrinin ərazisi kimi müəyyən edilməsi haqqında

"Elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələrindən istifadə haqqında" Azərbaycan Respublikasının 2021-ci il 31 may tarixli 339-VIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 12 iyul tarixli 1387 nömrəli Fərmanının 2.4-cü bəndinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Qarabağ iqtisadi rayonuna daxil olan Füzuli rayonunun inzibati ərazisində dövlət mülkiyyətinə aid 482,0 hektar torpaq sahəsi qoyuluş gücü 160 MVt olan günəş elektrik stansiyasının tikintisi məqsədilə bərpa olunan enerji mənbələrinin ərazisi kimi müəyyən edilsin (torpaq sahəsinin yerləşdiyi yeri, ölçülərini və sərhədlərini göstərən yerquruluşu xəritəsi əlavə olunur).

2. Azərbaycan Respublikasının Energetika Nazirliyi bu Qərarın 1-ci hissəsi ilə müəyyən edilmiş bərpa olunan enerji mənbələrinin ərazisində elektrik enerjisi istehsalçısının seçilməsi ilə bağlı tədbirləri Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 2 avqust tarixli 2285 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Bərpa olunan enerji mənbələrinin ərazisində elektrik enerjisi istehsalçısının seçilməsi Qaydası"nın tələblərinə uyğun olaraq həyata keçirsin.

3. Bu Qərar qüvvəyə mindiyi tarixdən elektrik enerjisinin istehsalı məqsədilə bərpa olunan enerji mənbələrinin ərazisi kimi müəyyən edilmiş 482,0 hektar torpaq sahəsində günəş elektrik stansiyasının tikintisinə icazə "Elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələrindən istifadə haqqında" Azərbaycan Respublikası Qanununun 6.7-ci maddəsində nəzərdə tutulmuş müddətdə Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinə uyğun olaraq alınır.

4. Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi bu Qərarın 3-cü hissəsinə uyğun olaraq tikintiyə icazə verildikdə həmin gündən, müəyyən edilmiş müddətdə tikintiyə icazə verilmədikdə isə müddət başa çatdığı gündən üç gün ərzində bu barədə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

5. Bu Qərarın icrasına nəzarət Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının Aqrar və ekologiya şöbəsinə həvalə edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# İqlim dəyişikliyi problemlərinin həlli üçün qlobal əməkdaşlığın əhəmiyyəti qeyd edilib

*Milli Məclisin Sədri Sahibə Qafarova noyabrın 16-da COP29 çərçivəsində Bakıda Azərbaycan parlamenti və Parlamentlərarası İttifaqın birgə təşkilatçılığı ilə keçirilən Parlament Görüşündə iştirak etmək məqsədilə ölkəmizdə səfərdə olan Tacikistan Respublikası Ali Məclisinin Nümayəndələr Palatasının sədri Mahmadtoir Zokirzodanın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.*



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, qonağı salamlayan spiker Sahibə Qafarova ölkəmizin evsahibliyi ilə keçirilən bu mühüm tədbirdə iştirakına görə qonağa təşəkkürünü bildirib.

Görüşdə iqlim dəyişikliyi ilə əlaqədar dünyanın üzləşdiyi problemlərin həlli üçün qlobal əməkdaşlığın əhəmiyyəti qeyd edilərək, Azərbaycan və Tacikistan tərəfindən bu istiqamətdə həyata keçirilən tədbirlərlə bağlı fikir mübadiləsi aparılıb, bu istiqamətdə parlamentlərin mühüm rolu qeyd edilib.

Mahmadtoir Zokirzoda COP29-un yüksəksəviyyəli təşkilinə görə təbriklərini çatdırıb, COP29-un və Parlament Görüşünün əhəmiyyətini qeyd edib.

Söhbət zamanı ölkələrimiz arasında müxtəlif sahələrdə əlaqələrin dinamik inkişaf etdiyi vurğulanıb. Spiker Sahibə Qafarova dövlət başçılarının qarşılıqlı səfərlərinin, keçirilən görüşlərin ölkələrimiz və xalqlarımız arasında münasibətlərin dərinləşməsində mühüm rol oynadığını bildirib.

Görüşdə dövlətlərarası münasibətlərin möhkəmləndirilməsində parlamentlərarası əlaqələrin mühüm əhəmiyyəti də diqqətə çatdırılıb. Milli Məclisin Sədri Sahibə Qafarova özünün Tacikistana, qarşı tərəfin isə ölkəmizə səfərlərini məmnunluqla xatırlayaraq, bildirib ki, bu səfərlər münasibətlərimizin yüksək səviyyəsinin, qarşılıqlı dəstəyin göstəricisidir.

Söhbət zamanı hər iki ölkənin qanunvericilik orqanında fəaliyyət göstərən dostluq qrupları çərçivəsində əməkdaşlığın, deputatların qarşılıqlı səfərlərinin münasibətlərin dinamikasına müsbət təsirləri qeyd edilib.

***"Azərbaycan"***

# YAP nümayəndə heyətinin Çin Xalq Respublikasına səfəri davam edir










**Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun başçılıq etdiyi nümayəndə heyətinin Çin Xalq Respublikasına səfəri çərçivəsində noyabrın 16-da Çin Kommunist Partiyası (ÇKP) Nantun şəhər komitəsinin rəhbərliyi ilə görüş keçirilib.**

Görüşdə dostluq və strateji tərəfdaşlığa əsaslanan Azərbaycan-Çin münasibətlərinin inkişafının məmnunluq doğurduğu, qarşıda duran bütün hədəflərin reallaşdırılması üçün geniş imkanların mövcud olduğu diqqətə çatdırılıb.

Bu gün hər iki ölkənin dinamik inkişafı və yüksək nüfuzu ilə dünyanın diqqət mərkəzində olduğu, beynəlxalq münasibətlər sistemində layiqli yer tutduğu və öz mövqelərini davamlı olaraq möhkəmləndirdiyi vurğulanıb. Qeyd olunub ki, dövlət başçılarının milli mənafelərə cavab verən uğurlu siyasətinin qanunauyğun nəticəsi kimi, qarşılıqlı inam və etimada, çoxillik əməkdaşlığa əsaslanaraq strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannamənin qəbulu ikitərəfli münasibətlərin inkişafına yeni dinamizm gətirməklə bərabər, Azərbaycan ilə Çinin beynəlxalq müstəvidə bir-birinin maraqlarını müdafiə etməsi baxımından da müstəsna əhəmiyyətə malikdir.

Görüş zamanı hər iki ölkənin sosial-iqtisadi inkişafı və gələcəyə yönəlik hədəfləri barədə ətraflı məlumat verilib, bir çox istiqamətlərdə yeni işbirliyi imkanları müzakirə olunub. Azərbaycan ilə Çinin regionlarının yüksək inkişaf səviyyəsinə çatdığı qeyd edilərək ölkəmizin qardaşlaşmış şəhərlər təcrübəsinə malik olması, mədəniyyət, turizm, ticarət və digər sahələrdə faydalı layihələrin həyata keçirildiyi, lakin hələ istifadə edilməmiş geniş potensialın mövcud olduğu diqqətə çatdırılıb, xüsusilə də yeni texnologiyaların tətbiqi, müasir infrastruktur quruculuğu və "yaşıl inkişaf"ın təmini istiqamətlərində səmərəli əməkdaşlığın həyata keçirilə biləcəyi vurğulanıb.

Qarşılıqlı səfərlərin, fikir və təcrübə mübadiləsinin aparılmasının partiyalar arasında əlaqələrin mövcud vəziyyətinin dəyərləndirilməsi və əməkdaşlığın əhatə dairəsinin genişləndirilməsi baxımından əhəmiyyətli olduğu qeyd edilib. Diqqətə çatdırılıb ki, YAP nümayəndə heyətinin Çinə səfəri çərçivəsində ÇKP ilə əməkdaşlıq memorandumunun imzalanması, bir çox məhsuldar görüşlərin keçirilməsi və Qlobal Cənub Beyin Mərkəzlərinin İkinci Dialoqunda iştirak yaxın dostluq əlaqələrinin daha bir bariz nümunəsidir.

YAP ilə ÇKP-nin hakim siyasi partiyalar kimi dövlət başçılarının dostluq münasibətlərini və Azərbaycan ilə Çin arasında strateji tərəfdaşlığı əsas götürərək məqsədyönlü birgə fəaliyyəti uğurla davam etdirmək niyyətində və yeni uğurlara imza atmaq əzmində olduqları xüsusi vurğulanıb.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb. Görüşdən sonra YAP nümayəndə heyətinin şərəfinə ziyafət verilib.

Həmin gün "Çjuntyan" elm və texnologiya sərgi salonu və Nantun şəhərinin Nançuanyuan mikrorayonunun partiya üzvlərinə və sakinlərinə xidmət mərkəzi ziyarət olunub.

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***

# Milli Məclisdə İran İslam Şurası Məclisinin nümayəndə heyəti ilə görüş keçirilib

**Noyabrın 16-da Milli Məclis Sədrinin müavini, Azərbaycan-İran parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Ziyafət Əsgərovun ölkəmizdə səfərdə olan İran İslam Şurası Məclisinin deputatı Məhəmməd Cavad Əsgərinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşü keçirilib.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, vitse-spiker Ziyafət Əsgərov qonaqları salamlayaraq Azərbaycanla İran arasında dostluq əlaqələrinin inkişaf etdiyini söyləyib. O, cari ilin sentyabr ayında Azərbaycanda növbədənkənar parlament seçkilərinin keçirildiyini, VII çağırış Milli Məclisin formalaşdığını, İranla parlamentlərarası əlaqələr üzrə işçi qrupunun yaradıldığını bildirib. Ölkələrimizin siyasi, iqtisadi, mədəni, humanitar sahələrdə əməkdaşlıq etdiyini deyib.

Milli Məclis Sədrinin müavini hazırda Azərbaycanın evsahibliyi ilə Bakıda BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) yüksək səviyyədə keçirildiyini diqqətə çatdırıb. COP29 çərçivəsində Parlamentlərarası İttifaq və Azərbaycan Respublikası Milli Məclisinin birgə təşkilatçılığı ilə Parlament Görüşünün işə başladığını və İran parlament nümayəndə heyətinin bu mühüm tədbirdə iştirak etdiyini məmnunluqla qeyd edib. O, toplantıda ətraf mühitin mühafizəsi və iqlim dəyişmələrinin fəsadlarının aradan qaldırılması məsələlərinə xüsusi önəm verildiyini bildirib, bu istiqamətdə parlamentlərin verə biləcəyi töhfələrdən bəhs edib.

İran İslam Şurası Məclisinin nümayəndə heyətinin rəhbəri Məhəmməd Cavad Əsgəri səmimi görüşə görə təşəkkürünü ifadə edib. O, İranın Azərbaycanla bütün sahələrdə əməkdaşlıq etməkdə maraqlı olduğunu söyləyib, əlaqələrin daha da genişləndirilməsi üçün potensial imkanların mövcudluğunu qeyd edib, münasibətlərimizin möhkəmlənməsində parlamentlərin rolundan danışıb.

Məhəmməd Cavad Əsgəri Azərbaycanda keçirilən COP29-un və COP29 çərçivəsində Parlament Görüşünün yüksək səviyyədə təşkil olunduğuna görə təbriklərini çatdırıb. Ekoloji problemlərin həllinə həsr edilmiş bu tədbirin mühüm qlobal əhəmiyyətini vurğulayıb. O, iqlim dəyişmələrinin mənfi təsirlərindən qorunmaq və onun fəsadlarının aradan qaldırılması üçün dövlətlərin və parlamentlərin birgə səylərinin önəmli olduğunu bildirib.

Görüşdə tərəfləri maraqlandıran digər məsələlər barədə ətraflı fikir mübadiləsi aparılıb.

***"Azərbaycan"***

# Tacikistan və Özbəkistanın parlament rəhbərləri Azərbaycana gəliblər





Tacikistan Ali Məclisi Nümayəndələr Palatasının Sədri Mahmadtoir Zokirzoda və Özbəkistan Respublikası Ali Məclisi Senatının Sədri Tənzilə Narbayeva Bakıda BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində Parlamentlərarası İttifaq və Azərbaycan Respublikası Milli Məclisinin birgə təşkilatçılığı ilə keçirilən Parlament Görüşündə iştirak etmək üçün ölkəmizə səfərə gəliblər.

Bu barədə Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən məlumat verilib.

***"Azərbaycan"***

# Medianın İnkişafı Agentliyində Çin Qitələrarası Kommunikasiya Mərkəzinin nümayəndə heyəti ilə görüş

*Noyabrın 16-da Medianın İnkişafı Agentliyində COP29 çərçivəsində ölkəmizdə səfərdə olan Çin Qitələrarası Kommunikasiya Mərkəzinin nümayəndə heyəti ilə görüş keçirilib.*

MEDİA-dan AZƏRTAC-a bildiriblər ki, görüş zamanı Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov media sahəsində informasiya və təcrübə mübadiləsi, birgə layihələrin həyata keçirilməsi, tərəfdaşlığın qurulması ilə bağlı bir sıra məsələlərə toxunub, "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannamə" çərçivəsində müvafiq sahəyə məsul qurumlar və media subyektləri arasında əlaqələrin inkişaf perspektivlərinin müzakirəsinin vacibliyini vurğulayıb.

Çin Qitələrarası Kommunikasiya Mərkəzinin direktor müavini Cui Binzhen isə hər iki ölkə arasında sözügedən sahədə mövcud potensialın artırılması üçün müxtəlif platformalar vasitəsilə əlaqələrin dərinləşdirilməsinin, jurnalistlər və media mütəxəssisləri arasında birgə təlim proqramlarının həyata keçirilməsinin vacibliyini bildirib, dezinformasiyanın yayılmasına qarşı mübarizənin gücləndirilməsinin zəruriliyini diqqətə çatdırıb.

Görüşdə hər iki tərəfi maraqlandıran mövzular ətrafında fikir mübadiləsi aparılıb.

COP29 Baku Azerbaijan

# *Hikmət HACIYEV:* "Prezident İlham Əliyevin COP29-da səsləndirdiyi tezislər xüsusilə inkişaf etməkdə olan ölkələrin baxışlarını əks etdirir"




"Azərbaycan Respublikası Ermənistan-Azərbaycan münaqişəsinin başa çatması, ərazi bütövlüyümüzün və suverenliyimizin tam şəkildə təmin olunmasından sonra qlobal gündəlikdə duran məsələlərin və qlobal problemlərin həllinə öz töhfəsini vermək baxımından daha genişmiqyaslı və qlobal xarakterli xarici siyasət həyata keçirir. COP29 da bu xüsusda olan tədbirlərdən biridir".

AZƏRTAC xəbər verir ki, bu fikri Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev COP29 çərçivəsində noyabrın 16-da Azərbaycan Televiziyasına açıqlamasında deyib.

Hikmət Hacıyev bildirib ki, Azərbaycan Respublikası ilk növbədə, inklüziv, ədalətli və tam şəffaf şəkildə nəticəyönümlü danışıqlara və COP-un gündəliyində duran, COP29-un mahiyyətini təşkil edən iqlim maliyyələşməsi ilə əlaqədar mövzulara yaxından töhfə verəcəyini COP-un sədrliyini üzərinə götürdüyü andan etibarən açıq şəkildə bəyan edib. Prezident İlham Əliyev bu prosesdə Azərbaycanın mövqeyini və bütövlükdə iqlim diplomatiyası ilə əlaqədar ölkəmizin baxışını çıxışında açıq şəkildə ifadə etdi. Dövlətimizin başçısının çıxışı dünya mediası, COP-da iştirak edən çoxsaylı ekspertlər və xarici ölkələrin nümayəndələri tərəfindən böyük maraq və rəğbətlə qarşılanıb.

"Prezident İlham Əliyev tərəfindən digər məsələlərdə olduğu kimi, bu məsələdə də beynəlxalq ictimaiyyətlə açıq və səmimi dialoq həyata keçirildi ki, biz "yaşıl transformasiya" haqda yalnız ümumi sözlərlə danışmaqla iqlim problemini qlobal miqyasda həll etmiş olmuruq. Dünyada əsas çirkləndirici faktorlar, ölkələr var. COP-u keçirən ölkələrə münasibətdə aparılan feyk-nyus və propaqanda xarakterli çirkin kampaniyaları, tendensiyaları kənara qoyaraq, əsas çirkləndirici faktorların miqyası və ölkələrin tutduqları rol barədə açıq və səmimi danışmaq lazımdır. Ona görə də Azərbaycan Prezidentinin tezisləri aparılan müzakirələrdə ana xətti müəyyən edən istiqamətlərdən biridir və bu, dünyanın mütləq əksəriyyətinin fikirləri ilə üst-üstə düşməklə yanaşı, xüsusilə inkişaf etməkdə olan ölkələrin baxışlarını əks etdirir. Bir faktı nəzərə almaq lazımdır ki, Prezidentin tezisləri Paris razılaşmalarının mahiyyətinə və fəlsəfəsinə tamamilə uyğundur. Paris razılaşmaları əldə edilən zaman ana konsepsiya o qoyulmuşdu ki, burada dövlətlərin ümumi, lakin fərqləndirici məsuliyyətləri var. Bu o deməkdir ki, sənaye inqilabından başlayaraq, dünyada karbon emissiyalarının artmasında məhz inkişaf etmiş ölkələrin xüsusi məsuliyyəti var. Ona görə də dünyanın bugünkü maliyyə hədəflərinin müəyyən edilməsində və onun müqabilində töhfələrin verilməsində inkişaf etmiş ölkələrdən böyük gözləntiləri var", - deyə Prezidentin köməkçisi xüsusi vurğulayıb.

❖ ❖ ❖

İşğal və təcavüz faktı - Ermənistanın ölkəmizə qarşı 30 il ərzində törətdiyi əməllər olmasaydı, Azərbaycan bu gün "yaşıl transformasiya" fəaliyyətində və tədbirlərində daha böyük nailiyyətlərə imza atmış olardı. Ermənistanın işğalçılıq siyasətinin Azərbaycanın "yaşıl transformasiya" siyasətinə maneələr yaratdığını, ölkəmizin resurs və hədəflərinin başqa istiqamətə doğru yönəldiyini vurğulayan Prezidentin köməkçisi qeyd edib: "Torpaqlarımız işğaldan azad olunandan sonra Prezident İlham Əliyevin tapşırığı ilə Qarabağ və Şərqi Zəngəzur zonası sıfır atıq zonaları kimi bərpa edildi. Bununla da Azərbaycan özünün "yaşıl transformasiya" və bərpaolunan enerji resurslarının yaradılması siyasətinə daha böyük resurslar ayırmaq imkanı əldə etdi. Bu, həmişə bizim gündəliyimizdə prioritet olub. Lakin işğal və təcavüz faktı aradan qaldırandan sonra Azərbaycan daha böyük imkanlarını bu seqmentə səfərbər etmək imkanı əldə etmiş oldu".

# Hikmət Hacıyev Fransanın və Ermənistanın COP29-da iştirak etməməsi məsələsindən danışıb

**Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Azərbaycan Televiziyasına açıqlamasında Ermənistanın və Fransanın COP29-da iştirak etməməsi məsələsinə toxunub.**




AZƏRTAC xəbər verir ki, Prezidentin köməkçisi Azərbaycanın BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının tərəfi kimi öz məsuliyyətindən və öhdəliyindən çıxış edərək konvensiyanın bütün tərəf ölkələrinə, o cümlədən Ermənistana və Fransaya dəvət göndərdiyini diqqətə çatdıraraq deyib: "Konvensiyanın demək olar ki, bütün üzvləri Bakıdadır. COP29 məkanını gəzdikdə, buradakı dinamik vəziyyəti, dövlətlərin, vətəndaş cəmiyyəti təşkilatlarının nümayəndələri tərəfindən aparılan müzakirələri gördükdə bir daha şahidi oluruq ki, dünya bu gün Azərbaycandadır. COP29-da 75 mindən artıq iştirakçı qeydiyyata alınıb. Ona görə də Ermənistanın iştirak edib-etməməsinin bizə hər hansı təsiri yoxdur".

Hikmət Hacıyev açıqlamasında Ermənistanın iqlim dəyişməsi və iqlim transformasiyası məsələsində ciddi olub-olmaması məsələsindən də danışıb. O, COP29-un başlamasından əvvəl BMT-nin Ətraf Mühit Proqramının iqlim dəyişmələrinin Cənubi Qafqaza mənfi təsirlərinə dair hazırladığı hesabatda regiondakı dağlarda buzlaqların əriməsi, Xəzər dənizinin suyunun səviyyəsinin aşağı düşməsi, yağıntıların azalması kimi neqativ tendensiyaların yer aldığını vurğulayaraq deyib: "Hesab edirdik ki, Ermənistanın COP29-da iştirakı Cənubi Qafqaz regionunda əməkdaşlıq, o cümlədən iqlim dəyişməsi kimi vacib məsələlərin birgə müzakirəsi baxımından faydalı imkan olardı. Amma Ermənistanın burada iştirak etməməsi göstərir ki, onun bu günə qədər COP ilə əlaqədar tutduğu mövqe cılız propaqandadan başqa bir şey deyil və Ermənistan bu məsələdə də ciddi deyil. Ermənistanın dövlət strukturlarının iştirakı və dəstəyi ilə Azərbaycana qarşı bir sıra çirkin təbliğat kampaniyaları aparılır. Ermənistanın tutduğu mövqe bundan ibarətdir. Hesab edirdik ki, Ermənistan COP29-a qatılmaqla regional səviyyədə etimad quruculuğu və dialoq prosesinə töhfə vermiş olardı. Amma Ermənistan özü bundan kənara çəkildi".

Prezidentin köməkçisi Fransanın açıq dialoqa və tənqidə hazır ölkə kimi COP29-da konstruktiv dialoq və müzakirə aparmaq əvəzinə, küskün mövqe tutmasının da anlaşılan olmadığını diqqətə çatdırıb. Qeyd edib ki, okeanın ortasında yerləşən kiçik ada dövlətləri iqlim dəyişmələrinin təsiri nəticəsində ekzistensializm təhlükəsi ilə üzləşib. Fransanın və Niderlandın dənizaşırı regionları də mahiyyət etibarilə kiçik ada dövlətləri kateqoriyasına aid coğrafi ərazilərdir. Öz idarəçilikləri olmadığına, hələ də dənizaşırı regionlar kimi idarə edildiklərinə görə həmin ərazilərin nümayəndələri iqlim problemləri çərçivəsində öz səslərini ucalda bilmirlər. "Biz iqlim probleminin qlobal problem olduğunu qəbul ediriksə, inklüzivlik prinsipindən çıxış edərək hər bir tərəfə fürsət vermək lazımdır ki, onlar da öz problemlərini qaldırsınlar. Bu, normal hal idi. Lakin təəssüf ki, inklüzivlikdən danışan və konstruktiv tənqidi həmişə təşviq edən tərəf kimi çıxış edən Fransa bir tənqiddən sonra küskün mövqe tutdu, geri çəkilməyə, buna başqa siyasi donlar geyindirməyə çalışdı. Bu, BMT tədbiridir. Burada hər bir dövlətin iştirak etmək və etməmək hüququ var. Ona görə də bu, Fransanın öz qərarıdır", - deyə Hikmət Hacıyev vurğulayıb.

# Norveçin beynəlxalq inkişaf nazirinə Azərbaycanın sülh səyləri barədə məlumat verilib

**Noyabrın 16-da Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasında (COP29) iştirak məqsədilə ölkəmizdə səfərdə olan Norveç Krallığının beynəlxalq inkişaf naziri Anne Beate Tvinreym ilə görüşüb.**



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, görüşdə Azərbaycan və Norveç arasında əməkdaşlığın perspektivləri, ölkəmizin COP29 sədrliyindən irəli gələn məsələlər, eləcə də regional vəziyyət müzakirə olunub.

Ceyhun Bayramov Azərbaycanın COP29-a sədrliyi, aparılan danışıqlar prosesi haqqında məlumat verərək, ölkəmizin iqlim fəaliyyəti gündəliyinin irəli aparılması istiqamətində səyləri nəticəsində COP29-un ilk günündə sessiyanın gündəliyinin razılaşdırılmasının əhəmiyyətini qeyd edib. Danışıqlar prosesində bu günədək Paris Sazişinin 6.4-cü maddəsi, habelə çoxtərəfli maliyyə institutları tərəfindən illik əsasda iqlim maliyyəsi öhdəliyinin 75 milyarddan 170 milyard ABŞ dollarına qədər artırılması üzrə razılıqların əldə olunduğu diqqətə çatdırılıb.

Azərbaycanın xarici işlər naziri, həmçinin keçmiş Ermənistan-Azərbaycan münaqişəsi və postmünaqişə dövründə bölgədə vəziyyət, habelə ölkəmizin sülh səyləri barədə qarşı tərəfə məlumat verib. Bununla yanaşı, Ermənistanın yaratdığı mina təhdidi diqqətə çatdırılıb.

Görüş zamanı qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Leyla Əliyeva Xəzər dənizinin mühafizəsinə dair "dəyirmi masa" müzakirələrində iştirak edib











**Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA (Ətraf Mühitin Mühafizəsi Naminə Beynəlxalq Dialoq) İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC (Bakı Limanı), ADA Universiteti, IDEA İB, "Caspian İntegrated Scientific Network" (CASPISNET), ABŞ-nin Kaliforniya Universiteti (UCLA) və BMT-nin Ətraf Mühit Proqramı (ƏMP) tərəfindən birgə təşkil olunan "Xəzər dənizi hövzəsi: risklərin qiymətləndirilməsi və aradan qaldırılması" mövzusunda "dəyirmi masa" müzakirələrində iştirak edib.**



AZƏRTAC xəbər verir ki, Azərbaycanın evsahibliyi etdiyi BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində həyata keçirilən tədbirin açılışında çıxış edən Leyla Əliyeva Xəzər dənizinin ətraf mühitinin mühafizəsinin əhəmiyyətini vurğulayıb. Dünya göllərinin ümumi su ehtiyatlarının 40 faizdən çoxunu təşkil edən Xəzər dənizinin malik olduğu zəngin ekosistem barədə tədbir iştirakçılarına məlumat verilib. Leyla Əliyeva Xəzər dənizində yaşanan problemlərin bir sıra canlıların, o cümlədən suitilər, nərə və qızılbalıqların populyasiyasına təsir etdiyini bildirib.

Heydər Əliyev Fondunun vitse-prezidenti IDEA İctimai Birliyi tərəfindən icra olunan müvafiq fəaliyyətlər, o cümlədən "Zəngin hövzələr", "Bir damcı" layihələri və "Blue Marine Foundation" təşkilatı ilə əməkdaşlıq çərçivəsində Xəzər dənizində yaradılan ilk dənizkənarı mühafizə olunan ərazi seçilmiş Qızılağac Milli Parkı ilə bağlı bir sıra məsələlərə toxunub. Qeyd olunub ki, 2011-ci ildən etibarən 7 mindən çox könüllünün yardımı ilə sahilyanı ərazilərdən 120 tona yaxın tullantı toplanaraq təkrar emal edilib. Ətraf mühitin mühafizəsi sahəsində gənclərin rolunu vurğulayan Leyla Əliyeva Xəzər dənizinin gələcək nəsillər üçün qorunub saxlanılması istiqamətində çalışacaq gənc mütəxəssislərin yetişdirilməsinin əhəmiyyətini qeyd edib.

Çıxışının yekununda Leyla Əliyeva Xəzər dənizinin unikal ekoloji sisteminin qorunması naminə monitorinq və davamlı təhlillərin aparılmasının vacibliyini qeyd edərək beynəlxalq ekspertlər və tədqiqat mərkəzlərinin nümayəndələrini birgə layihə və təşəbbüslərlə çıxış etməyə çağırıb.

"Dəyirmi masa" çərçivəsində, həmçinin Bakı Limanının baş direktoru Taleh Ziyadov, Azərbaycan Respublikasının BMT-nin Cenevrə şəhərindəki bölməsində və digər beynəlxalq təşkilatlar yanında daimi nümayəndəsi Qalib İsrafilov, BMT ƏMP-nin "GRID-Geneva" proqramının rəhbəri Paskal Peduzzi, UCLA Universiteti Ətraf Mühit və Dayanıqlılıq İnstitutunun professoru, "CTrees" layihəsinin rəhbəri Sassan Saatchi, Bakı Limanının eksperti və CASPISNET-in koordinatoru Elnur Səfərov, Nazarbayev Universitetinin professoru Emil Bayramov və Rusiya Elmlər Akademiyası P.P.Şirşov adına Okeanologiya İnstitutunun professoru Andrey Kostyanoy tərəfindən müzakirə mövzusu ilə bağlı müxtəlif fikirlər irəli sürülüb.

Sonda Xəzər dənizində müşahidə olunan hərtərəfli problemlərin öyrənilməsi və onların mümkün həll yollarına dair təkliflərin irəli sürülməsi məqsədilə Xəzər İqlim və Dayanıqlılıq Mərkəzinin yaradılması elan edilib.

# "China Daily" qəzeti Heydər Əliyev Fondunun "Azərbaycan. Təbiətin sehrində" nəşrinin təqdimatından yazıb

**Çinin ingilisdilli "China Daily" qəzeti Bakıda keçirilən COP29 çərçivəsində Heydər Əliyev Fondunun Azərbaycana həsr olunan yeni nəşrinin təqdimatı barədə məqalə yayıb.**




Çinin nüfuzlu nəşri sıx əməkdaşlıq etdiyi AZƏRTAC-ın təqdim etdiyi materiala istinad edərək, ideya müəllifi Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva, layihə rəhbəri Prezidentin köməkçisi Anar Ələkbərov olan nəşrdə Azərbaycanın füsunkar təbiəti, flora və faunasına dair fotoşəkillərin, müvafiq məlumatların yer aldığını yazıb.

Qeyd olunub ki, Azərbaycan təbiətinin müxtəlifliyini təsvir edərək ölkənin bütün regionlarını, milli parklar və qoruqlarını əhatə edən layihə üzrə videoçəkilişlər aparılıb, videoçarxlar və sənədli film hazırlanıb.

Nəşr yazır ki, kitabda toplanmış şəkillər Azərbaycanın gözəlliklərini təqdim edəcək, insanlara təbiəti sevməyi və qorumağı bir daha xatırladacaq. Layihə zamanı işğaldan azad olunmuş ərazilərdə - Qarabağda və Şərqi Zəngəzurda da çəkilişlər aparılıb.

Qeyd edək ki, çap versiyası və rəqəmsal platformalar üzrə yüz milyonlarla oxucusu olan nüfuzlu "China Daily" qəzeti təkcə Çində deyil, eləcə də dünyada ingilis dilində nəşr edilən ən populyar qəzetlərdən biridir. Onun xarici ölkələrdəki oxucularının sayı Çindəki oxucularından çoxdur.

Xatırladaq ki, oktyabrda 6-cı Dünya Media Sammiti çərçivəsində AZƏRTAC ilə "China Daily" arasında əməkdaşlıq haqqında müqavilə imzalanıb. Nəşr Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın qazandığı uğurlar haqqında AZƏRTAC-ın onlarca materialını öz internet səhifəsində yerləşdirib. "China Daily" Bakıda keçirilən COP29 haqqında onlarca material yayıb.



# Dünya Bakıda birləşib

## İlham Əliyevin sülh və əməkdaşlıq missiyası



## Azərbaycanın "yaşıl gündəliy"i dünya liderləri tərəfindən böyük etimad qazandı və təqdir olundu











**Şərqlə Qərbin, Şimalla Cənubun qovşağında yerləşən Azərbaycan dünyanı birləşdirən ölkə kimi beynəlxalq ictimaiyyətin gündəminə düşdü. 196 ölkədən gəlmiş 70 mindən çox iştirakçı, o cümlədən 80 prezident, vitse-prezident və baş nazir dünyanın ekoloji fəlakətdən xilası üçün Bakıya toplaşdılar.**

İşinə başladığı ilk gündən COP29 iqlim dəyişmələrinin yaratdığı fəsadlardan qurtulmaq üçün real həll yollarının təklif edildiyi platforma oldu. Ən əsası da BMT-nin bu nüfuzlu tədbirinin ölkəmizdə yüksək səviyyədə təşkil olunması xüsusi diqqət çəkdi.

### Sülhün vacibliyi

Bunu müxtəlif ölkələrdən olan qonaqların, rəsmi şəxslərin, media nümayəndələrinin, ekspertlərin Azərbaycanın qlobal miqyaslı tədbirə layiqincə evsahibliyi etdiyini məxsusi olaraq vurğulamaları da aydın şəkildə göstərir. Həmçinin BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasında iştirak üçün Bakıya gələn dövlət başçıları, yüksəksəviyyəli rəsmi nümayəndələr ölkəmizin bu tədbirə hazırlığını yüksək qiymətləndirir, xoş sözlərini dilə gətirirlər. COP29-da iqlim dəyişmələrinin fəsadlarının aradan qaldırılması üçün mühüm və effektiv qərarların qəbul olunacağına böyük ümid bəslədiklərini söyləyən ölkə rəhbərləri Azərbaycanın məharətlə sədrlik etdiyi bu nəhəng tədbirin yüksək səviyyədə təşkilinə görə şəxsən Prezident İlham Əliyevə təşəkkürlərini bildirirlər.

Liderlər Sammitinin açılış mərasimində Malayziyanın paytaxtı Kuala Lumpurun meri, BMT-nin Məskunlaşma Proqramının (UN-HABITAT) sabiq icraçı direktoru xanım Maimuna Mohd Şərif çıxışında Prezident İlham Əliyevə xitabən söylədi: "Siz həqiqətən də öz rəhbərliyiniz və liderliyinizlə hamını sülhün vacibliyinə inandırdınız. Sülh olmadan dayanıqlı inkişaf barədə danışmaq mümkün deyil. Dayanıqlı inkişaf olmadan da biz sülhü yarada bilmərik. Mən Azərbaycana Dayanıqlı İnkişaf Məqsədlərinə verdiyi töhfələrə görə təşəkkür edirəm. Siz öz şəhərlərinizi yenidən bərpa edirsiniz. Bunu Dayanıqlı İnkişaf Məqsədlərinə əsasən edirsiniz".

### Şavkat MİRZİYOYEV: "Bu tədbir çox yüksək səviyyədə təşkil olunub"

Türk dünyası ailəsinin üzvləri, Azərbaycana qardaş ölkələr - Türkiyə, Özbəkistan, Qazaxıstan, Qırğızıstan, Macarıstan COP29-da ən yüksək səviyyədə təmsil olundular.

Azərbaycana tam dəstəklərini ifadə edən qardaş ölkələrin liderləri COP29-un uğurla keçirilməsi münasibətilə təbriklərini çatdıraraq, iqlim konfransının çox yaxşı təşkil olunduğunu vurğuladılar.

Hələ bu ilin iyulunda Şuşada təşkil olunan Türk Dövlətləri Təşkilatına (TDT) daxil olan ölkələrin dövlət rəhbərlərinin qeyri-rəsmi Zirvə görüşündə də dövlət başçıları tərəfindən birmənalı olaraq vurğulandı ki, türkdilli dövlətlər COP29 konfransının işində fəal iştirak edəcəklər.

Şuşada keçirilən qeyri-rəsmi Zirvə görüşündə imzalanan və türk dünyası üçün böyük əhəmiyyət kəsb edən Qarabağ Bəyannaməsində də COP29-a yekdil dəstək öz əksini tapıb: "2024-cü il noyabrın 11-22-də Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının (COP29) 29-cu sessiyasına evsahibliyi etməkdə Azərbaycan Respublikası Hökumətinə uğurlar arzulayır və Konvensiyanın tərəflərinin gözləntiləri əsasında COP29-un konkret nəticələrinin əldə edilməsində Azərbaycanın ardıcıl səylərini dəstəkləyirik".

Noyabrın 13-də Prezident İlham Əliyevlə görüşdə Özbəkistan Prezidenti Şavkat Mirziyoyev COP29-un uğurla keçirilməsi münasibətilə təbriklərini çatdıraraq, bu tədbirin çox yüksək səviyyədə təşkil olunduğunu vurğuladı. Qeyd etdi ki, Özbəkistan Azərbaycana dost, qardaş və müttəfiq ölkə olaraq buna sevinir. Ali qonaq dedi ki, Özbəkistanda Azərbaycana xüsusi münasibət var.

### Ciorcia MELONİ: "Azərbaycanı COP29-un sədri kimi görməkdən çox məmnunam"

Azərbaycanla İtaliya arasında hər zaman dostluq münasibətləri olub. Sıx əlaqələrlə bağlı olan iki ölkə arasındakı münasibətlər dinamik inkişaf edir. Azərbaycan və İtaliya arasında müxtəlif sahələr üzrə əməkdaşlıq əlaqələri daim genişlənir. Azərbaycanda təşkil olunan COP29 tədbirində İtaliyanın fəal iştirakı bu baxımdan təsadüfi deyil.

Azərbaycana səfərə gələn və Bakıda keçirilən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasındakı çıxışında İtaliyanın Baş naziri xanım Ciorcia Meloni Azərbaycanı sülh naminə iqlim təşəbbüsünün bir hissəsi kimi qiymətləndirilən COP29-un sədri kimi görməkdən çox məmnun olduğunu bildirib və COP29-un təşkilinə görə ölkəmizə təşəkkürünü ifadə edib.

İtaliyanın Baş naziri Bakıdan dünyaya çağırış da edib: "Hər bir COP kimi, bunun uğurlu və ya uğursuz olacağını müəyyən etmək bizdən asılıdır. Biz bilirik ki, göstərdiyimiz səylərin nəticələrindən şəxsən faydalanmaya bilərik. Amma vacib olan bu deyil. Mən anayam və bir ana olaraq heç nə mənə qızıma və onun nəslinə daha yaxşı yerdə yaşamağa imkan verəcək siyasətlərlə çalışmaqdan daha çox məmnunluq vermir.

Misir Ərəb Respublikasının Baş naziri Mustafa Mədbuli yüksək təşkilatçılığa görə Azərbaycana təşəkkür edib və uğurlar arzulayıb. Hökumət başçısı iqlim maliyyələşməsinin vacibliyini vurğulayaraq ölkəsinin bu istiqamətdə gördüyü işlərdən danışıb.

Gürcüstanın Baş naziri İrakli Kobaxidze də yüksək təşkilatçılıq səviyyəsinə görə Azərbaycan Prezidentinə dərin minnətdarlığını bildirib. COP-un Qafqazda ilk dəfə ölkəmizdə keçirildiyini xüsusi vurğulayan Baş nazir bu mötəbər beynəlxalq tədbirə peşəkarlıqla evsahibliyi edən Azərbaycana uğurlar arzulayıb.

### Məhəmməd Şahbaz ŞƏRİF: "COP29 mütləq tarixə düşəcək"

Azərbaycan və Pakistanı da tarixi dostluq əlaqələri birləşdirir. İki dost ölkə daim siyasi, mənəvi dəstəkləri ilə bir-birinin yanında olurlar. Pakistan və Azərbaycan liderləri arasında hər zaman şəxsi zəmində də dostluq münasibətləri olub.

COP29-un plenar iclasında çıxış edən Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərif də Bakıda iqlim sammitinin uğurla keçirilməsi münasibətilə əziz qardaş adlandırdığı Azərbaycan Prezidenti İlham Əliyevi təbrik edib. Pakistan hökumətinin başçısı əminliklə bildirib ki, COP29 mütləq tarixə düşəcək.

Moldovanın Prezidenti Maya Sandu da çıxışında COP29-un Bakıda keçirilməsinə görə Prezident İlham Əliyevə və Azərbaycan hökumətinə dərin minnətdarlığını bildirib.

Konqo Demokratik Respublikasının Baş naziri Cudit Suminva Tuluka Bakının bütün bəşəriyyət üçün belə mühüm tədbirə evsahibliyi etdiyinə görə Azərbaycana və şəxsən dövlətimizin başçısı İlham Əliyevə minnətdarlığını bildirib. "Ola bilsin ki, yalnız gələcək nəsillər bu gün burada etdiklərimizin və müzakirə etdiyimiz məsələlərin tam mənasını anlayacaqlar. Amma ilk növbədə biz nəticələr əldə etməliyik", - deyə Baş nazir COP29-un mühüm əhəmiyyətini bir daha vurğulayıb.

Dünya liderlərinin inkişaf etməkdə olan kiçik ada dövlətlərinin sammitində çıxış edən rəhbər şəxslər də COP29-un təşkilinə görə Azərbaycana minnətdarlıq ifadə edib, iqlim dəyişmələrinin böyük fəlakətlərə səbəb olduğu bu ölkələr üçün iqlim maliyyələşməsinin və uğurlu danışıqların əhəmiyyətini vurğulayıblar. Onlar COP29 çərçivəsində kiçik ada dövlətlərinin problemlərinin müzakirə olunduğu yüksəksəviyyəli tədbirin təşkilinin önəmini xüsusilə qeyd ediblər.

### COP düzgün ünvanda

Xatırladaq ki, ötən ilin dekabrında təxminən 200 ölkənin yekdil qərarı ilə Azərbaycana COP29-a evsahibliyi etmək qərarı verilib. Bu həm ölkəmizə olan etimadın göstəricisi, həm də Azərbaycanın beynəlxalq arenada oynadığı fəal rolun qiymətləndirilməsi idi. Bakıda təşkil olunan COP29-un yüksək səviyyədə keçirilməsi, burada istər iqlim maliyyələşməsi, istərsə də digər məsələlərlə bağlı olsun, əldə edilən uğurlar eyni zamanda respublikamızın Yer kürəsinin ekologiyasının qorunması ilə bağlı mühüm təşəbbüsləri COP29-un doğru ünvanda keçirilməsinin təsdiqidir. Və bütün bunların müxtəlif ölkə liderləri tərəfindən təqdir olunması Azərbaycanın - şəxsən İlham Əliyevin təqdim etdiyi "yaşıl gündəliy"in dünya tərəfindən qəbul olunması deməkdir.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*











COP29 Baku Azerbaijan

# COP29: keçmişdən gələcəyə şanlı keçid







# Naxçıvandan Xankəndiyə və... COP29-a

## 34 il əvvəl Ulu Öndər Heydər Əliyevin Naxçıvanda ucaltdığı bayraq Zəfər rəmzinə çevrilərək bu gün bütün dünyanı Azərbaycanda birləşdirir

**Tarixən formalaşmış ənənələr, mental baxışlardan qaynaqlanan milli-mənəvi dəyərlər hər bir etnosun kimliyinin, kamillik səviyyəsinin təcəssümü olmaqla yanaşı, həm də bəşər sivilizasiyasına dəyərli töhfədir. Milli kimliyi ifadə edən bu dəyərlər eyni zamanda hər bir xalqın mənəvi sərvəti, toxunulmaz xəzinəsi, özünütəsdiq faktıdır.**

Tarixdən məlum olduğu kimi, Azərbaycan öz müstəqilliyini əldə etdiyi dövrlərdə xalqın milli kimliyinin pasportu hesab edilən dövlət atributları da yaradıldı. Azərbaycanlı milli düşüncəsində də əsas dövlət rəmzlərindən olan bayrağa münasibət tarixboyu özünü qabarıq göstərmiş, xalqımızın milli mövcudluq nişanəsi sayılmışdır. Müasir anlamda isə bayraq xalqın müstəqillik, suverenlik, milli azadlıq, istiqlal ideallarını simvolizə edir. Azərbaycan Respublikasının müstəqil, suveren dövlət kimi mövcudluğunu dövlətçilik rəmzlərindən olan Dövlət bayrağı bütün dünyaya göstərir. Zəngin tarixi irsdən yararlanaraq uğrunda on minlərlə insanın canından keçdiyi üçrəngli bayrağımız tarixi yolumuzun, milli ideologiyamızın təməl prinsiplərini tam mənası ilə izah edir.

1918-ci ildə yaradılan Azərbaycan Xalq Cümhuriyyəti iki ilə yaxın mövcudluqdan sonra öz dövlət müstəqilliyini itirsə də, milli dövlətçilik ənənələrinin formalaşması baxımından mühüm rol oynamışdır. 1920-ci il aprelin 28-də Azərbaycan Xalq Cümhuriyyətinin süqut etməsi və sovet hakimiyyətinin qurulması ilə bu bayraq aradan götürülmüşdür.

Tarix dəfələrlə sübut edib ki, xalqın vahid məqsədlər uğrunda birləşməsi üçün zəruri olan milli birlik böyük siyasi dühaların yaratdığı ideologiyalarda reallaşır. XX əsrdə xalqımızla bağlı bu şərəfli missiyanı Ümummilli Lider Heydər Əliyev həyata keçirmişdir. Ulu Öndər həyatının bütün dövrlərində milli ideologiyanın formalaşması və möhkəmlənməsi naminə müstəsna xidmətlər göstərmiş, milli şüurun inkişafına nail olmuş, xalqa məxsus adət-ənənə və dəyərlər sistemini qloballaşmanın sərt təsirlərindən qorumağı bacarmış, azərbaycançılığı milli ideologiyaya çevirməyə nail olmuşdur. Sovet İttifaqının dağılması ərəfəsində Ulu Öndər Heydər Əliyev siyasi bacarığı ilə Azərbaycan xalqını bəlalardan qorudu. Ümummilli Lider 1990-cı il iyulun 22-də Naxçıvana gələrək burada xalqın dərdinə şərik çıxdı. Müdrik siyasətçinin rəhbərliyi altında Naxçıvanda dövlət quruculuğu, hakimiyyət və idarəetmənin təkmilləşdirilməsi sahəsində mühüm işlər görüldü. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2009-cu il avqustun 4-də Naxçıvan Muxtar Respublikasının 85 illiyinə həsr olunmuş təntənəli mərasimdə söylədiyi geniş nitqində bu barədə demişdir: *"Demək olar ki, ölkəmizin müstəqilliyinin bünövrəsi məhz o illərdə qoyulmuşdur. 1990-cı ildə Heydər Əliyevin rəhbərliyi altında Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının Ali Sovetinin sessiyasında qəbul edilmiş tarixi qərarlar Azərbaycanın dövlət müstəqilliyini şərtləndirdi"*.

34 il əvvəl - 1990-cı il iyulun 22-də xalqımızın dahi oğlu, görkəmli dövlət xadimi Heydər Əliyevin Naxçıvana qayıtması və siyasi fəaliyyətini davam etdirməsi respublikamızda milli dirçəliş hərəkatını yeni mərhələyə yüksəltdi. Naxçıvandan başlanan bu proses qısa vaxtda ölkəmizin ictimai-siyasi mühitində böyük hərəkata çevrilməklə Azərbaycanın dövlət müstəqilliyinin bərpası istiqamətində mühüm tarixi hadisələrin baş verməsinə səbəb oldu.

Müstəqilliyin qazanılmasına, onun qorunub saxlanmasına böyük əmək sərf edən dahi rəhbər Azərbaycanın dövlət müstəqilliyi elan edilməmişdən hələ bir il əvvəl, yəni 1990-cı il noyabrın 17-də üçrəngli Azərbaycan bayrağını Naxçıvan Muxtar Respublikasının Ali Məclisində qaldırdı. Həmin sessiya tariximizdə Azərbaycan dövlətçiliyinin bərpası prosesinin həyata keçirilməsi ilə bağlı bir çox məsələnin müzakirə olunması, ölkəmizi müstəqilliyə aparan yolda tarixi qərarların qəbul edilməsi ilə əlamətdar olmuşdur. Ali Məclisin 1990-cı il noyabrın 17-də Ümummilli Lider Heydər Əliyevin sədrliyi ilə keçirilən sessiyasında Azərbaycanın müstəqil, demokratik və dünyəvi dövlət kimi fəaliyyət göstərməsi üçün tarixi qərarlar qəbul edildi. Ulu Öndər bu barədə demişdir: "Naxçıvanda yaşadığım müddətdə burada cəsarətli addımlar atıldı. 1990-cı il noyabrın 17-də biz Naxçıvan Muxtar Respublikası Ali Sovetinin sessiyasında, mənim sədrlik etdiyim sessiyada ilk dəfə 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən qəbul olunmuş Azərbaycan milli bayrağını qaldırdıq. Naxçıvan Muxtar Respublikasının dövlət atributlarını müəyyən elədik. Hələ Kommunist Partiyası da var idi, Sovet hakimiyyəti də. Qərar qəbul etdik ki, Naxçıvan Muxtar Respublikasının adından "sovet sosialist" sözləri çıxarılsın. Çıxardıq və qərar qəbul etdik ki, Naxçıvanın milli bayrağı qəbul olunsun - milli bayraq 1918-ci ildə Xalq Cümhuriyyəti tərəfindən qəbul edilmiş üçrəngli bayraqdır".



Dahi şəxsiyyətin işləyib hazırladığı və Ali Məclisdə yekdilliklə qəbul olunan "Naxçıvan Muxtar Respublikasının dövlət rəmzləri haqqında" qərar müstəqil Azərbaycan Respublikasının dövlətçilik tarixində ilk və mühüm dövlət sənədi kimi özünəməxsus yerə malikdir. Həmin qərarda deyilirdi: "Naxçıvan Muxtar Respublikasının Ali Məclisi qərara alır: 1. İlk Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli Dövlət Bayrağı Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı kimi təsis edilsin. 2. Naxçıvan Muxtar Respublikasının digər dövlət rəmzi - Dövlət Himni və gerbi haqqında məsələ öyrənilib Naxçıvan Muxtar Respublikası Ali Məclisinin müzakirəsinə verilsin. 3. Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli Dövlət Bayrağının bütövlükdə Azərbaycan SSR-in dövlət rəmzi kimi təsis edilməsi məsələsi qanunvericilik təşəbbüsü qaydasında Azərbaycan SSR Ali Sovetindən xahiş edilsin". Həmin gün üçrəngli bayrağımız zala gətirilmiş, beləliklə, Azərbaycan Xalq Cümhuriyyətinin bayrağı Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı kimi qəbul olunmuşdur. Bununla da milli dövlətçiliyimizin dirçəliş prosesinin hüquqi əsaslarının yaradılmasına məhz Ulu Öndərimizin rəhbərliyi ilə Naxçıvandan başlanmışdır. O dövrdə dahi şəxsiyyətin Naxçıvanda həyata keçirdiyi tədbirlər müstəqillik tariximizdə mühüm mərhələ təşkil edir. Məhz Ümummilli Liderimiz Heydər Əliyevin təşəbbüsü ilə həmin sessiyada "Naxçıvan MSSR-in adının dəyişdirilməsi haqqında", "Naxçıvan Muxtar Respublikasının dövlət rəmzləri haqqında", "Naxçıvan Muxtar Respublikası ali dövlət hakimiyyəti orqanı haqqında" tarixi qərarlar qəbul edilmişdir. "Naxçıvan Muxtar Respublikasının dövlət rəmzləri haqqında" qərara əsasən, müstəqilliyimizin əsas atributlarından olan Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı kimi qəbul olunmuş, Naxçıvan Muxtar Respublikasının Ali Məclisi Azərbaycan SSR Ali Soveti qarşısında üçrəngli bayrağın Azərbaycanın dövlət rəmzi kimi tanınması barədə vəsatət qaldırmışdır. Həmin dövrdə Ulu Öndər Heydər Əliyevin Naxçıvan parlamentində qəbul etdiyi qərarlar təkcə muxtar respublika üçün yox, bütün Azərbaycan üçün həyati əhəmiyyət kəsb edirdi.

Bəli, müstəqillik yolunda ilkin addımlar Ümummilli Lider tərəfindən Naxçıvanda atılmışdı və bu o vaxt baş verirdi ki, SSRİ kimi imperiya hələ tarix səhnəsindən silinməmişdi. Bununla Naxçıvanda başlanan demokratik proseslər tezliklə Azərbaycanı ayağa qaldırdı. Həmin vaxt Naxçıvan artıq Azərbaycanın siyasi mərkəzinə çevrilmişdi. Bakıda oturaraq Azərbaycanın müstəqilliyi barədə qərar qəbul etməyə tərəddüd edən ovaxtkı iqtidar bütün bu addımları düzgün qiymətləndirə bilmir, ya da qiymətləndirmək istəmirdi. Lakin Naxçıvan Ali Məclisi Heydər Əliyevin rəhbərliyi ilə artıq milli dövlətçilik ənənələrinin təşəkkül tapmasına istiqamətlənmiş mühüm tarixi qərarları qəbul etməkdə davam edirdi.

Prezident İlham Əliyevin Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinin qeyd edilməsi haqqında 30 dekabr 2023-cü il tarixli sərəncamında bu hadisənin nə qədər tarixi əhəmiyyətə malik olduğu bir daha vurğulanmışdır: *"Məhz Heydər Əliyevin uzaqgörənliyi sayəsində 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikasının ali qanunverici orqanında Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağının dövlət rəmzi olaraq qəbul edilməsi dövrün mürəkkəb ictimai-siyasi proseslərinə həlledici təsir göstərmiş və Azərbaycanı müstəqilliyə sürətlə yaxınlaşdırmışdır"*.

1991-ci il oktyabrın 18-də dövlət müstəqilliyi bərpa edilsə də, ölkə "olum və ya ölüm" dilemması ilə üz-üzə qalmışdır. Belə çətin bir vaxtda xalq nicat yolunu ancaq Ulu Öndərin timsalında görürdü. Milyonlarla insanın ümidli baxışları ona dikilmişdi. 1993-cü ildə xalq haqlı olaraq müdrik dövlət xadiminə üz tutdu və onun timsalında həqiqi xilaskarını tapdı. Heydər Əliyev bütün bu təhlükələrə baxmayaraq, xalqına dar gündə kömək etmək qərarına gəldi və tərəddüd etmədən 1993-cü ilin iyununda Bakıya qayıtdı. "Mən ömrümün qalan hissəsini də bundan sonra xalqıma həsr edəcəyəm" deyən dahi rəhbər siyasi hakimiyyətə qayıdışından dərhal sonra müstəqilliyimizin qorunub möhkəmləndirilməsi üçün ən vacib tədbirlərə əl atdı. Mühüm siyasi-iqtisadi islahatlar başlandı və müstəqil dövlətçiliyin inkişafına maneə törədən daxili və xarici qüvvələrə qarşı kəskin mübarizə aparıldı. Beləliklə, ölkəmizdə aparılan bütün islahatlar xalqın milli düşüncə tərzinin, vahid azərbaycançılıq ideologiyasının inkişafına zəmin yaratdı. Xalqımız öz dahi rəhbərinin ətrafında sıx birləşməklə möhkəm iradə nümayiş etdirdi və bütün sınaqlardan üzüağ çıxmağı bacardı.

Bu gün Azərbaycan xalqı xoşbəxtdir ki, Ulu Öndərin siyasi kursu Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən qətiyyətlə davam etdirilir. Azərbaycan xalqı İlham Əliyevin rəhbərliyi altında gələcəyə, yüksəlişə və inkişafa doğru dahi şəxsiyyət Heydər Əliyevin əsasını qoyduğu yolla inamla irəliləyir və Azərbaycan hər bir ölkə vətəndaşının fəxr edəcəyi, qürur duyacağı bir məkana çevrilir. Ötən illər aşkar şəkildə göstərdi ki, İlham Əliyev öz fəaliyyət dövrünü bu amalın reallaşmasına həsr etmiş, Ulu Öndərin müstəqillik və azadlıq ideyalarını dönmədən həyata keçirmiş, Azərbaycanı sosial-iqtisadi inkişaf, demokratik hüquqi dövlət quruculuğu və siyasi sabitlik baxımından dünyanın sayılıb-seçilən dövlətlərindən birinə çevirmişdir. Azərbaycan Prezidentinin dövlət rəmzlərinə verdiyi yüksək dəyərin nəticəsidir ki, şanlı tariximizdən gələn milli dəyərlərə hörmət və ehtiram dövlətin təməl prinsipləri sırasında xüsusi yeri ilə seçilir. Azərbaycan üçrəngli bayrağımız altında müstəqillik yolu ilə inamla irəliləyir, iqtisadi və siyasi gücünü getdikcə artırır. Dövlət başçısının Azərbaycan bayrağının ilk dəfə Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı kimi qəbul edildiyi gündə - 2009-cu il noyabrın 17-də imzaladığı tarixi sərəncam ilə təsis edilmiş Azərbaycan Respublikasının Dövlət Bayrağı Günü müqəddəs bayrağımıza, tarixi keçmişimizə və mənəvi-siyasi dəyərlərimizə, Naxçıvanda formalaşdırılan tarixi dövlətçilik ənənələrinə dövlət səviyyəsində olan diqqət və ehtiramın ən yüksək səviyyədə göstəricisidir.

Bu gün bayrağımız dövlətimizin gücünün və xalqımızın milli birliyinin nişanəsi kimi dünyanın ən nüfuzlu beynəlxalq təşkilatlarında, mötəbər mərasimlərdə, ən yüksək zirvələrdə dalğalanır. Qürurvericidir ki, illər öncə Prezidentimizin dediyi "Bizim bayrağımız Dağlıq Qarabağda, Xankəndidə, Şuşada dalğalanacaqdır. O günü biz hər an öz işimizlə yaxınlaşdırmalıyıq və yaxınlaşdırırıq" ifadələri bu gün real həyatda təsdiqini tapıb.

34 il əvvəl - 1990-cı il noyabrın 17-də Ulu Öndər Heydər Əliyevin Naxçıvanda ucaltdığı bayrağımız Müzəffər Ali Baş Komandan İlham Əliyevin əsl sərkərdə qətiyyəti ilə Qarabağda, Şərqi Zəngəzurda, bütün Azərbaycanda qürurla dalğalanmaqdadır.

Bu gün dövlət başçısı bölgəmizdə düşmənçiliyə son qoyulması, qarşılıqlı etimada əsaslanan davamlı sülhə, əmin-amanlığa nail olunması uğrunda təşəbbüslər irəli sürür. Bu təşəbbüslər isə Cənubi Qafqazda sabitlik və inkişaf üçün zəruri şəraitin yaradılmasına xidmət edir. Bu gün təkcə regional deyil, qlobal miqyaslı məsələlərdə də Cənubi Qafqazın lider ölkəsi olan Azərbaycanın mövqeyi və rəyi mütləq nəzərə alınır. Eyni zamanda da ölkəmizin beynəlxalq tədbirlərin keçirildiyi, sivilizasiyalararası dialoqların baş tutduğu vacib platformaya çevrilməsi onun dünyada hansı yüksək mövqeni tutduğunu sərgiləyir.

Azərbaycanın yüksəksəviyyəli mötəbər tədbirlərə uğurla evsahibliyi etməsi dövlətimizin beynəlxalq aləmdə gündən-günə artan nüfuzundan xəbər verir. Xüsusən son illər Azərbaycanın regionda aparıcı aktora çevrilməsi, dünyada artan nüfuzu onun beynəlxalq təşkilatlarla əlaqələrində və onların fəaliyyətində fəal iştirakına gətirib çıxarıb. Artıq dünya dövlətləri Azərbaycanı etibarlı, mühüm tərəfdaş, sözü imzası qədər dəyərli olan ölkə kimi qəbul edirlər. Bu gün Azərbaycan bir sıra beynəlxalq qurumlarda sadəcə üzv kimi təmsil olunmur, həm də bir çox qərarın qəbulunda və icrasında yaxından iştirak edir.

Hazırda Azərbaycanın dünyanın ən böyük və mühüm dövlətlərarası tədbirlərindən biri olan COP29-a evsahibliyi etməsi ölkəmizin qüdrətini bir daha dünyaya göstərir və beynəlxalq aləmdə böyük etimad qazandığını nümayiş etdirir.

SSRİ kimi qüdrətli bir imperiyanın hələ tarix səhnəsindən silinmədiyi bir dövrdə Naxçıvanın adından "sovet sosialist" sözlərinin çıxarılması, Naxçıvan Muxtar Respublikasının Ali Məclisində Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağının muxtar respublikanın Dövlət bayrağı kimi qəbul edilməsi milli dövlətçiliyimizin hüquqi əsaslarını elə formalaşdırdı ki, bu gün 196 ölkədən 72 min insan dünyanın qlobal ekoloji problemlərini Azərbaycanda müzakirə edir. Ən əsası isə o bayraq fonunda dünya Azərbaycanda birləşir.

**Arzu ABDULLAYEV,**
***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədr müavini, tarix üzrə fəlsəfə doktoru, dosent***

COP29 Baku Azerbaijan

# COP-ların ən mükəmməli 29-cusu oldu





# Ədalətli əməkdaşlıq və real tədbirlər

**Bakıda keçirilən Birləşmiş Millətlər Təşkilatının (BMT) İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) günlərində təşkil edilən tədbirlərdə bütün dünya üçün olduqca vacib, önəmli məsələlərdən, qlobal problemlərdən danışılır, müzakirələr aparılır, birlikdə çıxış yolları aranır. Dünyanın ən böyük iqlim tədbiri çərçivəsində noyabrın 12-də "yaşıl zona"da "Gənclər iqlim fəaliyyətlərinin ön cəbhəsində" mövzusunda keçirilən konfrans da bu baxımdan əhəmiyyətli oldu.**

**Sözügedən konfransın əsas məqsədi Mərkəzi Asiya və türkdilli dövlətlərin iqlim dəyişikliyinə qarşı mübarizəyə verdiyi önəmi beynəlxalq ictimaiyyətin diqqətinə çatdırmaq və bu dövlətlərin gənclərini iqlim gündəliyinə cəlb etməklə beynəlxalq öhdəliklər istiqamətində görülən tədbirləri təqdim etmək idi.**

## Dünya ətraf mühitin çağırışları ilə üz-üzədir

Tədbirdə Azərbaycan Respublikasının birinci xanımı Mehriban Əliyeva, Qırğız Respublikasının birinci xanımı Aygül Japarova, Özbəkistan Respublikasının birinci xanımı Ziroatxon Mirziyoyeva, Türkiyə Respublikasının birinci xanımı Əminə Ərdoğan, İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatının (ICESCO) Baş direktoru Salim bin Məhəmməd Əl-Malik, Birləşmiş Millətlər Təşkilatının Avropa üzrə İqtisadi Komissiyasının (UNECE) icraçı katibi Tatyana Molçan, BMT-nin Uşaq Fondunun (UNICEF) Avropa və Mərkəzi Asiya üzrə regional direktoru Regina De Dominikis iştirak etdilər.

Özbəkistan Respublikasının birinci xanımı Ziroatxon Mirziyoyeva, Qırğız Respublikasının birinci xanımı Aygül Japarova və Türkiyə Respublikasının birinci xanımı Əminə Ərdoğan konfransda çıxış etdilər. Sonra Azərbaycan Respublikasının birinci xanımı Mehriban Əliyeva çıxış edərək diqqətə çatdırdı ki, son tədqiqatlara görə, dünya gənclərinin 60 faizdən çoxu iqlim dəyişmələrini təxirəsalınmaz məsələ hesab edir.

Mehriban Əliyeva COP29 çərçivəsində əməkdaşlıq, təcrübə mübadiləsi, gənc nəsil tərəfindən birgə layihələrin müəyyənləşdirilməsi üçün platformanı yaratmaq imkanımızın olacağına ümid etdiyini bildirdi.

Azərbaycanın BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına, yəni COP29-a evsahibliyi etməsi ölkəmizin dünyada artan nüfuzunun bariz nümunəsidir. Ölkəmizin birinci xanımı COP29 ölkəsi seçilməyin böyük şərəf olduğunu vurğuladı: "Biz fərəhlənirik ki, Cənubi Qafqazda, Mərkəzi Asiyada və daha geniş regionda ilk COP konfransı məhz Azərbaycanda keçirilir".

Dünyanın biosferin çirklənməsi, içməli suyun qıtlığı, tez-tez baş verən quraqlıq və ərzaq təhlükəsizliyində artan risklər kimi ciddi ətraf mühit çağırışları ilə üz-üzə qaldığını, bizim ölkəmizin də istisna olmadığını diqqətə çatdıran Azərbaycanın birinci xanımı bildirdi ki, biz çay sularının, Xəzər dənizinin səviyyəsinin azalmasını müşahidə edirik və su qıtlığı təhlükəsi ilə üzləşirik.

## Hədəflərimizə nail olacağıq

Uzun illərdir ki, Azərbaycan ekoloji durumun sağlamlaşdırılması və təbii sərvətlərdən səmərəli istifadə sahəsində təqdirəlayiq işlər həyata keçirir. Ətraf mühitin mühafizəsini, ekoloji problemlərin həllini Azərbaycan dövləti prioritet hesab edir. Ölkədə ətraf mühit sahəsində mövcud olan problemlərin həll edilməsi üçün iri-miqyaslı tədbirlər görülür, layihələr reallaşdırılır. Prezident İlham Əliyevin sərəncamı ilə 2024-cü il Azərbaycanda "Yaşıl dünya naminə həmrəylik ili" elan edilib. Dövlət başçısı İlham Əliyevin rəhbərliyi ilə respublikamızda sosial-iqtisadi və digər sahələrdə, həmçinin ətraf mühitin sağlamlaşdırılması sahəsində həyata keçirilən quruculuq işləri səmərəsini verir.

COP29 çərçivəsində "Gənclər iqlim fəaliyyətlərinin ön cəbhəsində" mövzusunda keçirilən konfransda ölkəmizin birinci xanımı Mehriban Əliyeva bir sıra məqamları diqqətə çatdırdı: "Mən qeyd etmək istərdim ki, qlobal istixana tullantılarının 0,1 faizi Azərbaycanın payına düşür. Biz havaya tullantıların azaldılması və təmiz enerjiyə keçidin həyata keçirilməsi kimi milli hədəflərimizə doğru gedirik. Bərpaolunan enerji sahəsində əldə edilən nailiyyətlərin cari tempi ilə biz 2027-ci ilə qədər quraşdırılan güclərimizin 32 faizə çatacağını, 2030-cu ilə qədər 30 faizlik azalma kimi ilkin hədəfə üç il əvvəl nail olacağımızı gözləyirik".

Respublikamızda həyata keçirilən ekoloji problemlərin meydana çıxardığı fəsadların aradan qaldırılmasına istiqamətlənmiş örnək fəaliyyətlərdən biri də "xalis sıfır atılmalar zonası"nın yaradılması, bu sahədə reallaşdırılan işlərdir. Azərbaycanın birinci xanımı konfransda çıxışında bildirdi: "Biz həmçinin Ermənistanın işğalından azad olunmuş Qarabağ və Şərqi Zəngəzur regionlarında, o cümlədən Naxçıvan Muxtar Respublikasında 2050-ci ilə qədər "xalis sıfır atılmalar zonası"nın yaradılmasına diqqət yetiririk. Əsasən günəş və külək enerjisi layihələri ilə bağlı artıq fəal iş aparılır. "Yaşıl enerji"nin istehsalı və ixracı Azərbaycanın enerji strategiyasında prioritet təşkil edir".

Təəssüf ki, bu gün iqlim dəyişikliyi dünyanı təhdid edir. Bəşəriyyətin qlobal problemlərinə çevrilən iqlim dəyişkliyinin fəsadları aradan qaldırılmazsa, təhlükələrin qarşısı alınmazsa, gələcək nəsillər indikindən daha ağır, bəlkə də geri dönüşü mümkün olmayan fəlakətlərlə, faciələrlə qarşılaşacaqlar. Bakıda noyabrın 11-dən başlayan, noyabrın 22-dək davam edəcək BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasında (COP29) bu mənada yalnız bu gün üçün deyil, həm də gələcək üçün önəmli məsələlər müzakirə edilir.

"Gənclər iqlim fəaliyyətlərinin ön cəbhəsində" mövzusunda keçirilən konfransda Azərbaycanın birinci xanımı uzun müddətdir ki, iqlim fəaliyyətinin beynəlxalq arenada ən vacib və prioritet məsələlərdən biri olduğunu, atılmış addımlara baxmayaraq, bəşəriyyətin üzləşdiyi çağırışlar və təhdidlərin günbəgün daha da ciddiləşdiyini qeyd etdi. Diqqətə çatdırdı ki, bunu nəzərə alaraq, qlobal məsələlərin həllində tətbiq olunan yanaşma və üsullara yenidən baxılması vaxtı yetişib.

## "Azərbaycan manipulyasiya və təzyiq deyil, səmərəli fəaliyyət, real həll variantları və ədalətli əməkdaşlığı arzulayan ölkədir"

"Bu gün mən açıq və düzgün qeyd olunmalı digər mühüm mövzuya toxunmaq istəyirəm: riyakarlıq və ikili standartlar beynəlxalq ətraf mühit gündəliyində aydın görünür" deyən Mehriban xanım Əliyeva "Gənclər iqlim fəaliyyətlərinin ön cəbhəsində" konfransında nəzərə çatdırdı ki, COP29-a evsahibliyi edən ölkə kimi Azərbaycan ətraf mühit məsələlərindən xeyli uzaq olan mülahizələr hesabına ədalətsiz hücum dalğası, yalan hekayətlər və ikili standartlar ilə üzləşib.

Ölkəmizin birinci xanımının söylədiyi kimi, Azərbaycan COP29-a evsahibliyi etmək öhdəliyini üzərinə götürməklə, Qlobal Cənub və Qlobal Şimal, eləcə də inkişaf etmiş və inkişaf edən ölkələr arasında körpülər salmağa çalışır: "Məqsədimiz bu məsələnin həllinə verdiyimiz töhfəni ortaq gələcəyə verəcəyimiz töhfəyə çevirməkdən ibarətdir. Bununla belə bəzi hallarda dəstək vermək və konstruktiv dialoq aparmaq əvəzinə biz çoxsaylı Qərb mətbuatında böhtan və qarayaxma kampaniyalarının hədəfinə çevrilmişik. Məlumdur ki, həmin media əvvəlcədən cızılmış ssenariyə uyğun getməyən və ya qoyulmuş qaydalarla oynamayan, müstəqil siyasət yürüdən və öz milli maraqlarını qoruyan ölkələri gözdən salmaq üçün alətə çevrilib. Müəyyən ölkələrin təsiri altında olan bəzi iri media platformaları əmr ilə Azərbaycan haqqında mənfi hekayətləri yaymağa başlayırlar".

Bu gün Azərbaycan dövləti bütün sahələrdə həyata keçirdiyi uğurlu işləri ilə, bəşəriyyətin təhlükəsiz, işıqlı gələcəyinə hesablanmış məqsədyönlü fəaliyyəti ilə dünya ölkələrinin diqqət mərkəzindədir. Təəssüf ki, yalnız təqdirəlayiq olan bu fəaliyyəti gözü götürməyənlər də var. Mehriban xanım Əliyevanın qeyd etdiyi kimi: "Əslində, bəs bunun arxasında dayanan nədir? Bu cür çirkin kampaniyanın sponsorları hansı məqsədləri güdürlər? Əslində, biz cavabı bilirik". Ölkəmizin birinci xanımı haqlı olaraq bildirdi ki, nailiyyətlərimiz və işimiz bəzi dövlətlərin geosiyasi maraqları uğrunda səhv təsvirə deyil, hörmətə layiqdir. Daha bir həqiqəti isə Mehriban xanım Əliyeva belə ifadə etdi: "Riyakarlıq həmçinin müxtəlif ölkələr tərəfindən öz iqlim öhdəliklərinə necə yanaşmasında özünü büruzə verir. Əsrlər boyu çirklənmənin əsas mənbəyi və sərvətlərin məsuliyyətsiz istehlakçısı olmuş inkişaf etmiş ölkələr hazırda sərt hakim rolunda çıxış edir. Onlar hamı üçün sərt məhdudiyyətləri təşviq edir və eyni zamanda öz siyasətində iddialı məqsədlərini güdür, öz maraqları uğrunda işini davam etdirir. Onlar digər ölkələrdən transformasiyanı tələb edir, lakin bununla belə maliyyə və ya texnoloji baxımdan yardım etməyə tələsmirlər".

Dünyanın ən mötəbər iqlim tədbirində ölkəmizin birinci xanımı bir daha bəyan etdi ki, Azərbaycan manipulyasiya və təzyiq deyil, səmərəli fəaliyyət, real həll variantları və ədalətli əməkdaşlığı arzulayan ölkədir. Diqqətə çatdırdı ki, biz platformamızdan elə istifadə etmək istəyirik ki, qlobal koalisiya yaransın və orada hər ölkənin - böyük və ya kiçik, inkişaf etmiş və ya inkişaf edən ölkənin mövqeyi, haqqı ədalətli şəkildə qəbul edilsin.

Azərbaycanın birinci xanımı çıxışında BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) mahiyyətini bir daha nəzərə çatdırdı: "Mən bütün iştirakçılara üz tutaraq istəyirəm onlar yadda saxlasınlar ki, COP29 siyasi hücumlar arenası deyil. O, iqlim böhranı qarşısında hamımızın birləşdiyi məkandır.

Yalnız ədalətli əməkdaşlıq və real tədbirlərə hazırlıq bizi uğura aparacaq".

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

## *Koreyalı professor:* "Azərbaycan iqlim dəyişikliyi ilə mübarizədə çox iddialı beynəlxalq konfrans təşkil edib"



**"Azərbaycan iqlim dəyişikliyi ilə mübarizədə inkişaf edən və inkişaf etməkdə olan ölkələrin "yaşıl keçid"ini dəstəkləmək üçün çox iddialı beynəlxalq konfrans təşkil edib. Bakıda keçirilən COP29 çox əhəmiyyətlidir, çünki keçid üçün lazım olan maliyyə müzakirə olunur".**

Bu sözləri AZƏRTAC-a müsahibəsində COP29-un iştirakçısı, Koreya Qabaqcıl Elm və Texnologiya İnstitutunun professoru Kim Sang-Hyup deyib.

Koreyanın sürətlə inkişaf etdiyini söyləyən Kim Sang-Hyup buna görə də onun sənayeləşmiş ölkələrdən biri olduğunu deyib: "Koreyanın artıq ətraf mühit məsələlərinə diqqət yetirməsinin vaxtıdır. Buna görə də Koreya 2008-ci ildən bəri "yaşıl məqsədlər"i birnömrəli vacib məsələ kimi həyata keçirməyə çalışır. Koreya eyni zamanda yüksək enerji tutumlu ölkədir. Yəni karbon intensiv sənaye strukturuna malikdir. Koreyanın iqtisadiyyatını karbonsuzlaşdırmağa ehtiyacı var və "yaşıl inkişaf"a, yaşıllığa doğru getdiyimiz müddətdə iqtisadi artıma güclü təsir etmək olar. COP29-un iki vacib gündəliyi var. Bunlardan biri beynəlxalq əməkdaşlığı və karbon emissiyasının azaldılmasını təşviq etmək üçün Paris Sazişinin vacib altıncı maddəsini tamamlamaqdır. Demək olar ki, biz artıq bu məsələdə uğur qazanmaq üzrəyik. İkincisi, böyük məbləğdə lazım olan maliyyənin ayrılmasıdır. Beynəlxalq təşkilatlar, bir çox ölkə bu ambisiyaya nail olmaq üçün əllərindən gələni edirlər. Ümid edirəm ki, biz də bunu həyata keçirmək üçün əlimizdən gələni edəcəyik".





## *Liviya nümayəndəsi:* "İqlim dəyişikliyindən ən çox zərərçəkən ölkələri dəstəkləməliyik"

**"Mən COP konfranslarında mütəmadi iştirak edirəm. COP29 konfransı yüksək səviyyədə təşkil olunub. Burada dünyanın bir çox ölkəsindən olan liderlər, ekspertlər, nümayəndələr iştirak edirlər".**

Bu barədə AZƏRTAC-a açıqlamasında "Climate Action Network" təşkilatının nümayəndəsi Semi Almabruk deyib.

O qeyd edib ki, bu konfransda müxtəlif ölkələrin nümayəndələri bir-biri ilə öz təcrübələrini bölüşür, danışıqlar aparır, əməkdaşlıqlar qururlar: "Verilən vədlər söz olaraq qalmamalı, biz onları icra etməliyik. Xüsusilə iqlim dəyişikliyindən ən çox zərər çəkən ölkələri dəstəkləməliyik. Dünyada hazırda çox sayda təbii fəlakətlər baş verir, mənim öz ölkəm Liviyada da. Çox ölkə var ki, onlarda lazımi infrastruktur yoxdur. Mənim bu konfransdan xoş gözləntilərim var. Dünya indi kritik vəziyyətdədir. Hazırda insanlar iqlim dəyişmələrinin zərərləri barədə daha çox məlumatlıdırlar. Biz birgə səylər nəticəsində bu problemin öhdəsindən gəlməliyik".

## COP29-dan əldə etdiyimiz təcrübəni Braziliyada keçiriləcək COP30 zamanı tətbiq edəcəyik

"İD Space kosmos sahəsində fəaliyyət göstərən Braziliya şirkətidir. Mən COP29-a bu gün, sessiyanın altıncı günündə qatılıram. İkinci dəfədir ki, Bakıda oluram. Keçən il Azərbaycanda keçirilən 74-cü Beynəlxalq Astronavtika Konqresində də iştirak etmişəm".

Bunu AZƏRTAC-a müsahibəsində İD Space şirkətinin baş direktoru Leonarda Xulyas Çaqas deyib.

Qonaq Bakıda olmaqdan məmnunluğunu ifadə edərək COP29-un möhtəşəm təşkil olunduğunu vurğulayıb: "Burada ehtiyacımız olan hər şərait yaradılıb. Hamı çox nəzakətlidir. COP29-un məndə xeyli müsbət təəssürat yaradacağına inanıram və ümid edirəm ki, buradan əldə etdiyimiz təcrübəni Braziliyada keçiriləcək COP30 zamanı tətbiq edəcəyik".

COP29 Baku Azerbaijan

# COP29-un Prezidenti Azərbaycan QHT-lərinin pavilyonuna baş çəkib

**COP29-un prezidenti Muxtar Babayev Azərbaycan Milli QHT Forumunun "yaşıl zona"-da yerləşən pavilyonuna baş çəkib.**



AZƏRTAC xəbər verir ki, COP29 Təşkilat Komitəsinin üzvü, AMQF-nin İdarə Heyətinin üzvü Pərvanə Vəliyeva pavilyonda yaradılan şərait barədə məlumat verib.

Qeyd olunub ki, Azərbaycan QHT-ləri COP29-da yüksək fəallıq nümayiş etdirir, mühüm təqdimatlar, xarici tərəfdaşları ilə birgə beynəlxalq tədbirlər keçirir. Artıq Azərbaycan tərəfinin təşəbbüsü ilə Qoşulmama Hərəkatı ölkələrinin QHT-lərinin, COP28, COP29, COP30 ölkələrinin üçlük formatında vətəndaş cəmiyyəti təsisatlarının birgə konfransları təşkil olunub. Eyni zamanda diqqətə çatdırılıb ki, qarşıdakı günlərdə Xəzər dənizinin ekologiyası mövzusunda Xəzəryanı ölkələrinin QHT-lərinin ayrıca beynəlxalq konfransı keçiriləcək. COP29 çərçivəsində həmçinin türk dövlətlərinin QHT-lərinin təşkilatlanması prosesi gedir, ortaq tədbirin keçirilməsi planlaşdırılır.

M.Babayevə məlumat verilib ki, Azərbaycan Milli QHT Forumunun təşəbbüsü ilə yaradılmış COP29 QHT Koalisiyasına artıq 100-ə yaxın ölkədən 410-dan çox QHT qoşulub.

QHT-lərə Dövlət Dəstəyi Agentliyinin departament müdiri Elnur Bağırlı agentliyin Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə birgə elan etdiyi "COP29: beynəlxalq təşəbbüslər" qrant müsabiqəsinin bütün qalib QHT-lərinin layihələr çərçivəsində Milli QHT Forumu Pavilyonunda xarici tərəfdaşları ilə birgə tədbirləri olduğunu, bu tədbirlərin uğurla keçirildiyini bildirib.

COP29 prezidenti Muxtar Babayev Azərbaycan QHT-lərinə fəaliyyətlərində uğurlar arzulayıb.

# Bakıda keçirilən genişmiqyaslı tədbirin dünya ölkələri üçün əhəmiyyəti var

**Noyabrın 16-da Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində keçirilən məhkəmə seminarında iştirak etmək üçün Bakı şəhərinə səfər edən Belçika Krallığının Konstitusiya Məhkəməsinin sədri Lük Lavrysen ilə görüş keçirib.**

Bu barədə AZƏRTAC-a Konstitusiya Məhkəməsinin Mətbuat xidmətindən bildirilib.

Sədr Fərhad Abdullayev Bakıda keçirilən genişmiqyaslı tədbirin bütün dünya ölkələri üçün əhəmiyyətini qeyd edib. O, Konstitusiya Məhkəməsinin fəaliyyəti haqqında məlumat verərək iki ölkə arasında məhkəmə-hüquq əməkdaşlığının vacibliyini qeyd edib. Ölkəmizdə məhkəmə-hüquq sahəsində aparılan islahatlar, həmçinin insan hüquqlarının təmin olunması sahəsində məhkəmələrin qarşısında duran vəzifələrin əhəmiyyətini vurğulayıb. Görüşdə Konstitusiya məhkəmələrinin məhkəmə təcrübəsində ətraf mühitin qorunması ilə bağlı qərarlar barədə fikir mübadiləsi aparılıb.

Lük Lavrysen Azərbaycanın COP29-a evsahibliyi etməsini yüksək qiymətləndirib.

O, gələcəkdə də Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi ilə əməkdaşlığın faydalı olacağına ümid etdiyini və qarşılıqlı əlaqələrin inkişafında maraqlı olduğunu vurğulayıb.

Görüşün sonunda qonaqlar Konstitusiya Məhkəməsinin binası ilə tanış olublar.

# Baş prokuror bir sıra görüşlər keçirib



BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) yüksəksəviyyəli plenar iclasında iştirak etmək üçün ölkəmizə işgüzar səfərə gələn Rusiya Federasiyasının Baş Prokuroru İqor Krasnovun rəhbərlik etdiyi nümayəndə heyəti ilk öncə Fəxri xiyabanda xalqımızın Ümummilli Lideri, müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edərək, məzarı önünə əklil qoyub, eləcə də görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın, həmçinin tanınmış dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin məzarlarını ziyarət ediblər.

Daha sonra Azərbaycan Respublikasının baş prokuroru Kamran Əliyev ilə İqor Krasnovun rəhbərlik etdiyi nümayəndə heyəti arasında görüş olub.

Qonaqları salamlayan baş prokuror Kamran Əliyev ölkələrimiz arasında mövcud olan dostluq və əməkdaşlıq münasibətlərinin dövlət başçılarının birgə səyləri və siyasi iradələri sayəsində uğurla inkişaf etdiyini qeyd edib.

Baş prokuror bildirib ki, iki ölkənin hüquq-mühafizə, o cümlədən prokurorluq orqanları arasında konkret cinayət işləri üzrə hüquqi yardımın göstərilməsi, cinayət törətmiş şəxslərin ekstradisiyası, korrupsiyaya qarşı mübarizə, ekoloji hüquqpozmalar, elm-tədris və təcrübə mübadiləsi və sair məsələlər üzrə qarşılıqlı razılaşmaların olması əlaqələrimizi daha da gücləndirib.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin bilavasitə rəhbərliyi altında COP29-un ölkəmizdə keçirilməsinin əhəmiyyətindən bəhs edən Kamran Əliyev qeyd edib ki, ölkəmiz hər zaman qlobal və regional problemlərə qarşı müştərək müdafiə immunitetinin formalaşdırılmasında həlledici rol oynayır.

COP29 çərçivəsində Azərbaycanın Baş Prokurorluğu, BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə idarəsi (BMTNCİ) tərəfindən təşkil olunan, həmçinin Birləşmiş Ərəb Əmirliklərinin Daxili İşlər Nazirliyi tərəfindən həmsədrlik edilən "İqlim dəyişikliyi ilə mübarizədə hüquq-mühafizə orqanlarının səfərbər olunması" adlı yüksəksəviyyəli sessiyasının uğurla başa çatması barədə danışan tərəflər ətraf mühitin mühafizəsində hüquq-mühafizə orqanlarının qarşılıqlı əməkdaşlığının vacibliyini vurğulayıblar. Səmimi qəbula və qonaqpərvərliyə görə təşəkkürünü bildirən Rusiya Federasiyasının Baş Prokuroru İqor Krasnov, Azərbaycanın hər zaman mühüm beynəlxalq tədbirlərə uğurla evsahibliyini etdiyini vurğulayaraq, COP29-un Azərbaycanın sədrliyi ilə keçirilməsinin ölkəmizə olan etimadın təzahürü olduğunu qeyd edib.

Görüşdə Rusiya Federasiyasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Mixail Yevdokimov da iştirak edib.

Qonaqlar Baş Prokurorluğun Tarix Muzeyi ilə tanış olub, onlara prokurorluğun fəaliyyətini əks etdirən müxtəlif guşələrdəki eksponatlarla bağlı ətraflı məlumat verilib.

Nümayəndə heyətinin ölkəmizə işgüzar səfəri davam edir.



BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasında (COP29) iştirak etmək məqsədilə ölkəmizə səfərə gələn beynəlxalq təşkilat və xarici dövlətlərin nümayəndə heyətləri ilə silsilə görüşlər keçirilir.

Noyabrın 15-də baş prokuror Kamran Əliyev Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) Baş nazirinin müavini, Daxili işlər naziri Saif Bin Zayed Al Nahyanının rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Baş prokuror Kamran Əliyev bildirib ki, Azərbaycanla islam dünyasının önəmli dövlətlərindən olan BƏƏ arasında tarixi köklərə malik olan və mənəvi dəyərlərə, ənənələrə əsaslanan möhkəm dostluq münasibətləri var. Münasibətlərin yüksək səviyyədə olması hər iki ölkə rəhbərliyinin qarşılıqlı siyasi dialoqları nəticəsində mümkün olub.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin bilavasitə rəhbərliyi altında COP29-un ölkəmizdə keçirilməsinin əhəmiyyətindən bəhs edən Kamran Əliyev qeyd edib ki, COP29 iqlim dəyişmələrinin mənfi təsirlərindən ən çox əziyyət çəkən ölkələr, inkişaf etməkdə olan kiçik ada dövlətlərinin problemlərinin beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılması və həll yollarının müəyyən edilməsi üçün çox mühüm platformadır. COP29 çərçivəsində Azərbaycanın Baş Prokurorluğu, BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə idarəsi (BMTNCİ) tərəfindən təşkil olunan, həmçinin BƏƏ-nin Daxili İşlər Nazirliyinin həmsədrliyi ilə baş tutan "İqlim dəyişikliyi ilə mübarizədə hüquq-mühafizə orqanlarının səfərbər olunması" adlı yüksəksəviyyəli sessiyanın uğurla başa çatması barədə danışan tərəflər ətraf mühitin mühafizəsində hüquq-mühafizə orqanlarının qarşılıqlı əməkdaşlığının genişləndirilməsinin vacibliyini vurğulayıblar.

BƏƏ-nin Baş nazirinin müavini, Daxili işlər naziri Saif Bin Zayed Al Nahyan səmimi qəbula və qonaqpərvərliyə görə təşəkkürünü bildirib, ölkəsində uğurla keçirilmiş COP28-dən sonra COP29-un daha böyük nailiyyətlərlə yadda qalacağına əminliyini ifadə edib.

Saif Bin Zayed Al Nahyan Azərbaycanın hüquq-mühafizə, o cümlədən prokurorluq orqanları ilə sıx əməkdaşlıq əlaqələrinin yaradılmasında ölkəsinin maraqlı olduğunu qeyd edib.

Qonaqlar Baş Prokurorluğun Tarix Muzeyi ilə tanış olub, onlara prokurorluğun fəaliyyətini əks etdirən müxtəlif guşələrdəki eksponatlarla bağlı ətraflı məlumat verilib.

Nümayəndə heyətinin ölkəmizə işgüzar səfəri davam edir.

# Naxçıvan Mərkəzi Seçki Komissiyasının yeni tərkibi formalaşıb

**Noyabrın 16-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin payız sessiyasının dördüncü iclası keçirilib.**





Ali Məclis Sədrinin birinci müavini Bəxtiyar Məmmədov iclasın gündəliyində duran məsələnin Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının üzvlərinin seçilməsinin müzakirəsi olduğunu bildirib.

Ali Məclis Sədrinin birinci müavini "Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikası Qanununa müvafiq olaraq Mərkəzi Seçki Komissiyası üzvlərinin Naxçıvan Muxtar Respublikası Ali vəzifəli şəxsinin təklifinə əsasən Ali Məclis tərəfindən 5 il müddətinə seçildiyini qeyd edib, Mərkəzi Seçki Komissiyasının üzvlüyünə namizədləri - Bağırov Orxan Rza oğlunu, Əliyev Asim Yediyar oğlunu, Heydərli Elşən Sadıq oğlunu, Həsənli Çingiz Namizəd oğlunu, Orucəliyev Ramil Əli oğlunu, Rüstəmova Məlahət Oruc qızını və Yaqubov Nicat Əsgər oğlunu təklif edib.

Gündəlikdə duran məsələ ilə əlaqədar Ali Məclisin Hüquq siyasəti komitəsinin sədri Əjdər Əliyev çıxış edib, təklif olunan namizədlərin fəaliyyətini yüksək qiymətləndirib. Müzakirə olunan məsələ ilə bağlı qərar layihəsi oxunduqdan sonra səsə qoyularaq qəbul edilib.

Mərkəzi Seçki Komissiyasının üzvü Ramil Orucəliyev komissiyyanın yeni tərkibinə etimad göstərdiklərinə görə Ali Məclisin üzvlərinə minnətdarlığını bildirib, komissiyanın bundan sonrakı fəaliyyətində də seçkilərin azad, ədalətli və şəffaf keçirilməsi üçün bütün lazımi addımları atacağını diqqətə çatdırıb. Bununla da iclas başa çatıb.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# COP29-da dənizə çıxışı olmayan inkişaf etməkdə olan ölkələrin iqlim və inkişaf problemləri müzakirə olunub

**COP29 çərçivəsində "Dənizə çıxışı olmayan inkişaf etməkdə olan ölkələrdə iqlimə davamlılığın və davamlı inkişafın gücləndirilməsi: problemlər və imkanlar" mövzusunda tədbir keçirilib.**




AZƏRTAC xəbər verir ki, tədbiri giriş sözü ilə açan COP29-un baş danışıqçısı Yalçın Rəfiyev və Qazaxıstanın ekologiya və təbii sərvətlər naziri Erlan Nısanbayev dənizə çıxışı olmayan inkişaf etməkdə olan ölkələrin coğrafi təcrid səbəbindən dayanıqlı inkişafa və iqlimə davamlılığa nail olmaqda çətinliklərlə üzləşdiyini bildiriblər. Bu, qonşu tranzit ölkələrdən asılılıq və yüksək ticarət xərclərini də ehtiva edir. Onlar vurğulayıblar ki, bu çağırışlar onların ekoloji, iqtisadi və sosial şoklara həssaslığını artıran iqlim dəyişikliyinin təsirləri ilə daha da ağırlaşır.

Tədbirdə çıxış edənlər qeyd ediblər ki, COP29 bu qəbildən olan ölkələr üçün öz təcrübələrini bölüşmək və qarşılaşdıqları unikal problemləri vurğulamaq üçün mühüm platformadır. Bu konfrans konkret ölkəyə aid məsələləri qlobal iqlim müzakirələrində ön plana çıxarmaq imkanı verir.

Sonra iştirakçılar coğrafi və iqlim maneələrini aradan qaldırmaq üçün innovativ yanaşmalara liderlik etmiş ölkələrin təcrübələrini də müzakirə ediblər.

# *Donald KUPER:* "COP29-un şəffaflıq üzrə komandası çox yaxşı işləyir"

**Bakıda COP29 çərçivəsində "Azərbaycanın Milli MRV (Ölçmə, Hesabatvermə və Yoxlama) Sistemi: İXQ verilənləri əsasında iqlim fəaliyyəti üçün əsas məlumatlar, Təkmilləşdirilmiş Şəffaflıq Çərçivəsinə (ETF) keçid və korporativ bilik mübadiləsi" mövzusunda müzakirələr keçirilib.**



AZƏRTAC-ın məlumatına görə, tədbirdə çıxış edən COP29-un baş icraçı direktoru Elnur Soltanov bildirib ki, COP29 sədrliyinin konsepsiyası bir-birini dəstəkləyən ambisiyanın artırılması və fəaliyyətə təkan verilməsi olan iki əsas istiqamətə əsaslanır. O qeyd edib ki, İkiillik Şəffaflıq Hesabatlarının (BTR) hazırlanması sədrliyin prioritet istiqamətlərindən biridir. Nazir müavini əlavə edib ki, dekabr ayı BTR-lərin təqdim edilməsi üçün son tarixdir. Elnur Soltanov Azərbaycanın bu hesabatların təqdimatı ilə bağlı çox işlər gördüyünü və Bakı Şəffaflıq Platformunu yaratdığını vurğulayıb. Onun sözlərinə görə, Azərbaycanın BTR-i artıq hazırdır və son dəyişikliklər edilir.

Sonra çıxış edən Türkiyənin ətraf mühit, şəhərsalma və iqlim dəyişikliyi nazirinin müavini Fatma Varank şəffaflıq hesabatı ilə bağlı Azərbaycan sədrliyinin apardığı liderlik fəaliyyətinə görə təşəkkür edib. Onun sözlərinə görə, BTR Paris Sazişinin təməl hədəflərindən biridir və bütün addımlar şəffaf şəkildə hesabata salına bilirsə, ölçülə biləndir. O, Türkiyənin bu istiqamətdə fəaliyyətləri barədə də məlumat verib.

BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının Şəffaflıq bölməsinin direktoru Donald Kuper Azərbaycanın inkişaf etməkdə olan ölkələrin öz milli fəaliyyətlərini hesabatlandırmasını asanlaşdıran sistemi dünyaya necə təqdim edəcəyini səbirsizliklə gözlədiyini bildirib.

Onun sözlərinə görə, COP29-un şəffaflıq üzrə komandası çox yaxşı işləyir.

Daha sonra çıxış edən BMT-nin digər struktur nümayəndələri şəffaflıq hesabatında diqqətə alınmalı məqamlar, Azərbaycanın COP29 sədrliyi çərçivəsində hesabatların vaxtında təqdim olunması istiqamətində gördüyü işlər barədə danışıblar.

# Xarici ölkələrin baş prokurorları Suraxanıdakı Ekoparkda ağac əkiblər

Beynəlxalq təşkilatların rəhbər vəzifəli şəxsləri və xarici dövlətlərin baş prokurorları tərəfindən paytaxt ərazisində ağaclar əkilib.

Baş Prokurorluğun Mətbuat xidmətinin verdiyi məlumata görə, 15 noyabr 2024-cü ildə COP29 çərçivəsində "İqlim dəyişikliyi ilə mübarizədə hüquq-mühafizə orqanlarının səfərbər edilməsi"nə həsr olunmuş yüksəksəviyyəli sessiyadan öncə Bakı şəhəri, Suraxanı rayonu ərazisində yerləşən Bülbülə gölünün yanındakı yeni salınmış Ekoparkda baş prokuror Kamran Əliyevin, İNTERPOL-un rəhbərinin, eləcə də 15 ölkənin, o cümlədən Türkiyə, Moldova və Monqolustan Respublikalarının baş prokurorları və digər yüksəkvəzifəli şəxslər də daxil olmaqla 90 nəfərin iştirakı ilə 200 ədəd xatirə ağacı əkilmiş, bununla həmin parkda ümumilikdə əkilmiş ağacların sayı 1700-ə çatdırılmışdır.



Bakı şəhəri, Suraxanı rayon sakinlərinin ekoloji şəraitinin yaxşılaşdırılmasına yönəlmiş parkın salınması baş prokurorun təşəbbüsü ilə Ulu Öndər Heydər Əliyevin 101-ci ildönümü münasibətilə simvolik ağacların əkimi ilə başlayan, 24.06.2024-cü il tarixdə Xankəndi şəhərində keçirilmiş elmi-praktiki konfransda təsis edilən ECOLEAD (Ətraf mühitin gücləndirilməsi: maarifləndirmə və hüquq-mühafizə tədbirləri) platformasının tərkib hissəsidir.

Hazırkı ağacəkmə tədbiri sayca 5-ci layihədir və bununla Bakı şəhərinin müxtəlif rayonlarında əkilmiş ağacların sayı 2500-ə çatmışdır.

COP29 Baku Azerbaijan

# "Yaşıl həmrəylik" Azərbaycandan başlayır

## Azərbaycanın "yaşıl hədəflər"i

### Sadiq QURBANOV: "Respublikamız iqlim və sülh prioritetlərini birləşdirməklə yeni baxış təqdim edir"

**"Sağlam ətraf mühit insan hüquqlarının təməli olan əsas ehtiyacların təmin edilməsidir. Ekosistemlər tənəzzülə uğradıqda bu hüquqlardan istifadə etmək imkanımız olmur. Məsələn, meşələrin qırılması, çirklənmə və biomüxtəlifliyin itirilməsi insan sağlamlığına və rifahına birbaşa təsir göstərir. Ətraf mühitə vurulan zərər bərabərsizlikləri daha da artırır, xüsusilə həssas qruplara, qadınlara və uşaqlara təsir edir. İnsan hüquqlarını müdafiə etmək üçün ətraf mühitə nəzarəti sərhədlərdən, siyasətdən və iqtisadi mənfəətdən kənara çıxan bir vəzifə kimi qəbul etməliyik. Bəşəriyyətin mövcudluğu, dayanıqlı inkişaf sağlam planetlə şərtlənir və buna görə də ekosistemləri qorumaq və qlobal miqyasda insan hüquqlarını təmin etmək üçün vahid yanaşmaya, baxışa və səylərə ehtiyacımız var".**



Bunu "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov bildirib. Onun sözlərinə görə, sağlam ətraf mühit fundamental insan hüquqlarından biridir və hər bir insan təmiz, təhlükəsiz və davamlı mühitdə yaşamaq hüququna layiqdir. Hökumətlər, korporasiyalar və vətəndaş cəmiyyətləri bu hüquqa hörmət etmək, qorumaq və yerinə yetirmək üçün birlikdə çalışmalıdırlar. Konkret tədbirlərə çirklənmənin azaldılması, tullantıların idarə edilməsinin təkmilləşdirilməsi və yaşıl sahələrin təşviqi daxildir. Bütün icmalar üçün ekoloji ədalətin təmin edilməsi vacibdir, heç bir qrup qeyri-mütənasib olaraq ətraf mühitin deqradasiyası yükünü daşımamalıdır. COP29-un əsas çağırışı da məhz budur.

Komitə sədri qeyd edib ki, hüquqi çərçivələr ətraf mühiti və öz növbəsində insan hüquqlarını qorumaq üçün vacibdir: "Ətraf mühitə dair qanunları hava və suyun keyfiyyəti, tullantıların idarə edilməsi və biomüxtəlifliyin qorunması kimi məsələlərə dair aydın təlimatlar müəyyən edir. Bundan əlavə, ekosistemləri qorumaq və istixana qazı emissiyalarını azaltmaq üçün iqlim dəyişikliyi və davamlı torpaq istifadəsi ilə bağlı qanunvericilik daim təkmilləşdirilməli və mövcud çağırışlara cavab verməlidir. Təəssüf ki, bu məsələyə hələ ki, parlamentlər, hökumətlər zəruri çevik reaksiya vermirlər. Düşünürəm ki, bu istiqamətdə qanunverici orqanlar, parlamentarilər, hökumətlər fəal mövqe tutmalıdırlar. Bu məsələlərdə ənənəvi qanunvericiliyin hazırlanma yanaşması, texnikası nəzərdən keçirilməlidir. Ekoloji qanunvericiliyin təkmilləşdirilməsi prioritet məsələ kimi daim gündəlikdə olmalıdır. Tədqiqatlar data analizdən yararlanmaqla preventiv effektə malik, proaktiv olmalıdır. Biz gözləməməliyik ki, iqlim dəyişikliklərinin fəsadları güclənsin və onlarla bağlı normativ baza işləyək. Biz çalışmalıyıq ki, artıq risk mərkəzli, yəni həm qorumaq effektinə malik, həm də riskləri nəzərə alacaq normativ bazaya malik olaq".

Qanunvericilik həm də effektiv icra mexanizmlərini, hesabatlılığı və ictimaiyyətin iştirakını təmin etməlidir. Sadiq Qurbanov deyir ki, ətraf mühitin mühafizəsini gücləndirən qanunları dəstəkləmək bizim kollektiv borcumuzdur, eyni zamanda pozucuları məsuliyyətə cəlb etməkdir: "Milli qanunvericiliyimiz ekoloji insan hüquqlarını insanın konstitusion hüquqlarının xüsusi (müstəqil) bir növü kimi nəzərdən keçirir və bu yanaşma insanın təbii ətraf mühitlə qarşılıqlı əlaqələrini əhatə edir. Azərbaycan Konstitusiyasının "Sağlam ətraf mühitdə yaşamaq hüququ" adlanan 39-cu maddəsində qeyd edilir ki, hər kəsin sağlam ətraf mühitdə yaşamaq hüququ vardır; hər kəsin ətraf mühitin əsl vəziyyəti haqqında məlumat toplamaq və ekoloji hüquqpozma ilə əlaqədar onun sağlamlığına və əmlakına vurulmuş zərərin əvəzini almaq hüququ vardır; heç kəs ətraf mühitə, təbii ehtiyatlara qanunla müəyyən edilmiş hədlərdən artıq təhlükə törədə və ya zərər vura bilməz; dövlət ekoloji tarazlığın saxlanılmasına, yabanı bitkilərin və vəhşi heyvanların qanunla müəyyən edilmiş növlərinin qorunmasına təminat verir. Nəzərdən keçirilən konstitusion hüquq norması Azərbaycanda ekoloji insan hüquqlarının konstitusion-hüquqi əsasını təşkil edir.

Azərbaycanın "Ətraf mühitin mühafizəsi haqqında", "Ekoloji təhlükəsizlik haqqında", "Ətraf mühitə dair informasiya almaq haqqında", "Əhalinin ekoloji təhsili və maariflənləndirilməsi haqqında", "Yaşıllıqların mühafizəsi haqqında" qanunlarında və digər hüquqi mənbələrdə də ekoloji insan hüquqlarının tərkib hissəsi kimi çıxış edən hüquqlar nəzərdə tutulmuşdur".

Milli Məclisin komitə sədri onu da bildirdi ki, hazırda əsas vəzifəmiz milli qanunvericiliyin Azərbaycanın beynəlxalq konvensiyalar və razılaşmalarla üzərinə götürdüyü öhdəliklərin icrası üçün əlverişli hüquqi mühit yaratmasını, ətraf mühitin qorunması ilə bağlı qanunvericilyin inkişaf etdirilməsinə kompleks yanaşmanı təmin etməkdir. Bu zaman bərabərlik, hüquq və məsuliyyət prinsiplərinin hər birinə eyni dərəcədə həssaslıqla yanaşmaq lazımdır: "Biz dayanıqlı inkişaf paradiqmasını əsas götürməliyik. Davamlı inkişaf ekologiya, iqtisadiyyat və insan hüquqlarının kəsişməsində yerləşir. Əsl dayanıqlı inkişaf ətraf mühiti qoruyarkən sosial tərəqqiyə təkan verir və insan hüquqlarını mərkəzə qoyur. Bu zaman biz inkişaf, ətraf mühit və insan hüquqları problemlərinin həlli üçün Birləşmiş Millətlər Təşkilatının Dayanıqlı İnkişaf Məqsədləri (SDGs) qlobal planına sadiqliyi hər addımda sübut emtəliyik. Qanunvericiliyin işlənməsi, təkmilləşdirilməsi indi həmişəkindən daha çox dayanıqlı inkişaf paradiqması əsasında aparılmalıdır".

Həm ətraf mühitin, həm də insan hüquqlarının qorunması üçün ən aktual təhlükələrdən biri minalar məsələsidir. Minalar təkcə insan həyatı üçün təhlükə yaratmır, həm də ciddi ekoloji təhlükələr yaradır. Sadiq Qurbanovun sözlərinə görə, minalanmış ərazilərdə ətraf mühitin qorunması təkcə texniki proses deyil, həm də insan hüquqları məsələsidir - icmalar öz torpaqlarına və yaşayış vasitələrinə yenidən çıxış əldə etməlidirlər: "Azərbaycan təcrübəsində bu yanaşmanı tətbiq edirik və hazırda parlamentdə müzakirə olunan yeni "Minatəmizləmə fəaliyyəti haqqında" qanun layihəsində bu yanaşmanı əks etdirməyə çalışırıq. Azərbaycan mina çirklənməsindən əziyyət çəkən ölkələr sırasında ön yerdədir. Azərbaycanın qarşısında qonşu Ermənistanın işğalından azad etdiyi əraziyə - Qarabağa döşənmiş təxminən 1,5 milyon minanın təmizlənməsi kimi böyük vəzifə durur. Lüksemburqdan üç dəfə böyük - 7 min kvadratkilometr ərazidə basdırılmış minalar bərpa işlərinin aparılması və əhalinin köçürülməsi prosesini çətinləşdirir.

Azərbaycan bu məsələdə kifayət qədər dəstək almır. Lakin respublikamız öz resursları ilə çox geniş miqyasda minatəmizləmə fəaliyyəti həyata keçirir və uğurlu təcrübə yaradıb. Azərbaycan bu sahədə artan təcrübəsini digər ölkələrlə bölüşməyə hazırdır. Bu təcrübə dünyada həyata keçirilən minatəmizləmə fəaliyyətinə böyük dəstək verə bilər. Bu, nəinki təqdirəlayiq nümunə olar, həm də daha çox beynəlxalq donoru töhfə verməyə inandıra bilər. Məhz buna görə Azərbaycan "Mina təhlükəsi ilə mübarizəyə dair fəaliyyətlər" adlı 18-ci Dayanıqlı İnkişaf Məqsədinin (DİM) qəbul olunması təşəbbüsünü irəli sürüb. Bu təşəbbüs Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən Qoşulmama Hərəkatının COVID-19-a qarşı mübarizə üzrə Təmas Qrupunun Bakıda keçirilən Zirvə görüşündə irəli sürülüb. 18-ci Dayanıqlı İnkişaf Məqsədi işğaldan azad olunmuş ərazilərimizə təhlükəsiz qayıdış, məskunlaşma, bərpa, rifah və sülh üçün mina təhlükəsi ilə mübarizəyə dair fəaliyyəti özündə ehtiva edir. Bu DİM insanların təmiz ətraf mühitdə, sağlam və yüksək rifahda, o cümlədən sülh və təhlükəsizlik şəraitində yaşamasına yönəlib".

Azərbaycan hər zaman multirealizm, çoxtərəfliliyin, inklüzivliyin təmin olunmasını öz siyasətinin əsas priroritetinə çevirib. Bu barədə danışan Sadiq Qurbanov bildirdi ki, ölkəmiz son illər bu istiqamətdə əhəmiyyətli təşəbbüslərlə çıxış edib və uğurlu nümunələr yaradıb: "Azərbaycan peyvənd millətçiliyinə qarşı çıxış edərək bütün ölkələr üçün vaksinlərə ədalətli və universal əlçatanlığı təşviq edib. COVID-19 pandemiyasında 30-dan çox ölkəyə yardım göstərib. Ölkəmiz de-kolonizasiya və müstəmləkəçiliyə qarşı mübarizə təşəbbüsləri ilə istiqlalına qovuşmamış xalqları müdafiə edir, onların hüquqlarının qorunmasına ictimai təşəbbüslərlə dəstək verir. COP29-da da dövlətlərin geniş təmsilçiliyi bunun sübutudur. Azərbaycan iqlim prioritetləri ilə sülh, insan hüquqları prioritetlərini birləşdirməklə yeni vizyon və baxış təqdim edir".

*Rəşad CƏFƏRLİ,*
*"Azərbaycan"*















## Azərbaycanın "yaşıl enerji" strategiyası COP29-un enerji təşəbbüslərinə cavab verir

**COP29 rəsmi olaraq öz enerji təşəbbüslərini də elan etdi. Xəbər verildiyi kimi, tədbirin Enerji Günü çərçivəsində bununla bağlı nazirlərin görüşü keçirildi və COP29-un üç mühüm enerji təşəbbüsü rəsmi təqdim olundu.**

Birinci təşəbbüs "COP29 qlobal enerji saxlama və şəbəkələr vədi" adlanır. "COP29 "yaşıl enerji" vədi: "Yaşıl enerji" zonaları və dəhlizləri" ikinci təşəbbüsdür. "COP29 Hidrogen Bəyannaməsi" isə üçüncü təşəbbüsü özündə ehtiva edir. Bəri başdan qeyd edək ki, bu təşəbbüslərin hər biri ilə bağlı Azərbaycanın deməyə sözü, daha dəqiq ifadə etsək, əməli işi və planları var.

"COP29 qlobal enerji saxlama və şəbəkələr vədi"nin öhdəliyi 2030-cu ilə qədər qlobal enerji saxlama sistemlərinin 1500 QVt gücünə çatdırılması və 25 milyon kilometr, 2040-cı ilə qədər isə əlavə 65 milyon kilometr elektrik şəbəkəsinin qurulması və ya təmir olunmasıdır. Bu vəd bərpaolunan enerji mənbələrinin istifadəsini təşviq edərək qlobal enerji sistemlərinin dayanıqlılığını təmin etmək məqsədini daşıyır.

"COP29 "yaşıl enerji" zonaları və dəhlizləri vədi" isə adından da göründüyü kimi, qitələrarası və regionlararası "yaşıl enerji" zonalarının yaradılmasını nəzərdə tutur. Bu təşəbbüs BMT-nin Dayanıqlı İnkişaf Məqsədləri ilə uyğundur və iqtisadi inkişafı təşviq edir, resurslardan səmərəli istifadəni dəstəkləyir.

COP29 həmçinin təmiz hidrogen istehsalının artırılması, mövcud hidrogen istehsalında karbon tullantılarının sıfıra endirilməsi istiqamətində qlobal səyləri gücləndirməyə çağırır. Bu da öz əksini hidrogen haqqında COP29 Bəyannaməsində tapıb. Bu təşəbbüs "yaşıl iqtisadiyyat"a keçid prosesində qlobal bazarı stimullaşdırmaq və beynəlxalq standartların inkişafına dəstək verməyə xidmət edir.

Azərbaycanın "yaşıl gündəliy"i də məhz bu təşəbbüslərlə səsləşir. Belə ki, ölkəmizin 2030-cu ilə qədər sosial-iqtisadi inkişafa dair beş milli prioritetindən biri "Təmiz ətraf mühit və yaşıl artım ölkəsi" kimi müəyyən edilib. Bununla bağlı ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların bərpası və artırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadənin təmin edilməsi istiqamətində ardıcıl iş aparılır. Azərbaycan baza ili (1990) ilə müqayisədə 2030-cu ilə qədər istilik effekti yaradan qazların emissiyalarının 35 faiz, 2050-ci ilə qədər isə 40 faiz azaldılmasını hədəf kimi götürüb. İşğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur, eləcə də Naxçıvan Muxtar Respublikası dövlətimizin başçısı İlham Əliyev tərəfindən "yaşıl enerji" zonaları elan olunub. Azad edilmiş ərazilərdə həyata keçirilən genişmiqyaslı bərpa və yenidənqurma prosesində ətraf mühitin qorunması ən vacib məsələlərdəndir. Həmin ərazilərdə "ağıllı şəhər", "ağıllı kənd" kimi innovativ yanaşmalar tətbiq edilir, ekosistem bərpa olunur. "Yaşıl enerji" növlərinin yaradılması və "yaşıl enerji"nin dünya bazarına nəqli Azərbaycanın enerji siyasətinin prioritetidir. Azərbaycan elektrik enerjisi istehsalının qoyuluş gücündə bərpaolunan enerji mənbələrinin payının 2030-cu ilə qədər 30 faizə çatdırılmasını hədəfləyir.

Ölkəmizin "yaşıl gündəliy"i artıq hamıya bəllidir. Bərpaolunan enerjidə texniki potensialımız quruda 135 giqavat və dənizdə 157 giqavat təşkil edir. Ötən il Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkətinin tikdiyi 230 meqavatlıq "Qaradağ" Günəş-Elektrik Stansiyası istifadəyə verilib. Səudiyyə Ərəbistanının "ACWA Power" şirkəti isə hazırda 240 meqavatlıq külək enerjisi stansiyasını tikir. COP29 çərçivəsində Cəbrayıl rayonunda Birləşmiş Krallığın BP şirkəti ilə 240 meqavatlıq günəş-elektrik stansiyasının təməli qoyulub.

Beləliklə, bərpaolunan enerji layihələri getdikcə rayonlarımızı da əhatə edir. Bu il iyunun 4-də "Bakı-Ekspo" Mərkəzində Bakı Enerji Həftəsi çərçivəsində keçirilən 29-cu Beynəlxalq Xəzər Neft və Qaz və 12-ci Xəzər Beynəlxalq Energetika və "Yaşıl Enerji" sərgilərinin açılışı zamanı Prezident İlham Əliyev və Birləşmiş Ərəb Əmirliklərinin sənaye və yüksək texnologiyalar naziri Sultan Əhməd Əl-Cabir Neftçala, Biləsuvar günəş-elektrik stansiyalarının və Abşeron-Qaradağ Külək-Elektrik Stansiyasının təməlini qoydular.

2030-cu ilə qədər ölkəmizdə təxminən 6 giqavatlıq günəş, külək və hidroenerji stansiyalarının tikilməsi nəzərdə tutulur. Lakin bu, planlarımızın hamısı deyil, çünki 10 giqavatlıq bərpaolunan enerji layihələri üzrə müqavilələr və anlaşma memorandumları imzalanıb.

COP29-un enerji təşəbbüslərinin elan olunduğu tədbirdə çıxış edən energetika naziri Pərviz Şahbazovun dediyi kimi: "Dünyanın iqlim və enerji yolunda taleyüklü bir mərhələyə daxil olduğu bir vaxtda Azərbaycanın "yaşıl enerji" zonaları, "yaşıl enerji" dəhlizləri, enerji saxlama, şəbəkə infrastrukturu və hidrogen sahəsindəki təşəbbüsləri qlobal iqlim hədəflərinə çatmaq üçün həlledici rol oynayır. Bu təşəbbüslər Azərbaycanı bərpaolunan enerjinin inkişafı və ixracında lider mövqeyə yüksəltməklə yanaşı, genişmiqyaslı ötürmə, uzaq potensial enerji mənbələrinin istehlak mərkəzləri ilə əlaqələndirilməsi, enerji təchizatı ilə tələbat arasında tarazlığın təmin edilməsi və böyük həcmdə "yaşıl enerji" güclərinin şəbəkəyə inteqrasiyası ilə qlobal miqyasda təmiz enerjinin inkişafını sürətləndirmək üçün unikal imkanlar yaradır. Çıxışda Azərbaycanın bu çağırışı da səsləndirilib: "COP29 hər birimizi bu öhdəliklərə qoşulmağa, enerji keçidimizi və iqlim fəaliyyətimizi gücləndirməyə və dünyamız üçün davamlı bir gələcək qurmaq naminə birliyə çağırır. Gəlin COP29-u əlamətdar bir dönüş nöqtəsinə çevirək və qlobal iqlim və enerji səylərimizi yeni zirvələrə qaldıraq".

*Flora SADIQLI,*
*"Azərbaycan"*

COP29 Baku Azerbaijan

# Qonaqpərvər dövlət, mehriban xalq

















## Azərbaycan pavilyonu:
## COP29-un ən maraqlı ziyarət məkanı

**Azərbaycanın evsahibliyi etdiyi BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) keçirildiyi "mavi" və "yaşıl" zonalar artıq 6 gündür ki, fəaliyyət göstərir. Hər gün hər iki zonada təyinatlarına uyğun vacib və maraqlı tədbirlər keçirilir.**

Bir neçə hissədən ibarət olan "mavi zona"da 26 görüş, yan tədbirlər üçün isə 9 görüş otağı ayrılıb. Hamısı da lazım olan texniki avadanlıqlarla təmin edilib. Xüsusi ərazilərdən biri pavilyonlar zonasıdır ki, burada 155 pavilyon müxtəlif ölkələri təmsil edir. Ərazidə qonaqların rahat şəkildə istədikləri yerlərə getmələri üçün xidmətlər mövcuddur. Ümumilikdə isə yerli və xarici qonaqlar, ziyarətçilər burada 350 tədbirin iştirakçıları və şahidləridir. İndiyə kimi Azərbaycanın dövlət qurumlarının bir neçə tədbiri keçirilib və onlar davam edəcək. Eyni zamanda burada qeyri-hökumət təşkilatlarının, beynəlxalq təşkilatların tədbirləri də həyata keçirilir. Ərazidə xarici ölkə nümayəndələrinin də pavilyonları var.

Ən böyük və maraqlı pavilyon isə Azərbaycana aiddir. Əlavə olaraq böyük pavilyonla təmsil olunan CAR, Çin, İndoneziyanın da adını çəkə bilərik. Qeyd edək ki, Çin pavilyonuna daha çox maraq var. Çünki Çin bu gün ticarət nəhənglərindəndir. Bu baxımdan onların pavilyonlarında keçirdikləri tədbirlərə Qlobal İqlim Cəmiyyətinin marağı yüksəkdir.

"Mavi zona" BMT-nin tabeliyində olan əsas hissədir və "yaşıl zona"dan fərqli olaraq bura tərəflərin nümayəndə heyətləri, dövlət başçıları, müşahidəçilər və akkreditə olunmuş media nümayəndələri daxil ola bilirlər. Məlumdur ki, dövlət qurumları ilə yanaşı, özəl sektorun da iqlim dayanıqlılığına böyük töhfəsi var. Onların səsi tək Azərbaycan üçün deyil, bütövlükdə dünya üçün vacibdir. Məhz bu səsi eşitmək üçün "yaşıl zona" yaradılıb.

"Yaşıl zona" isə müxtəlif maraqlı tərəflərin - dövlət və özəl sektor, media işçiləri, alimlər, gənclər, yerli icmalar, QHT-lər, vətəndaş cəmiyyəti və rəsmi "mavi zona" nümayəndələrini də əhatə edən geniş iştirakçı auditoriyasının bir araya gələrək ünsiyyət qurduğu məkandır. Bura həm də iştirakçıların iqlim fəaliyyətinə əlavə təkan vermələri üçün qarşılıqlı əlaqə quraraq fikir, təcrübə və bilik mübadiləsi apara biləcəkləri platformadır. Məkanın əsas sakinləri özəl və dövlət sektorları, QHT-lər, media nümayəndələri və gənclərdir. Onu da xüsusi vurğulayaq ki, "yaşıl zona" tədbirə evsahibliyi edən Azərbaycanın təşəbbüsü ilə yaradılan ərazidir.

Bakı Olimpiya Stadionunun yaxınlığında - "mavi zona"dan bir neçə yüz metr aralıda yaradılan pavilyonlar və sərgi stendlərindən ibarət olan "yaşıl zona"nın ərazisi 6500 kvadratmetrdir. Zonada 500 nəfərlik 4 konfrans zalı fəaliyyət göstərir ki, onlardan biri 200, üçü isə 70 nəfərlikdir. Burada 58 xarici və yerli şirkətin pavilyonu var. Bu zonaya giriş tam açıq və sərbəstdir, iştirakçılar, ziyarətçilər hər gün aparıcı qlobal təşkilatlar tərəfindən təşkil edilən məhsul və xidmətlərin nümayişi ilə yanaşı, müxtəlif təqdimatlar, seminar və brifinqlərin, habelə musiqi və mədəniyyət tədbirlərindən ibarət proqramların şahidi olurlar.

"Yaşıl zona"da ilk dəfə nümayiş olunan unikal "Daily show" verilişi COP29-un mərkəzindən yayımlanan və yüksəksəviyyəli qonaqlardan ibarət müxtəlif qrupları, eləcə də dinamik məzmunu özündə əks etdirən proqramdır. Bu televeriliş konfrans barədə məlumatların Bakının hüdudlarından xeyli uzaqlarda yayılması üçün bir sıra xəbər agentlikləri vasitəsilə bütün dünyaya yayımlanır. Qabaqcıl texnologiya və canlı yayım xidmətlərini də əlavə etsək, bu məkanın aktuallığı daha aydın olar.

Qlobal konfransa hazırlıqlar ərəfəsində "yaşıl zona"nın qurulmasını şərh edən COP29 Azərbaycan Əməliyyat Şirkətinin İdarə Heyətinin sədri və əməliyyatlar üzrə baş icraçı Nərmin Carçalova demişdir: "Dünyanın ən əhəmiyyətli iqlim konfransı kimi tanınan COP29 dayanıqlı və davamlı gələcəyə nail olmaq üçün beynəlxalq iqlim siyasətinin müzakirəsi, iqlimlə bağlı fəaliyyətlərin inkişafı və qlobal əməkdaşlığın təşviqi üçün əsas platforma rolunu oynayacaq. Builki "yaşıl zona" ilə bağlı planlarımız həm özəl, həm də dövlət sektorlarını təmsil edən təşkilatlara iqlim fəaliyyətinə əlavə təkan vermək məqsədilə bir-birləri ilə əlaqə quraraq fikir, təcrübə və bilik mübadiləsi aparmaq üçün müxtəlif ideal imkanlar təqdim edir".

Qeyd edək ki, COP29-da təqdim olunan pavilyonların ən maraqlısı Azərbaycana məxsusdur. Burada mədəniyyətlərin müxtəlifliyi, pavilyonların kreativliyi və konfrans iştirakçılarının unikal ekspozisiyaları təqdim olunur. Daha çox diqqətçəkən müxtəlif sənət nümunələrini özündə əks etdirən Azərbaycan mədəniyyətindən xəbər verən fotostend və sərgilərdir. Sərgilər arasında arxeoloji tapıntılar, Azərbaycanın xalçaları, milli geyimləri, artefaktlar, eləcə də məşhur amerikalı fotojurnalist Bred Uilsonun Azərbaycanda və dünyanın digər ölkələrində çəkdiyi vəhşi heyvanların fotoşəkillərini təqdim edən "Təbiətin rəmzləri" də var. İştirakçı dövlətlərin pavilyonları maketlərdə, afişalarda, panellərdə və hətta xalçalarda öz əksini tapmış mədəni xüsusiyyətləri, davamlı inkişaf fəaliyyətlərini və innovativ ekoloji həlləri əks etdirir. Ziyarətçilər ənənəvi sənətkarlıqla tanış ola, həmçinin milli xörək və içkiləri dada, milli incəsənət üzrə ustad dərslərində iştirak edə bilirlər. Onlar həmçinin xalçaçılıq, corab toxuma, yunəyirmə, keramika üzərində rəsmlər, təkəlduz və misgərlik kimi sənətlər üzrə əl işləri ilə tanış olurlar.

"Yaşıl zona"da turizm üzrə Azərbaycanın dayanıqlıq təcrübəsi də təqdim olunur. 200 kvadratmetrlik sahədə yerləşən stenddə xarici qonaqlara və media nümayəndələrinə Azərbaycanın turizm potensialı haqqında məlumatlar təqdim olunur, turizm imkanlarını əks etdirən interaktiv xəritə və ölkəmizlə bağlı promovideolar nümayiş etdirilir. Stenddə Azərbaycanın milli mətbəxi, çay dəsgahı mədəniyyəti, milli şirniyyatlar, yerli şərablar, o cümlədən yerli biomüxtəlifliyin qorunması prinsipinə əsaslanan "Slow food travel" konsepsiyası barədə təqdimat və dequstasiyalar keçirilir.

Azərbaycanın görməli yerlərinə virtual səyahət üçün nəzərdə tutulan VR (virtual reallıq) hissəsində qonaqlara Xınalıq, Yanardağ, Atəşgah, İçərişəhər, Şəki Xan sarayı, Göygöl və digər tarixi, mədəni məkanlara canlı şəkildə səyahət etmək imkanı yaradılır. Təqdimat zonasında isə ziyarətçilər üçün hər gün dağ yürüşü, quş müşahidəçiliyi kimi ekoturizm məhsulları, təbiət turizmi potensialı, işgüzar tədbirlər üzrə imkanlar, Azərbaycanın UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil edilən maddi-mədəni irs nümunələri haqqında məlumat verilir. Qarşıdakı günlərdə də Azərbaycan turizminin təbliğinə həsr edilmiş müxtəlif təqdimatlar təşkil olunacağı nəzərdə tutulur.

COP29-un pavilyonlarında sərgilənən, xarici və yerli qonaqların diqqətini çəkən stendlərdən biri də elm, texnologiya və innovasiyaları özündə əks etdirən məhsullardır. Maraqlıdır ki, bu məsələdə gənclər daha çox fəaldırlar. Fakt: dünən COP29 çərçivəsində "Gənclərin rəqəmsal iqlim inqilabında iştirakının dəstəklənməsi" mövzusunda tədbir keçirilib. Bu cür tədbirlərin baş tutması sübut edir ki, ölkəmizin gəncləri rəqəmsal həllərin tətbiqində fəal iştirak edirlər. Onların innovativ ideyalarının və təkliflərinin reallaşdırılması isə iqlim fəaliyyətində mühüm dönüş nöqtəsi ola bilər. Panel iştirakçıları "Cisco" şirkətinin mütəxəssisi Mary De Vysocki, "BeWorks Automation" şirkətinin təsisçisi və baş icraçı direktoru Fidan Cavadova, mühafizəçi və WAFF gənclər nümayəndəsi Doreen Maykl diqqətə çatdırıblar ki, rəqəmsal texnologiyalar gənclərə iqlim dəyişikliklərinə təsir etmək üçün mühüm vasitələr təqdim edir. Vurğulanıb ki, bunun vasitəsilə gənclər ekoloji təsirlərə nəzarəti gücləndirmək, davamlı inkişafı təmin etmək və iqlim təşəbbüslərinə dəstək vermək istiqamətində əhəmiyyətli töhfələr verə bilərlər.

Tədbir çərçivəsində iştirakçılara qabaqcıl rəqəmsal platformalar, süni intellektlə işləyən həllər və real vaxt rejimində ətraf mühitin monitorinqini təmin edən innovativ proqram təminatları təqdim olunub. Bu vasitələr arasında məlumat əsaslı təbliğat vasitələri, iqlim məlumatlarının vizuallaşdırılması üçün istifadə olunan proqram təminatları və gənclərin iqlim fəaliyyəti sahəsində daha fəal iştirakına şərait yaradan rəqəmsal tətbiqlər xüsusi vurğulanıb. Rəqəmsal texnologiyaların iqlim dəyişikliklərinə qarşı mübarizədə tətbiqinin genişləndirilməsi, bu sahədə əməkdaşlığın gücləndirilməsi və rəqəmsal həllərin inklüzivliyin təmin edilməsindəki əhəmiyyəti ifadə edilib.

Könüllülər COP29-un "yaşıl" və "mavi" zonalarında fəaliyyətləri ilə ən çox diqqətçəkənlər sırasındadırlar. Tədbirə gələn hər kəsi ilk qarşılayan və "xoş gəldin" deyən gənc oğlan və qızlar səmimi və gülər simaları ilə yadda qalırlar. 3000 könüllü gəncin belə qlobal tədbirdə fəal iştirak etməsinin çox böyük önəmi var. Onlar iqlim dəyişikliyi ilə mübarizədə müasir texnologiya və innovasiyaları təqdim etmək potensialına malikdirlər. Gənclər COP-a yaradıcı yanaşmaqla ənənəvi metodlardan kənara çıxaraq, daha effektiv strategiyaların hazırlanmasına kömək edirlər. Burada onlar səslərinin eşidilməsi və qlobal iqlim siyasətlərinə inteqrasiya etmək üçün mükəmməl fürsət qazanırlar. Qeyd edək ki, könüllülər başqalarına kömək etmək və cəmiyyətə fayda vermək, öz bacarıqlarını yeni ortamda göstərmək, yeni dostlar taparaq əlaqələr qurmaq və özünə dəyər vermək hissini inkişaf etdirmək üçün bu addımı atırlar. COP29 könüllüləri məhz bu parametrlərin daşıyıcısıdırlar.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*














COP29 Baku Azerbaijan

# Azərbaycandan dünyaya "yaşıl çağırış"lar







## Qlobal problemin həllinə COP29 töhfəsi

### Plastik tullantılar dünyanı təhdid edir

**Dünyanı narahat edən ətraf mühit problemlərindən biri də tullantıların artmasıdır. Hazırda onların böyük bir qismini plastik tullantılar təşkil edir. Plastik tullantılar ətraf mühitə və ekosistemə geniş miqyasda təsir edir.**

Ötən əsrin ortalarında plastik tullantılar bərk məişət tullantılarının cəmi 1 faizini təşkil edirdi. Hazırda bu rəqəm 12 faizdən çoxdur. Təəssüf ki, plastik tullantıların həcmi hər il daha da artır. Statistikaya görə, hər il dünyada 500 milyon ton plastik məhsul istehsal olunur. Onların tullantılarının torpaq və suda parçalanması üçün isə yüzillər tələb olunur. Elə tullantılar var ki, min illər keçsə belə təbiətdən yox olmur. Mütəxəssislər bildirirlər ki, plastik tullantılar torpaqda 800 il, okeanlarda isə 400 il ərzində parçalanır. Belə tullantıların vurduğu ziyan dünyanın ekoloji tarazlığına ciddi təsir göstərir.

Təbiətə atılan plastik tullantıların 90 faizi okeanlarda toplanır. Bu da plastik adaların yaranmasına səbəb olur. Hazırda okeanlarda beş böyük plastik tullantı adası var. Onlardan ikisi Sakit okeanda, ikisi Atlantik okeanında, biri isə Hind okeanındadır. Okeanlara və digər su hövzələrinə atılan plastik məhsullar flora və faunaya ciddi zərər vurur. Mikroplastiklərin su ekosistemlərinə daxil olması ilə dəniz canlıları bu tullantıları qida kimi qəbul edir. Bu səbəbdən hər il milyonlarla dəniz canlısı həyatını itirir. Problemlə mübarizə aparılmadığı tədqirdə onun ekosistemə olunan daha dağıdıcı təsirləri artacaq.

Məsələ burasındadır ki, plastik tullantıların təsiri təkcə onların fiziki mövcudluğu ilə məhdudlaşmır. Plastik məhsulların istehsalı və onların çürüməsi də ətraf mühitə təsir edən karbon emissiyalarına səbəb olur. Belə ki, plastik istehsalı üçün fosil yanacaqlardan istifadə edilir. Bu isə böyük miqdarda karbon qazının atmosferə buraxılmasına gətirib çıxarır.

Bu problem Azərbaycanda da aktualdır. Ölkəmizdə də plastik qablaşdırma tullantılarının həcmi getdikcə artır. Statistikaya görə, hər il orta hesabla hər bir şəxs 24 kiloqram plastik məhsul istifadə edir. Bununla belə ölkəmiz tullantıların idarə edilməsi və təkrar emalına xüsusi önəm verir.

Plastik tullantıların tənzimlənməsi və onların iqlim dəyişikliyinə təsiri məsələsi də COP29-un prioritet mövzularındandır. COP29 çərçivəsində aparılan müzakirələr plastik tullantıların təkrar emalı, karbon emissiyalarının azaldılması və normativ tənzimləmələrə yönəlib. Konfrans çərçivəsində həyata keçirilən tədbirlər və müzakirələr plastik tullantıların idarə edilməsində qlobal əməkdaşlıq və qanunvericilik işlərinin təkmilləşdirilməsi baxımından əhəmiyyətlidir. COP29 müzakirələrində plastik istehsalının qlobal karbon izinə təsiri, plastik tullantıların idarə olunması və təkrar emalı imkanları xüsusi əhəmiyyət daşıyır.

Plastik tullantıların azaldılması və təkrar emal texnologiyalarının inkişafı yalnız iqlim dəyişikliyi ilə mübarizədə deyil, həm də su ekosistemlərinin, biomüxtəlifliyin və insan sağlamlığının qorunmasında mühüm rol oynayır. COP29-da plastik tullantılarla bağlı qəbul ediləcək qərarlar ümumilikdə ekoloji tarazlığın qorunmasına və ekosistemlərin dayanıqlığının təmin edilməsinə xidmət edəcək.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*







## COP29 inkişaf etməkdə olan ölkələrə ümid verir

**Müxtəlif səbəblərə görə dünya qeyri-bərabər səviyyədə inkişaf edib. Belə mənzərə iqlim dəyişikliklərinin coğrafiyasında da özünü göstərir. Yəni inkişaf etmiş Avropa ölkələri qitədə tullantısız enerji əldə etmək üçün milyardlarla avro investisiya qoya bilir. Lakin Afrika ölkələrinin belə bir imkanları yoxdur və o üzdən düşdükləri acınacaqlı durumdan çıxmaq üçün onlara dəstək verilməlidir.**

Onu da qeyd edək ki, Afrika ölkələrində ətraf mühitin çirklənməsində elə həmin inkişaf etmiş ölkələr günahkardır. Onlar artıq neçə onilliklərdir Afrika ölkələrinin təbii sərvətlərini amansızcasına istismar edirlər və bu zaman heç bir normalara əməl etmirlər. Bu yolla özlərinə rahat və firavan həyat təmin edən Avropa dövlətləri Afrika və dənizaşırı ölkələrə fəlakətli həyat "bəxş" edirlər. Buna görə də iqtisadi və texnoloji cəhətdən geridə qalan həmin ölkələr təkbaşına bu problemlərin aradan qaldırılmasının öhdəsindən gələ bilmirlər.

Amma Azərbaycanda keçirilən COP29 həmin ölkələrdə bir ümid yaradıb. Belə ki, Prezident İlham Əliyev həmin dövlətlərə dəstək göstərilməsinin vacib olduğunu bütün dünyaya bəyan edib. Dövlətimizin başçısının bu ədalətli mövqeyi hələ də müstəmləkə zülmündən, siyasi, maddi və mənəvi zülmdən əziyyət çəkən ölkələrdə özgüvənliyi artırıb.

COP29 çərçivəsində Fransa və Niderlandın müstəmləkəsi altında olan Afrika ölkələri və dənizaşırı ərazilərin nümayəndələrinin keçirdiyi "Yaşıl və müstəmləkəsiz dünya naminə həmrəylik" adlı dinc aksiyanın iştirakçısı, "One St Martin" Assosiasiyasının prezidenti Roda Arrindell bildirib ki, o, müstəmləkə zülmü altında necə əziyyət çəkdiklərini dünyaya göstərməyə çalışır: "COP29-a gələndə heç bir gözləntim yox idi. Sadəcə iştirak üçün gəlmişdim. Ancaq Azərbaycan Prezidenti İlham Əliyev bizim Fransa və Niderlandın müstəmləkəsi altında olduğumuzu tanıyan mesajını eşidəndə çox təəccübləndim. Çünki müstəmləkəçi dövlətlər tez-tez adalarımızın müstəmləkə olmadığını söyləyirlər. Onlar deyirlər ki, onların əraziləridir, onların dənizaşırı əraziləridir, onlar bərabərhüquqlu tərəfdaşlardır. Ancaq yerlərdə reallıq çox fərqlidir. Ona görə də COP29-da Azərbaycan Prezidentinin çıxışından ruhlandıq. O, çox yaxşı Liderdir, reallığı öz həmkarlarına deməyə cəsarəti çatan Liderdir".

Məlum olduğu kimi, Şimali Afrikanın ən zəngin ölkəsi olan Liviya Amerika və Avropa ölkələrinin hərbi təcavüzü nəticəsində xarabazarlığa dönüb. Hazırda bu ölkə ciddi sosial-iqtisadi və ekoloji problemlər yaşayır. Dövlətin ikiyə bölünməsi, iqtisadi gerilik bu ölkəyə öz ekoloji problemlərini müstəqil şəkildə həll etməyə imkan vermir. Liviyanın "Climate Action Network" təşkilatının nümayəndəsi Semi Almabruk deyir ki, COP sessiyalarında mütəmadi iştirak edir: "Azərbaycanda COP29 konfransı yüksək səviyyədə təşkil olunub. Burada dünyanın bir çox ölkəsindən liderlər, ekspertlər, nümayəndələr iştirak edirlər. Onlar bir-biri ilə öz təcrübələrini bölüşür, danışıqlar aparır, əməkdaşlıqlar qururlar. İstəyirəm ki, burada verilən vədlər söz olaraq qalmasın, onlar icra olunsun. Xüsusən iqlim dəyişikliyindən ən çox zərərçəkən ölkələr dəstəklənsin. Dünya çox sayda təbii fəlakətlərdən əziyyət çəkir, o cümlədən mənim ölkəm Liviya da. Elə ölkələr var ki, onlarda lazımi infrastruktur yoxdur. Mənim bu konfransdan gözləntilərim var. Dünya indi kritik vəziyyətdədir. Hazırda insanlar iqlim dəyişmələrinin zərərləri barədə daha çox məlumatlıdırlar. Biz birgə səylər nəticəsində bu problemin öhdəsindən gələ bilərik".

Cənubi Afrikanın "Indalo Inclusive" qeyri-kommersiya təşkilatının direktoru və əməliyyatlar üzrə müdiri Rest Kancu inkişaf etmiş dövlətlərin inkişaf edən ölkələri "yaşıl enerji"yə keçiddə dəstəkləmələrinin zəruri olduğunu vurğulayır: "Biz öz növbəmizdə bu işə lazım olan töhfəni verməyə hazırıq. Başqa ölkələrdən olan tərəfdaşlardan lazımi bilikləri əldə etməyə çalışırıq".

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*

## Bakıda dünyanın iqlim böhranının həlli yolları araşdırılır

**Bakıda keçirilən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) dünya dövlətlərinin ciddi marağına səbəb olub. COP29 məkanında dünyanın müxtəlif regionlarından olan nümayəndələr xarici pavilyonlarla yanaşı, milli pavilyonlara da xüsusi maraq göstərirlər.**

COP29 sədrliyi iqlim dəyişmələri, münaqişə və humanitar ehtiyaclar kimi aktual problemlərin həllinə yönəlmiş mühüm təşəbbüs - Sülh, Yardım və Bərpa üçün İqlim Fəaliyyətinə dair Bakı Çağırışına (BCCAP) start verib.

İqlim dəyişməsinin su qıtlığı, ərzaq məhsullarının çatışmazlığı, torpaqların deqradasiyası və insanların yer dəyişməsi kimi mənfi təsirlərin, xüsusilə iqlim dəyişməsinə ən həssas olan regionlarda münaqişə və qeyri-sabitlik üçün katalizator rolunu oynadığı getdikcə daha çox aydın olur.

Sözügedən çağırış Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov tərəfindən COP29-un Sülh, Yardım və Bərpa Gününün açılışı münasibətilə keçirilən "İqlim və Sülh: Hər kəsin iştirakını təmin etmək üçün birgə fəaliyyətə təkan vermək" adlı yüksəksəviyyəli panel sessiyasında elan edilib. Tədbir iqlim dəyişməsi nəticəsində yaranan münaqişələrin qarşısının alınmasına, həm iqlim təsirlərinə, həm də münaqişələrə həssas olan ölkələrə, xüsusən də mühüm humanitar ehtiyacları olanlara dəstəyin artırılmasına yönəlmiş strategiyanı formalaşdırmaq üçün dünya miqyasında Şimal və Cənub ölkələrindən nazirlər və hökumət nümayəndələrini bir araya gətirib. Qəzetimizin əməkdaşları dünən COP29-un sədrliyi tərəfindən təşkil və idarə olunan "yaşıl zona"da konfrans iştirakçılarının fikirlərini öyrənib.







Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi yanında İctimai Şuranın üzvü, Gənclərin Antinarkomaniya İctimai Birliyinin sədri Billur Məmmədova deyir ki, COP29-un Azərbaycan paytaxtında keçirilməsi, hökumət və vətəndaş cəmiyyətləri nümayəndələrinin, elm adamlarının və ekspertlərin Bakıda toplaşaraq iqlim böhranının həlli yollarını müzakirə etməsi həm ölkəmiz, həm region, həm də ümumilikdə bəşəriyyət üçün əhəmiyyətli nəticələr vəd edir.

Konfrans zamanı ölkəmizə qarşı obyektiv münasibəti ilə seçilən QHT nümayəndələri, dünyaca məşhur ekofəallar ilə intensiv görüşlərimizi davam etdiririk. Hesab edirəm ki, COP29 QHT-lərin beynəlxalq əməkdaşlıqlarını genişləndirmək üçün də çox gözəl bir fürsət oldu. Yeni QHT nümayəndələri ilə tanışlıq əməkdaşlıq inkişafı üçün faydalı olacaq.

COP29-un ölkəmizin iqtisadi inkişafına müsbət təsirləri olacaq. COP29-un müsbət nəticəsindən danışarkən, ilk növbədə onun turizm sektorunun canlanacağına təsirini xüsusi vurğulamaq istəyirəm. Tədbir yeni investisiyaların və texnologiyaların cəlb olunmasına şərait yaradacaq, "yaşıl enerji"nin inkişafını təşviq edəcək. Digər tərəfdən, ölkəmizin beynəlxalq əlaqələri daha da möhkəmlənəcək. COP29 işğaldan azad edilən ərazilərdəki ekoloji problemlərin həlli üçün də olduqca vacib bir platformadır.

COP29 çərçivəsində əldə olunan əməkdaşlıq və təcrübə mübadiləsi Azərbaycana iqlim siyasətində daha böyük addımlar atmasına imkan verəcək. Bu tədbir ölkənin iqlim siyasətini, o cümlədən bu sahədə beynəlxalq əməkdaşlıqları gücləndirəcək, qlobal və regional miqyasda iqlim dəyişikliyi ilə mübarizənin səmərəliliyinin artırılması üçün ciddi təsir göstərəcək. Hesab edirəm ki, ölkəmizin qazandığı bütün uğurlar xalqımızın xoşbəxt və firavan gələcəyi üçün edilir. Bu münasibətlə bütün xalqımızı təbrik edirəm, Azərbaycan COP29 tədbiri ilə dünyada çox möhtəşəm bir uğura imza atdı.

Söhbətimizi ingiltərəli nümayəndə Paul Jaskamanla davam etdiririk. Paul deyir ki, fərəhlənə bilərsiniz ki, bu gün ölkəniz dünyanın mərkəzinə çevrilib. COP29-da iştirak edən və etməyən, hətta COP29 əleyhinə təbliğat aparan dövlətlərin də diqqəti hazırda Azərbaycana yönəlib. Belə bir mötəbər tədbirə evsahibliyi etməklə Azərbaycan dünyanın siyasi-iqtisadi xəritəsindəki nüfuzunu bir daha təsdiq etdi.

"Bakının dünyanın enerji təhlükəsizliyindəki rolu inkaredilməzdir. Tezliklə "yaşıl enerji" ixracatçısı kimi də respublikanızın öz sözünü deyəcəyi şübhə doğurmur. Bildiyim qədəri ilə "yaşıl enerji"nin ixracı istiqamətində də tədbirlər sürətli şəkildə davam edir. "Xəzər-Qara dəniz-Avropa", "Azərbaycan-Mərkəzi Asiya-Avropa", "Azərbaycan-Türkiyə-Avropa" enerji dəhlizləri üzərindən ötürüləcək "yaşıl elektrik enerjisi" Avropanın enerji təhlükəsizliyinə sanballı töhfə verəcək. Bizə təqdim edilən layihədə "Xəzər-Qara dəniz-Avropa "yaşıl enerji" dəhlizi" layihəsi 2030-cu ilə qədər yaradılacaq. 7 GVt gücün 4 GVt-ı Qara dəniz vasitəsilə "Xəzər-Qara dəniz-Avropa "yaşıl enerji" dəhlizi" ilə ixrac üçün nəzərdə tutulub. Bu da "yaşıl enerji" sahəsində çox uğurlu bir nəticə deməkdir. Ölkələrimiz arasında qarşılıqlı əməkdaşlığın və dostluq münasibətlərinin tarixi çox qədimdir. Dost ölkə olan Azərbaycanın bütün uğurları bizi məmnun edir".

Digər britaniyalı həmsöhbətimiz isə Neil Jervon oldu. Neil deyir ki, COP29 konfransı istər yaxşı təşkil olunması, istərsə də işgüzarlığı ilə yaddaşımda qalacaq. İlk növbədə COP29-un belə mütəşəkkil və möhtəşəm keçirilməsində əməyi olan təşkilatçılara minnətdaram. Azərbaycanda özümüzü doğma evimizdəki kimi hiss edirik. İnsanların bizə göstərdiyi xoş münasibət, ən başlıcası, doğmalıq və mehribanlıq məni məmnun edir. Bakının harasında olduqsa, bizi doğma insanlar kimi qarşıladılar. Londona döndükdən sonra burada gördüyüm gözəl xalq barədə dostlarıma da məlumat verəcəyəm.

Zambiyalı Petronella Chinqina deyir ki, COP29 yeni iqtisadi əlaqələrin qurulması üçün iştirakçı dövlətlərə verilmiş bir fürsətdir. İngiltərəli Neillə burada tanış olmuşuq. Dostluğumuz yeni iqtisadi əlaqələrin qurulması üçün çox möhkəm körpü olacaq. Bu fürsəti bizə yaratdığı üçün ömrümüz boyu Azərbaycana minnətdar olacağıq.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

COP29 Baku Azerbaijan

# Dünya mediası COP29-dan yazır

# "Təşkilatçılıq ən yüksək səviyyədədir"

**Bakıda davam edən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) Beynəlxalq aləmdə böyük maraq var. Dünyanın aparıcı qəzet, televiziya və KİV-inin əsas xəbər başlıqlarını COP29-la bağlı ən son məlumatlar bəzəyir. Bəzi televiziyalar və agentliklər Bakıdan canlı bağlantı qururlar.**

Fransanın onlayn nəşri **"La Gazette du Caucase"**nin məqaləsində deyilir ki, COP29 iqlim maliyyələşdirilməsinə, təsirin azaldılmasına və uyğunlaşmaya xüsusi diqqət yetirərək kritik qlobal iqlim problemlərinin həllinə yönəlib. Sayt Prezident İlham Əliyevin COP29 çərçivəsində Dünya Liderlərinin İqlim Fəaliyyəti Sammitində səsləndirdiyi sözlərinə istinad edərək yazır: "Azərbaycan inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında, həmçinin qlobal Cənub və Şimal arasında əlaqə nöqtələri tapmağa çalışacaq. Prezident İlham Əliyev son 4 ildə BMT-dən sonra ikinci ən böyük beynəlxalq təşkilat olan Qoşulmama Hərəkatında Azərbaycanın səmərəli liderliyini vurğuladı ki, bu da ölkənin qlobal təşəbbüsləri həyata keçirməkdə geniş təcrübəsinin sübutudur".

Məqalədə o da qeyd edilib ki, 11 noyabrda Bakıda qlobal iqlim konfransı - COP29 işə başlayıb. Azərbaycan beynəlxalq ictimaiyyətin dəstəyi ilə, 11 dekabr 2023-cü ildə keçirilən COP28-in plenar iclasında yekdilliklə ev sahibi kimi təsdiq olunub.

Prezident İlham Əliyev qeyd edib ki, Azərbaycan iqlim təşəbbüslərinə töhfə verməyə sadiqdir və ölkənin ekoloji proqramı quruda 135 QVt, dənizdə 157 QVt həcmində qiymətləndirilən bərpaolunan enerji mənbələrinin əhəmiyyətli potensialının üzə çıxarılmasına yönəlib.

O da vurğulanıb ki, Azərbaycan artıq bu potensialın istifadəsində mühüm uğurlar əldə edib, o cümlədən Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkəti tərəfindən tikilən regionun ən böyük 230 MVt gücündə günəş-elektrik stansiyasına investisiya qoyulub. Bundan əlavə, Səudiyyə Ərəbistanının "ACWA Power" şirkəti 240 MVt potensiala malik külək-elektrik stansiyası tikir.

COP29-un keçirilməsi zamanı BP şirkəti ilə 4 il əvvəl Ermənistanın işğalından azad edilmiş Cəbrayıl rayonunda 240 meqavatlıq günəş-elektrik stansiyasının tikintisi barədə müqavilə imzalanacaq. COP29-da qəbul edilən qərarlardan geniş bəhs edən nəşr Prezident İlham Əliyevin fikirlərinə yer ayırıb: "Azərbaycan 2030-cu ilədək təxminən 6 QVt günəş, külək və hidroelektrik stansiyalarının tikintisini planlaşdırır. Ümumilikdə, ölkə 10 QVt-lıq bərpaolunan enerji layihələri üzrə müqavilə və anlaşma memorandumları imzalayıb. Ölkənin ekoloji proqramı, həmçinin, daxili bölgələri, o cümlədən Naxçıvan, Qarabağ və Şərqi Zəngəzur regionlarını əhatə edir ki, onlar da "yaşıl zona"lar elan olunub. 2020-ci ildə azad edildikdən sonra Qarabağ və Şərqi Zəngəzur regionlarında ümumi 10000 MVt-lıq alternativ enerji potensialı müəyyən edilib. Bu regionlar hidroenerji, günəş enerjisi, külək və geotermal mənbələr daxil olmaqla, demək olar ki, bütün növ bərpaolunan resurslara malikdir".








































Məqalədə həmçinin qeyd edilib ki, Naxçıvandan sonra Füzuli, Cəbrayıl və Zəngilan rayonları günəş potensialına görə əsas yerdədir: bu rayonlarda kvadratmetrə düşən günəş radiasiyası ildə 1600-1700 kVt-saat təşkil edir və ümumi güc 7200 MVt-dır. Külək potensialı xüsusilə Kəlbəcər və Laçın rayonlarında yüksəkdir, burada orta illik külək sürəti saniyədə 10 metrə çatır və Qarabağın dağlıq ərazilərində 2000 MVt-lıq potensial mövcuddur. Bundan əlavə, Kəlbəcər, Laçın və Şuşa rayonlarında gündəlik hasilatı 4000-5000 kubmetr olan termal suların əhəmiyyətli enerji ehtiyatları var.

Energetika Nazirliyinin məlumatına görə, Azərbaycanda "yaşıl enerji" mənbələrinin iqtisadi potensialı 27 QVt təşkil edir ki, bunun da 3 QVt-ı külək enerjisi, 23 QVt-ı günəş enerjisi, 380 MVt bioenerji potensialı və 520 MVt dağ çaylarının potensialıdır.

"Azərbaycan 1995-ci ildə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasını ratifikasiya edib, 2000-ci ildə isə qlobal istiləşməyə səbəb olan istixana qazlarının emissiyasını məhdudlaşdıran 1997-ci il Kioto Protokoluna qoşulub. Daha sonra Azərbaycan 2015-ci il Paris Sazişi üzrə öhdəliklərini təsdiqləyərək, istixana qazı emissiyalarını 2030-cu ilədək 35 faiz, 2050-ci ilədək isə 40 faiz azaltmağı öhdəsinə götürüb" - "La Gazette du Caucase" yazır.

Türkiyənin **"Haber Global"** kanalının Fransanın COP29-dan kənarda qalması ilə bağlı süjetində Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovun fikirlərinə yer ayıraraq Parisin iqlim problemindən kənarda qalmasını yanlışlıq adlandırılıb. Süjetdə qeyd olunur ki, Bakıda BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) uğurla davam edir. Tədbirdə Türkiyə, Britaniya, İtaliya, İspaniya və digər aparıcı ölkələr iştirak etdikləri halda Fransa sessiyaya qatılmayıb. Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov bununla bağlı suala cavabında bildirib ki, Fransanın hər nə bəhanə ilə olursa-olsun, iqlim dəyişikliyi məsələsindən kənarda qalması yanlışdır. COP29 komandası qarşı tərəflə konstruktiv işləyib, danışıqlar aparıb.

Süjetdə qeyd olunur ki, gündəmdə Azərbaycanla Ermənistan arasındakı sülh sazişi də vardı. Vurğulanır ki, C.Bayramov saziş üzərində işlərin davam etməsinə diqqət çəkib. "Əsas fokus məhz COP29-la bağlıdır. Fiziki görüşlər dekabr ayından əvvəl birmənalı mümkün deyil. Sənəd üzərində iş davam edir", - C.Bayramov qeyd edib.

Rusiyanın **"NEWS.ru"** portalı isə "Rosgidromet"in rəhbəri, COP29-da Rusiya nümayəndə heyəti rəhbərinin müavini İqor Şumakovun açıqlamalarına geniş yer ayırıb. Vurğulanıb ki, Bakıda COP29 iqlim dəyişikliyi konfransının təşkilatçıları tədbirin ən yüksək səviyyədə keçirilməsi üçün çox səy göstəriblər.

İqor Şumakovun sözlərinə görə, RF nümayəndələri forumda işləməkdən məmnundurlar və rahatlıq hiss edirlər: "Hər şey əladır. Qəbul edən tərəf, Azərbaycandan olan həmkarlarımız belə miqyaslı forumu təşkil etmək üçün əllərindən gələni ediblər. Azərbaycan Prezidenti İlham Əliyevin dediyi kimi, bu forumda 70 min iştirakçı qeydiyyatdan keçib. Forumun ilk günlərində 80-dən çox prezident və hökumət başçısı tədbirdə iştirak edib. Ona görə də təşkilatçılıq ən yüksək səviyyədədir və biz burada işləməkdən çox məmnunuq və rahatıq".

İtaliya mediası bu ölkənin "Ansaldo Energia" şirkəti ilə "Azərenerji" ASC arasındakı yeni əməkdaşlıqdan yazıb. **"La Repubblica", "il Sole 24 ore", "La Stampa", "il Secolo XIX"** kimi saytların yaydığı materiallarda Azərbaycanda keçirilən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində "Ansaldo Energia" ilə "Azərenerji" arasında anlaşma memorandumunun imzalandığı bildirilir.

Diqqətə çatdırılır ki, sənəd dekarbonizasiya, kadr hazırlığı, karbontutma, "yaşıl hidrogen", kiçik modul reaktorları və başqa istiqamətlər üzrə əməkdaşlığı əhatə edir. Hər iki şirkət elektrik enerjisinin istehsal sistemləri "yaşıl hidrogen" istehsalına dair təcrübə mübadiləsi aparacaq, "yaşıl enerji" keçidinə töhfə verəcək.

**"Euronews"** kanalı isə hazırladığı süjetdə bildirib ki, dünya liderləri və tanınmış iqlimşünas alimlər tərəfindən imzalanmış məktubda COP-da islahatlar aparılması tələb olunur. Cümə günü dərc olunan açıq məktubda BMT-nin sabiq baş katibi Pan Gi Mun, keçmiş İrlandiya prezidenti Meri Robinson və BMT-nin iqlim məsələləri üzrə keçmiş rəhbəri Kristiana Figeres də daxil olmaqla 20-dən çox ekspert bildirib ki, əldə edilmiş irəliləyişlərə baxmayaraq, COP prosesində islahatlar aparılmalıdır. Məktubda iqlimin maliyyələşdirilməsinin ciddi şəkildə izlənilməsi və ən son elmin nəzərə alınmasından tutmuş, daha tez-tez görüşlərin keçirilməsinə qədər yeddi əsas islahat tələb olunur: "COP-un ilk həftəsi sona yaxınlaşarkən biz prezidentliyə namizəd Muxtar Babayevdən danışıqların necə getdiyini soruşduq. Düşünürəm ki, bu, COP29 üçün həqiqətən yaxşı bir başlanğıcdır. "Yalnız 6.4 (Karbon bazarları üzrə Paris Sazişinin 6-cı maddəsi) deyil, həm də birinci gündə qəbul edilmiş gündəm və 6.4-cü bənd bütün digər öhdəlikləri və ya müzakirə mövzularını yerinə yetirmək üçün bizə əlavə motivasiya verir".

Danışıqlar 2009-cu ildə qoyulmuş əvvəlki 100 milyard dollarlıq iqlim maliyyəsi hədəfini əvəz edəcək yeni kollektiv kəmiyyət hədəfinə (NCQG) yönəlib. Paris Sazişinin bir hissəsi olaraq, hökumətlər 2025-ci ilə qədər yeni iqlim maliyyəsi hədəfi təyin etməyə razılaşdılar.

**"The Guardian", "Reuters" və "Brasil de Fato"** agentliklərinin məqalələrində vurğulanıb ki, konfransın qlobal iqlimin istiləşməsinə səbəb olan istixana qazı emissiyalarını azaltması və iqlim dəyişikliyinə uyğunlaşmaq üçün inkişaf etməkdə olan ölkələrə maliyyə yardımı üzrə yeni hədəflərlə yekunlaşacağı gözlənilir.

İordaniyanın aparıcı media qurumları Azərbaycanın evsahibliyi etdiyi BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) aid çoxlu sayda xəbər və videomaterial yayımlayıb. Ölkənin **"Petra" Dövlət İnformasiya Agentliyi, "The Jordan Times", "Al-Rai", "Əd-Dustur", "Ammon News", "Jordan News", "Roya News", "Al-Mamlaka"** qəzet və saytlarında, eləcə də **"Jordan Tv", "Roya Tv" və "Mamlaka Tv"** televiziya kanallarında COP29 ilə bağlı silsilə məqalə və videomateriallar dərc edilib. Xəbərlərdə COP29 çərçivəsində keçirilən Liderlər Sammitində İordaniya Kralı II Abdullahı təmsil edən Vəliəhd Şahzadə II əl-Hüseyn bin Abdullahın tədbirdəki çıxışı, həmçinin Azərbaycan Prezidenti İlham Əliyev ilə görüşü barədə ətraflı məlumat verilib.

Bundan əlavə, COP29-un Bakıda yüksək səviyyədə təşkil edilməsi, iqlim dəyişmələrinə dair danışıqların uğurla nəticələnməsi və COP29-la bağlı təşəbbüslərin dəstəklənməsi ilə bağlı müsbət rəylər oxuculara təqdim olunub. Azərbaycanın dünyanın prioritet qəbul etdiyi "yaşıl enerji" layihələri ilə bağlı məlumat verilib, ölkəmizin bu sahədə təcrübəsinin dünyaya çatdırılması məsələləri geniş işıqlandırılıb.

Yerli mediada Vəliəhd Şahzadə II Əl-Hüseyn bin Abdullahın COP29-da iştirakı, Azərbaycanın tarixi və turizm imkanları ilə bağlı faktların yer aldığı videoçarxlar da geniş yayılıb.

Səudiyyə Ərəbistanı Krallığının nüfuzlu **"Əş-Şərq Əl-Avsət"** qəzetində "Azərbaycanda BMT-nin COP29 iqlim konfransı keçirilir" sərlövhəsi ilə silsilə məqalələr dərc olunur. Materiallarda Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) noyabrın 22-dək davam edəcəyi qeyd olunub.

Qəzet diqqətə çatdırır ki, dünyanın hər yerindən olan diplomatlar hər il keçirilən iqlim sammitində iştirak etmək, iqlim dəyişikliyinin yaratdığı artan təhlükələrin qarşısını almaq yollarını müzakirə etmək üçün paytaxt Bakıya axışırlar. Azərbaycan 1846-cı ildə ilk neft yataqlarının işləndiyi yer kimi tanınır, 1899-cu ildə isə neft hasilatına görə dünyada lider olub. Qeyd olunur ki, Avropa İttifaqı Azərbaycan qazının idxalını 2027-ci ilə qədər iki dəfə artıraraq hər il onu 20 milyard kubmetrə çatdırmaq üçün müqavilə bağlayıb. Azərbaycan rəsmiləri bildiriblər ki, Avropadan gələn tələbat fonunda Bakını daha çox qaz yanacağı istehsal etdiyinə görə tənqid etmək ədalətsizlikdir. Bir neçə gün əvvəl Birləşmiş Millətlər Təşkilatı Bakı Sammitində adaptasiya əməliyyatlarının maliyyələşdirilməsini gücləndirmək öhdəliyindən başlayaraq iqlimə uyğunlaşma səylərini təcili aktivləşdirməyə çağırıb.

*Hazırladı:*
*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*

COP29 Baku Azerbaijan

# Bakıdan dünyaya ədalət çağırışı










## COP29 kiçik ada dövlətlərinin haqq səsini dünyaya çatdırır

**Qlobal iqlim dəyişmələri bütün bəşəriyyət üçün böyük təhlükədir. Bu təhlükənin qarşısının alınması üçün dünya ölkələri əl-ələ verməli, sıx əməkdaşlıq etməlidirlər. Bakının evsahibliyi etdiyi BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) iqlim dəyişikliyi ilə bağlı qlobal əməkdaşlıq üçün də vacib bir platformadır.**

Dünyanın bütün ölkələrinin iqtisadi vəziyyəti eyni deyil. Hələ də maliyyə yardımına böyük ehtiyacı olan ölkələrin sakinləri yoxsulluqdan əziyyət çəkirlər. Təəssüf ki, elə ölkələr də var ki, böyük dövlətlərin müstəmləkə siyasətinin qurbanına çevriliblər. Onların əksəriyyətinin malik olduqları zəngin təbii sərvətlərindən istifadə edərək əhalisinin yaşayış səviyyəsini yüksəltməsinə işğalçı ölkələrin rəhbərləri maneələr yaradırlar. Nəticədə, təbii sərvətləri həmin ölkələrin vətəndaşlarının firavanlığına, rahat yaşamalarına şərait yaratmalı ikən başlarının bəlasına çevrilib.

İqtisadi geriliyi həmin ölkələrin ekoloji vəziyyətinə də təsir göstərir. İqlim dəyişikliklərinin fəsadlarına qarşı mübarizə aparmalarına problemlər yaradır.

Ölkəmizin paytaxtında keçirilən dünyanın ən mötəbər iqlim tədbirində - COP29-da iştirak edən kiçik ada dövlətləri də eyni problemlərlə üzləşiblər. Azərbaycanda keçirilən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəfləri Konfransının 29-cu sessiyasında (COP29) onların haqq səsi dünyaya çatdırılır.

Noyabrın 13-də COP29 çərçivəsində keçirilən inkişaf etməkdə olan kiçik ada dövlətlərinin (SIDS) sammitində dövlətimizin başçısı İlham Əliyev çıxış edərək bu, olduqca vacib məsələni bütün dünyanın diqqətinə çatdırdı. Prezident İlham Əliyev bildirdi ki, kiçik ada dövlətlərinin səsi qlobal arenada eşidilməlidir: "Mən inkişaf etmiş bütün ölkələrə, xüsusən də müstəmləkə keçmişi olan ölkələrə müraciət edirəm ki, kiçik ada dövlətlərinə maddi və texniki dəstək göstərsinlər ki, onlar ölkələrini iqlim dəyişmələrinin fəsadlarından qoruya bilsinlər. İqlim dəyişmələri hər bir ölkəyə, o cümlədən Azərbaycana təsir göstərir. Görürük ki, Xəzər dənizi ilbəil daha da dayazlaşır. Görürük ki, çaylarımızda daha az su, dağlarımızda daha az qar var. Əfsuslar ki, keçmişdə heç vaxt görmədiyimiz daşqınlar və kəskin yağışlar bu gün reallıqdır. Bir sözlə, hər bir ölkə təsirə məruz qalır, lakin kiçik ada dövlətləri üçün bu ekzistensial təhlükədir".

Kiçik ada dövlətlərinə özünün birmənalı dəstəyini nümayiş etdirən Azərbaycan indiqədək məqsədyönlü addımlar atıb, xeyli maliyyə və humanitar yardımlar göstərib.

Prezident İlham Əliyev qeyd etdi ki, həmin ölkələrin üzləşdiyi çağırışların aradan qaldırılması COP29-da Azərbaycanın göstərdiyi səylərin əsasını təşkil edir.

Dövlətimizin başçısı sammitdə neokolonializm və iqlim dəyişmələrinə də diqqəti yönəltdi. Fransa və Niderlandın, xüsusən də Karib dənizi və Sakit okean regionundakı dırnaqarası dəniz əraziləri iqlim dəyişmələrinin ən ciddi təsirinə məruz qalanlar sırasında olduğunu, artan dəniz səviyyəsinin, kəskin hava şəraitinin və biomüxtəlifliyin pozulmasının həmin regionlara ciddi təhlükə yaratdığını, həmin icmaların səsinin bir çox halda onların metropoliyalarındakı rejimləri tərəfindən susdurulduğunu vurğuladı: "Yeni Kaledoniya, Fransa Polineziyası, Mayot, Vallis və Futuna, Korsika, Reuniyon, Qvadelupa, Martinika, Fransa Qvianası, Sen-Pyer və Mikelon, Sent-Mert və Sent-Varfolomey kimi Fransa müstəmləkələrinin xalqları, eləcə də Niderlandın Aruba, Kurasao, Sent-Maarten, Boneyr, Sent-Yefstaxiy və Saba kimi müstəmləkələrinin xalqları, - gəlin həmin ərazidəki xalqları alqışlayaq, - bu gün XXI əsrdə də müstəmləkə hakimiyyətindən əziyyət çəkirlər. Hazırda Fransa Polineziyası və Yeni Kaledoniya 1946-1947-ci illərdə BMT tərəfindən qeyri-özünü idarə edən ərazilər kimi tanınır. Bununla belə, onların dekolonizasiya prosesi hələ də yubanır".

Fransanın Əlcəzairdə, Fransa Polineziyasında, Yeni Kaledoniyada və digər ölkələrdə uzun illərdir ki, apardığı müstəmləkəçilik siyasətinin dəhşətli ağrılarını əhali ilə yanaşı, təbiət də çəkir. Müstəmləkəçi ölkə tərəfindən planetin ekosisteminə də zərər vurulub. Prezident İlham Əliyev sammitdə çıxışında bildirdi: "Fransanın dırnaqarası dəniz ərazilərində törətdiyi cinayətlər siyahısı rejimin bu yaxınlarda insan hüquqları pozulmalarını qeyd etməsək, tam olmazdı. Prezident Makronun rejimi kanakların builki legitim etiraz aksiyasında 13 nəfərin həyatına son qoymuş, 169 nəfəri yaralamışdır. 1700 insan həbs edilmişdir. Həmçinin bu il Martinika və Qvadelupada etirazlar zamanı 38 nəfər həbs olunub. Bütün bunlarla yanaşı, Fransa nə Avropa Komissiyası, nə Avropa Parlamenti, nə də ki, Avropa Şurasının Parlament Assambleyası tərəfindən pislənildi. Bu, siyasi riyakarlıqdır. Siyasi korrupsiya rəmzinə çevrilmiş iki təsisat - Avropa Parlamenti və Avropa Şurası Parlament Assambleyası günahsız insanların qətlinə görə Prezident Makronun hökuməti ilə məsuliyyəti bölüşür. Fransadakı bütün siyasi məhbuslar dərhal azad olunmalıdır".

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***




## Müstəmləkəçilik siyasətindən əl çəkilməlidir

**Fransa şakərindən əl çəkə bilmir. COP29 əleyhinə təbliğat aparmaqda yarışa girən ölkələr sırasında "lider"lik edir. Maraqlısı budur ki, rəsmi Paris ya anlamır, ya da ölkəmizə qarşı kin, nifrət hissi Makron və onun komandasını o qədər kor edib ki, COP-un təsisçisinin Azərbaycan olmadığını nəzərə almır. BMT-nin təsisçisi olduğu bu beynəlxalq tədbirə evsahibliyi də elə beynəlxalq ictimaiyyətin razılığı ilə qərara alınır. Fransanın bu gün COP əleyhinə apardığı çirkin təbliğat Azərbaycandan çox, üzvü olduğu BMT-nin əleyhinə yönəlib.**

Bəşər tarixində Fransa ordusunun törətdiyi qətliamların sayı və miqyası iqlim dəyişikliklərinin sürətlənməsinə də öz "töhfə"sini verib. Görünən odur ki, rəsmi Paris dünya qarşısında öz günahlarını yumaq, dünya ictimaiyyəti ilə həmrəy olmaq əvəzinə, hələ də ölkəmizi hədəfə almaqla diqqəti bəd əməllərindən yayındırmağa çalışır.

Azərbaycan son 21 ildə sürətlə inkişaf edən dövlət kimi nüfuzlu beynəlxalq təşkilatların tədbirlərinin keçirildiyi ən etibarlı məkandır. Ölkəmiz həm də beynəlxalq aləmdə sülhün və sabitliyin ünvanı kimi tanınıb. İftixarla deyə bilərik ki, bu gün Bakı dünyanın mərkəzinə çevrilib. Dünyanın təqribən 200 ölkəsinin COP29-un Azərbaycanda keçirilməsinə dair yekdil qərar verməsi ölkəmizə olan inam və etimadın ən yaxşı nümunəsidir.

Bədxahlarımızın əleyhimizə kampaniya aparmaqlarına baxmayaraq, COP29-da 196 ölkə, 80 prezident, vitse-prezident, baş nazir və 72 mindən çox iştirakçı qeydiyyatdan keçib. Hazırda Bakıda yüksək səviyyədə COP29 tədbirləri davam edir. Bakı öz qonaqlarını yüksək səviyyədə qəbul edir.

Dövlətimizin başçısı BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) Liderlər Sammitinin açılış mərasimindəki çıxışında ölkəmizin sürətli inkişafı, qarşıda duran perspektivlər barədə məlumat vermiş, COP29-u boykot etmək istəyənlərə ciddi mesajlar göndərərək demişdir: "Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazisinin 20 faizinin Ermənistan tərəfindən 30 illik işğalına, etnik təmizləməyə və bir milyon azərbaycanlının öz doğma torpaqlarından qovulmasına baxmayaraq, biz özünü təmin edən iqtisadiyyata və müstəqil siyasətə malik güclü ölkəni qura bildik. Dörd il öncə biz İkinci Qarabağ müharibəsində tarixi Qələbəni qeyd etdik. Bir il əvvəl biz BMT-nin Nizamnaməsinə, beynəlxalq hüquqa və BMT-nin Təhlükəsizlik Şurasının 30 il kağız üzərində qalmış qətnamələrinə uyğun olaraq, suverenliyimizi tam bərpa etdik. Biz həmin qətnamələri özümüz icra etdik, beynəlxalq hüququ, ədaləti bərpa etdik və Ermənistanın işğalına son qoyduq. COP29-un sədri kimi Azərbaycan inkişaf etmiş və inkişaf edən ölkələr, Qlobal Cənub və Qlobal Şimal arasında ümumi anlaşmaya nail olmaq üçün əlindən gələni edəcək".

Dövlətimizin başçısı çıxışında bu məqamı da xüsusi vurğuladı: "Müxtəlif ölkələrə məxsus bəzi media orqanlarında, demək olar ki, hər gün iqlim sammitinin əleyhinə yalan və böhtanla dolu məqalələr dərc edilir, əsassız fikirlər səsləndirilir. Belə araqarışdıranlar hələ də qəbul etmək istəmirlər ki, iqlim sammiti baş tutub və yüksək səviyyədə davam edir".




Fransanın bugünkü vəziyyəti özü qazdığı quyuya düşən nadanın vəziyyətinə bənzəyir. Bu ölkənin törətdiyi qanlı cinayətlərin əhatə dairəsi o qədər genişdir ki, bunu ölkəmiz əleyhinə aparılan çirkin təbliğatla ört-basdır etmək mümkün deyil. Bəd əməlləri qara kabus kimi hər yerdə qarşısına çıxır.

Afrika ölkələrinin və dənizaşırı ərazilərin COP29-da iştirak edən nümayəndələri Bakıda işlərinə "Yaşıl və müstəmləkəsiz dünya naminə həmrəylik" adlı dinc aksiya keçirməklə, Fransa və Niderlandın müstəmləkəçilik siyasətinə etirazla başladılar. COP29 çərçivəsində təşkil olunan aksiyanın iştirakçıları bildiriblər ki, müstəmləkəsiz və "yaşıl dünya" naminə həmrəylik davamlı inkişafın və müstəmləkə ölkələrinin muxtariyyətinin ayrılmaz olduğu ideyasına əsaslanır.

Onilliklər boyu müstəmləkəçilikdən, iqtisadi istismardan, mədəniyyətlərinə və ətraf mühitlərinə hücumlardan əziyyət çəkən bu ölkələr istər iqlim dəyişikliyi, istərsə də meşələrin qırılması və ya torpağın deqradasiyası kimi mövcud ekoloji böhranlara çox həssas ölkələrdir. Aksiyaçılar təbii sərvətlərinin müstəmləkəçi güclərin xeyrinə talan edilməsinə, yerli əhalinin yoxsullaşdırılmasına, ekosistemlərin zəiflədilməsinə etirazlarını bildiriblər. Onlar Fransa və Niderland kimi müstəmləkəçi dövlətlərin və transmilli korporasiyaların deqradasiya etdiyi ekosistemlərin bərpası üçün məsuliyyət daşıdıqlarını və buna görə ekoloji təzminat ödəməli olduqlarını vurğulayıblar.

Müstəmləkə altında olan bu ölkələrin nümayəndələri inkişaf etmiş ölkələrdə kolonializmin təsirləri və əvvəllər müstəmləkə olmuş ölkələrin üzləşdiyi ekoloji problemlər haqqında məlumatlılığın artırılmasına və insanların maarifləndirilməsinə çağırış ediblər. Afrika, Cənub-Şərqi Asiya, Sakit okean və Latın Amerikasında onlarla ölkəni işğal edən, sərvətlərini talayan, xalqlarını uzun illər əsarətdə saxlayan Fransa həmin ərazilərdə hərbi və bəşəriyyət əleyhinə çoxsaylı cinayətlər törədib, fransız silahlı qüvvələri etnik və dini mənsubiyyətinə görə yüz minlərlə dinc sakini soyqırımına məruz qoyublar.

Prezident İlham Əliyevin COP29 çərçivəsində inkişaf etməkdə olan kiçik ada dövlətlərinin sammitində etdiyi çıxışda Fransanın neokolonializm siyasətini ifşa edərək Avropa İttifaqına üzv dövlətə Afrika və ada dövlətlərində yürütdüyü müstəmləkəçilik siyasətindən əl çəkməsi üçün bir daha çağırış etdi.

İnsan hüquqlarından utanmadan dəm vuran Fransanın cəmiyyət və təbiət əleyhinə törətdiyi qanlı cinayətlərin xəritəsinə baxanda təəccüblənməmək mümkün deyil. 1966-1996-cı illərdə Parisin Fransa Polineziyasında apardığı 196 nüvə sınağı nəticəsində radiasiya səviyyəsi 4900 faizdən çox artıb, Əlcəzairdə keçirilmiş 17 nüvə sınağı ilə ümumiyyətlə, planetin ekosistemini faciəli bir vəziyyətə gətirib.

Dünya kolonializm tarixinin qanlı cinayətlərinin əksəriyyəti məhz Fransa tərəfindən törədilib. Afrika, Cənub-Şərqi Asiya, Sakit okean və Latın Amerikasında onlarla ölkəni işğal edən, sərvətlərini talayan, xalqlarını uzun illər əsarətdə saxlayan Fransa həmin ərazilərdə hərbi və bəşəriyyət əleyhinə çoxsaylı cinayətlər törədib, fransız silahlı qüvvələri etnik və dini mənsubiyyətinə görə yüz minlərlə dinc sakini soyqırımına məruz qoyublar.

Əlcəzairi 132 il işğal altında saxlayan Fransa dövləti 1,5 milyon insanı qətlə yetirib. Mərakeş, Tunis, Mali, Cibuti, Nigeriya, Çad, Seneqal, Vyetnam, Qəmər adaları, Haiti və digər ölkələr bu gün də fransız ordusunun törətdiyi ağır fəsadları həyatlarında hiss edirlər.

Dünyaya insan haqlarından "dərs" keçmək iddiasında olan Parisin İnsan Muzeyində müstəmləkə müharibələrində XIX əsrdə qətlə yetirilən döyüşçülərin 18 min ədəd kəllə sümüyü saxlanılır və nümayiş etdirilir. Həmin kəllə sümükləri arasında əlcəzairli döyüşçülərin də sümükləri var. Əlcəzairin həmin sümükləri geriyə qaytarmaq tələbi Fransa tərəfindən hələ də yerinə yetirilmir.

Fransız Qvianasında sosial vəziyyət getdikcə pisləşir, əhalinin təxminən yarısı yoxsulluq durumundadır, işsizlik səviyyəsi hər il artır. Bu ərazidə təbii sərvətlər talan edilir və torpaqların 90 faizi Fransa dövlətinin mülkiyyətindədir. Martinika və Qvadelupa iki böyük fəlakətlə üz-üzədir. Yerli əhali gizli və qanunsuz məskunlaşma yolu ilə assimilyasiya edilir. Fransa Qəmər Adaları İttifaqının Mayot adası üzərində suverenliyini tanımaqdan imtina edir. Yeni Kaledoniyada əhalinin yarısının iştirakı olmadan referendum keçirilir və bu minvalla xalqın müstəqil olmaq hüququ əlindən alınır. Etnik azlıqlar konsepsiyasını qəbul etməyən Fransa Korsika dilini qadağan edir. BMT bunu ayrı-seçkilik və beynəlxalq hüququn pozulması kimi qiymətləndirsə də, bu beynəlxalq təşkilatın Təhlükəsizlik Şurasının üzvü olan Fransa öz maraqları naminə beynəlxalq hüquq normalarını kobud şəkildə pozur. Eyni zamanda BMT Təhlükəsizlik Şurasının daimi üzvü statusundan öz qərəzli, qeyri-obyektiv siyasətini yürütmək üçün sui-istifadə edir, müxtəlif regionlarda geosiyasi intriqalarla məşğul olur.

Qanlı cinayətlərlə zəngin müstəmləkəçilik tarixinə görə utanmalı olan, törətdiyi vəhşiliklərə görə üzr istəmək əvəzinə, kolonializm tarixindən əl çəkə bilməyən Fransa Avropadan kənarda, Sakit və Atlantik okeanlarında dənizaşırı ərazilərdə yaşayan xalqların azadlıq arzularına və hüquqlarına bu gün də hörmət etmir, onların arzularının reallaşmasının qarşısının alınması üçün hər vəchlə çalışır.

Yeni Kaledoniyada kanakların təkcə bu il keçirdikləri legitim etiraz aksiyalarına qarşı divan tutan Emmanuel Makron hökuməti 13 nəfərin həyatına son qoyub, 169 nəfəri yaralayıb, 1700 insanı isə həbsə atıb. Martinika və Qvadelupada isə 38 nəfər həbs olunub. Öz hüquqlarını tələb edən bu günahsız insanlara qarşı Fransanın tətbiq etdiyi cinayət hərəkətləri Avropa Komissiyasının, Avropa Şurası Parlament Assambleyasının, Avropa Parlamentinin gözü qarşısında baş verir. Avropanın heç bir təsisatı Fransaya "gözündə tir var" demir. Avropa İttifaqının xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Cozep Borel isə "X" sosial şəbəkəsində Avropa İttifaqını bağ, dünyanın qalan hissəsini cəngəllik kimi təsvir edir. Yəni Borel hesab edir ki, Avropadan kənar ölkələr cəngəllikdir və bu əraziləri vəhşi qanunlarla idarə etmək lazımdır.

Təbii ki, XXI əsrdə Fransanın bu vəhşi davranışı və öz hərəkətlərinə haqq qazandırması Borellərin də onların cinayətlərinə şərik olması deməkdir. Həm də Borelin bu təsviri Fransanın cinayətlərinə haqq qazandırmaqla yanaşı, COP29 keçirərək qlobal problemlərin aradan qaldırılması üçün təşəbbüslərlə çıxış edən Azərbaycana qarşı riyakar siyasətin davam etdirilməsidir.

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

COP29 Baku Azerbaijan

# Azərbaycan qlobal tədbirlərin mükəmməl təşkilatçılıq modelini yaradıb

## "COP29-dan əsas gözlənti milyonluq maliyyələşdirmə hədəflərinin müəyyənləşdirilməsidir"



**"Konfransda çoxlu müzakirələr aparılır. COP29-da gözlənilən əsas məsələ milyonluq maliyyələşdirmə hədəflərinin müəyyən edilməsidir".**

Bu barədə AZƏRTAC-a açıqlamasında Qazaxıstanın ekologiya və təbii sərvətlər naziri Erlan Nısanbayev bildirib.

COP29 çərçivəsində Qazaxıstanın müxtəlif ölkələrin şirkətləri ilə bir sıra müqavilələr imzaladığını vurğulayan nazir deyib: "Strateji məqsədlərimizi nəzərə alaraq, 2060-cı ilədək sıfır karbon neytrallığına nail olmaq öhdəliyi götürmüşük. Həmin vaxta qədər istixana qazı emissiyalarını faktiki olaraq aradan qaldırmalıyıq".

E.Nısanbayev Qazaxıstanın Azərbaycanla iqlim dəyişikliyi sahəsində Əməkdaşlıq Memorandumu imzaladığını diqqətə çatdırıb: "Bu, bizim üçün çox mühüm sənəddir. Hesab edirəm ki, imzalanan sənəd əməkdaşlığımızı dərinləşdirməyə və intensivləşdirməyə imkan verəcək".

O əlavə edib ki, bu gün Asiya İnkişaf Bankı ilə birgə Mərkəzi Asiya ölkələri və Azərbaycanla buzlaqlarla bağlı sənəd imzalanıb. "Bu gün buzlaqların sahəsi sürətlə azalır və bu, gələcəkdə fermerlər üçün böyük su qıtlığına səbəb olacaq. Ona görə də bu məsələ bizim, habelə Özbəkistan, Qırğızıstan, Tacikistan üçün əhəmiyyətlidir. Bu sənəd buzlaqların aktiv əriməsi ilə mübarizədə vahid yanaşmaların işlənib hazırlanmasına töhfə verməlidir", - deyə nazir sözlərini yekunlaşdırıb.

## "COP29 Bəyannaməsi kiçik ada dövlətlərinə iqlim dəyişikliyinə qarşı alətlər təqdim edir"



**Yaşıl Rəqəmsal Fəaliyyət üzrə COP29 Bəyannaməsi Karib hövzəsi və digər kiçik ada ölkələrinə icmalarını, iqtisadiyyatlarını və ətraf mühitlərini qorumaq, iqlim dəyişikliyinin artan təsirlərinə qarşı davamlılıq yaratmaq üçün alətlər təqdim edir".**

"Report" xəbər verir ki, bunu Karib Telekommunikasiya İttifaqının (CTU) baş katibi Rodney Taylor COP29 çərçivəsində keçirilən Yaşıl Rəqəmsal Fəaliyyət Proqramı üzrə yüksəksəviyyəli "dəyirmi masa-"da deyib.

O bildirib ki, kiçik ada dövlətləri Yaşıl Rəqəmsal Fəaliyyət üzrə COP29 Bəyannaməsini tam dəstəkləyir: "İnkişaf etməkdə olan kiçik ada dövlətləri olaraq iqlim dəyişikliyinin dağıdıcı təsirlərinə birbaşa məruz qalırıq. Kəskin təbiət hadisələri sosial və iqtisadi inkişaf baxımından ölkələri geri aparır, hər il infrastrukturun bərpasına milyardlarla dollar xərclənir".

CTU baş katibi qeyd edib ki, qəbul edilən bəyannamə rəqəmsal texnologiyanı iqlimə uyğunlaşma strategiyalarına inteqrasiya etdirmək, fəlakətlərə hazırlıq və cavab tədbirləri üçün enerjiyə qənaət edən infrastrukturları, davamlı kommunikasiya sistemlərini təmin etmək üçün yol təqdim edir: "Rəqəmsal savadlılığı artırmaqla inkişaf etməkdə olan kiçik ada dövlətləri yaranan təhlükələrə qarşı davamlı həllər və məlumatlara əsaslanan qərarların qəbulu üçün texnologiyadan istifadə edə bilər. Qlobal bilik mübadiləsi və əməkdaşlıq inkişaf etməkdə olan kiçik ada dövlətlərinin ehtiyaclarına uyğunlaşdırılmış ən yaxşı təcrübələrin və innovativ strategiyaların mənimsənilməsini daha da gücləndirir".

# Dünyanın ən mötəbər iqlim tədbiri Azərbaycanda uğurla davam edir




*Bakıda reallaşdırılan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası tarixi günlərini yaşayır. Həm COP29-un Liderlər Sammiti, həm kiçik ada dövlətlərinin bu tədbir çərçivəsində keçirilən sammiti, həm də panel iclasları, konfranslar, görüşlər, əməkdaşlıq əlaqələri ilə bağlı imzalanan sazişlər, qəbul edilən bəyannamələr dünya ictimaiyyəti tərəfindən maraqla izlənilir.*

COP29-un keçirildiyi günlərdə beynəlxalq aləmdə bu mövzuda müzakirələrə geniş yer verilir, mötəbər tədbirin yüksək səviyyədə uğurlu təşkili xüsusi qeyd edilir. Liderlər Sammitinin açılış mərasimində Prezident İlham Əliyev çıxışında Azərbaycanın iqlim dəyişmələri ilə mübarizədəki rolunu göstərməklə yanaşı, eyni zamanda ölkəmizin qlobal arenadakı strateji əhəmiyyətini geniş şəkildə vurğuladı.

Dövlət başçısının toxunduğu məqamlar, ümumilikdə ölkəmizin evsahibliyi etdiyi COP29-a qlobal maraq, bədxahlarımızın bu tədbirə mane olmaq üçün bütün cidd-cəhdlərinə rəğmən dünyanın Azərbaycanda toplaşması təkcə dövlətimizin "yaşıl enerji" keçidinin sürətləndirilməsinə deyil, həm də beynəlxalq əməkdaşlığın gücləndirilməsi üçün möhkəm bir platforma olacağına əminliyi daha da artırdı. Azərbaycanın "yaşıl gündəliy"i, multikulturalizm siyasəti və qlobal enerji təhlükəsizliyinə verdiyi töhfələr ölkəmizin dayanıqlı inkişaf yolunda olduğunu bir daha təsdiqlədi. Bu tədbir həm də Azərbaycanın öz tarixini və milli maraqlarını qoruyaraq qlobal proseslərə necə fəal şəkildə qoşulduğunu göstərdi.

### Şimalla Cənub, Qərblə Şərq arasında körpü

Prezident İlham Əliyev çıxışında ötən il təxminən 200 ölkənin COP29 tədbirinə məhz Bakının evsahibliyi etməsi barədə yekdil qərarının beynəlxalq səviyyədə Azərbaycanın qlobal aləmdə fəal rolunun bir göstəricisi olduğunu vurğuladı. Bu rol, təbii ki, həm də ölkəmizin coğrafi və strateji mövqelərindən irəli gəlir. Azərbaycanın Şimalla Cənub, Qərblə Şərq arasında yerləşməsi respublikamızın yalnız coğrafi deyil, həm də siyasi və iqtisadi körpü rolu oynadığını göstərir. Prezident İlham Əliyev çıxışında Azərbaycanın müxtəlif beynəlxalq iştirakçılar arasında enerji, ticarət və nəqliyyat sahələrində məhsuldar əməkdaşlıq formatları yaratdığını qeyd etdi. "Azərbaycan Şimal ilə Cənub, Qərb ilə Şərqin qovuşduğu ölkədir və bu, təkcə coğrafiya ilə bağlı deyil. Biz müxtəlif beynəlxalq iştirakçılar arasında siyasi, mədəni, enerji, ticari və nəqliyyat körpülərini sala bilərik. Azərbaycanın başladığı meqalayihələr artıq Avrasiyanın enerji və daşımalar yollarını dəyişib və məhsuldar, çoxtərəfli əməkdaşlıq formatının qurulması ilə nəticələnib", - deyə Prezident İlham Əliyev vurğuladı.

Bu yanaşma Azərbaycanın qlobal enerji və logistika mərkəzi kimi mövqeyini gücləndirir. Dövlət başçısı çıxışında onu da bildirdi ki, Azərbaycanın 120 ölkənin yekdil qərarı ilə dörd il ərzində Qoşulmama Hərəkatına uğurla sədrliyi, bu illər ərzində təsisatın inkişafı istiqamətində gördüyü parlaq işlər ölkəmizin bəşəriyyətin gələcəyi naminə qlobal əməkdaşlıqların qurulması və möhkəmləndirilməsi üzrə böyük əzmə və imkanlara malik olmasını göstərir.

### Daha təmiz dünya naminə "yaşıl bölgə"

Azərbaycan beynəlxalq səviyyədə tanınmış ərazisinin 20 faizinin Ermənistan tərəfindən 30 illik işğalına, etnik təmizlənməyə və bir milyon azərbaycanlının öz doğma torpaqlarından qovulmasına baxmayaraq, ötən onilliklər ərzində özünü təmin edən iqtisadiyyata və müstəqil siyasətə malik güclü ölkə qura bilib. Hazırda Qarabağın, Şərqi Zəngəzurun işğaldan azad edilməsi bu bölgələrdə iqtisadi və ekoloji bərpa işləri üçün yeni imkanlar yaradır. Azərbaycanın "yaşıl gündəliy"i müxtəlif bölgələrimizi əhatə edir. Naxçıvan, Qarabağ və Şərqi Zəngəzur regionları "yaşıl enerji" zonaları elan edilib və bu, ərazimizin, demək olar ki, dörddəbir hissəsidir.

Prezident İlham Əliyev Azərbaycanın "yaşıl enerji" sahəsindəki planlarından da ətraflı danışdı. Dövlət rəhbərimiz diqqətə çatdırdı ki, ölkəmizin bərpaolunan enerji potensialı - quruda 135 giqavat, dənizdə isə 157 giqavatdır. Belə bir potensial Azərbaycanın bu sahədə ciddi addımlar atacağını göstərir. Birləşmiş Ərəb Əmirlikləri, Səudiyyə Ərəbistanı və Birləşmiş Krallıq kimi ölkələrlə əməkdaşlığımız respublikamızın artıq bu sahədə də qlobal tərəfdaşa çevrildiyini göstərir. Azərbaycan Prezidentinin bununla bağlı diqqətə çatdırdığı faktları bir daha yada salaraq qeyd edək ki, ölkəmiz ötən il Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkəti ilə bir regionumuzda 230 meqavatlıq günəş enerjisi stansiyasının açılışını edib. Səudiyyə Ərəbistanının "ACWA Power" şirkəti isə hazırda 240 meqavatlıq külək enerjisi stansiyasını tikir.

COP29 çərçivəsində Birləşmiş Krallığın BP şirkəti ilə 240 meqavatlıq günəş enerjisi stansiyasının dörd il əvvəl erməni işğalından azad edilmiş Cəbrayıl rayonunda tikilməsi ilə bağlı saziş imzalanacaq. Ölkəmiz 2030-cu ilə qədər təxminən altı giqavatlıq günəş, külək və hidroenerji stansiyalarının inşasını planlaşdırır.

Qeyd edilən faktlar Azərbaycanın bərpaolunan enerji layihələri üzrə uzunmüddətli aydın planlara malik olduğunu, bunları addım-addım həyata keçirdiyini təsdiqləyir.

### Riyakarlara cavab

Prezident İlham Əliyev çıxışında ölkəmizin enerji siyasətini müdafiə etməklə yanaşı, Azərbaycanın enerji keçidindəki mövqeyini balanslaşdırılmış bir şəkildə təqdim etdi və aydın mesajlar verdi. Azərbaycanın tarixi enerji mərkəzi statusundan müasir "yaşıl enerji" təşəbbüslərinə keçidini özünəməxsus diplomatik ifadələrlə vurğulayaraq beynəlxalq səviyyədə ədalətli yanaşmanın vacibliyini önə çəkdi. Azərbaycanın real və dayanıqlı enerji siyasəti, beynəlxalq tənqidlərə qarşı qətiyyətli mövqeyi və əməkdaşlığa açıqlığı bu çıxışın əsas müddəalarından oldu.

Azərbaycanın Avropa ilə enerji sahəsindəki strateji tərəfdaşlığı xüsusilə çıxışın mühüm məqamlarından biridir. İki il əvvəl imzalanmış tərəfdaşlıq bəyannaməsi Azərbaycanın qlobal enerji təhlükəsizliyinə verdiyi töhfədir. Cənab İlham Əliyev xatırlatdı ki, iki il əvvəl Azərbaycan və Avropa Komissiyasının enerji sahəsində strateji tərəfdaşlıq bəyannaməsinə imza atması məhz Avropa Komissiyasının təklifi idi. "Avropa Komissiyasının sədri bu sənədi imzalamaq üçün iki il öncə Bakıya gəldi, çünki geosiyasi vəziyyətin dəyişməsi səbəbindən onlara bizim qaz lazım idi. Onlar bizdən yardım xahiş etdilər. Biz razılaşdıq. Əgər yardımımıza ehtiyac varsa, biz hər zaman kömək etməyə hazırıq. Dedik, yaxşı, biz enerji təhlükəsizliyində Avropaya kömək edəcəyik. İki il əvvəl həmin bəyannaməni imzalayanda qazımızı alan ölkələrin, yəni Avropa ölkələrinin sayı iki idi. İndi isə səkkiz ölkə alır". Dövlət başçısı onu da qeyd etdi ki, Azərbaycan qazına çıxışı olan on ölkədən səkkizi Avropada yerləşir. Avropa Komissiyası qaz təchizatının 2027-ci ilə qədər iki dəfə artırılmasını Azərbaycandan xahiş edib: "Bu, Avropa Komissiyasının sədri və mənim tərəfimdən iki il öncə Bakıda imzalanmış bəyannamədə əks olunub. Əfsuslar olsun ki, ikili standartlar, digər ölkələrə dərslər vermək adəti və siyasi riyakarlıq bəzi Qərb ölkələrindəki bir sıra siyasətçilər, dövlət nəzarətində olan QHT-lər, yalan xəbər mediası üçün fəaliyyət metoduna çevrilib".

Konfransda iştirak edən dövlətlər, onların bütün qitələri təmsil etmələri, habelə ümumi qeydiyyatdan keçən iştirakçıların sayı Qərbin bəzi paytaxtlarında planlaşdırılan, Azərbaycana qarşı qərəzli mövqedə olan mərkəzlər və media orqanları vasitəsilə reallaşdırılan bədxah hərəkətlərin nəticəsiz qaldığının subutudur. Bu dövlətlərin, xüsusilə Fransa kimi azərbaycanofob ölkələrin ssenariləşdirdiyi və hətta COP29-un gedişatında belə müxtəlif yerlərdə erməni diasporunun icra etdiyi təxribatçı aksiyalar rəsmi Bakının uğurları fonunda daha rəzil mənzərəyə səbəb oldu.

### Tanrının bəxş etdiyi hədiyyə

Prezident İlham Əliyev Azərbaycanı ədalətsiz şəkildə neft dövləti adlandıran yalançı Qərb mediasının siyasi mədəniyyətinin və biliklərinin çatışmamasını konkret faktlarla sübuta yetirdi. Diqqətə çatdırdı ki, bu gün Azərbaycan qlobal neft hasilatında 0,7 faiz, qlobal qaz hasilatında isə 0,9 faiz paya malikdir. "Amma dünyada birnömrəli neft və qaz hasilatçısı olan, Azərbaycandan 30 qat artıq neft hasil edən ölkənin yalan xəbər mediası bizi neft dövləti adlandırır. Yaxşı olardı ki, ən azı onlar özlərinə və Azərbaycandan 10 dəfə artıq neft hasil edən özlərinin qonşuluğundakı ölkəyə baxsınlar. Azərbaycanın qlobal qaz atılmalarındakı payı cəmi 0,1 faizdir", - deyə Azərbaycan Prezidenti çıxışında xüsusi vurğuladı.

Azərbaycan Prezidenti maraqlı bir müqayisə də apararaq dedi ki, Qərbin yalan xəbər mediasının, dırnaqarası müstəqil QHT-lərinin və bəzi siyasətçilərinin sanki ölkəmiz haqqında dezinformasiya və səhv məlumatın yayılmasında yarışa çıxaraq neftimizin olmasında Azərbaycanı ittiham etmələri bir növ Bakıda il ərzində 250-dən artıq günəşli günün olmasında bizi suçlamağa bənzəyir: "Bu, Tanrının bəxş etdiyi hədiyyədir. Hər bir təbii sərvət - istər neft, qaz, külək, günəş, qızıl, gümüş və mis - bunların hamısı təbii sərvətlərdir. Ölkələr onların olmasına görə günahlandırılmalı və bazarda onlara tələbatın olması səbəbindən onları bazara çıxardıqlarına görə suçlanmalı deyillər. İnsanlara onlar lazımdır. Bir sözlə, mesajım belədir. COP29-un sədri kimi, əlbəttə, biz yaşıl keçidin güclü carçısı olacağıq və bunu edirik, lakin eyni zamanda biz realist olmalıyıq".

Beləliklə, bədxahlarımızın Azərbaycana qarşı apardıqları kampaniyalara baxmayaraq COP29 öz işini uğurla aparır və bu, ölkəmizin beynəlxalq aləmdəki nüfuzunun, güclü mövqeyinin daha bir təcəssümünə çevrilir.

### Mühüm platforma

Bu gün ölkəmizdə keçirilən mötəbər qlobal tədbir - COP29 iqlim dəyişmələrinə yeni yanaşmalar yaradır və müxtəlif maraqlı tərəflər arasında geniş zəmində əməkdaşlığı təşviq edir. Liderlər Sammitində çıxış edən dövlət və hökumət başçıları bu kontekstdən müzakirəyə çıxarılan məsələlərə öz münasibətlərini bildirdilər. BMT-nin Baş katibi Antonio Quterreş çıxışında qeyd etdi ki, artıq itirməyə vaxtımız qalmayıb. İnsanlar, dövlətlər iqlim dəyişmələrinə qarşı mübarizə üçün vəsait ayırmalıdırlar: "Əks halda bu, bəşəriyyətə baha başa gələcək. İqlim maliyyələşməsi xeyixah əməl deyil, bu, bir investisiyadır. Bu, ixtiyari məsələ deyil, məcburi məsələdir. Hər ikisi əvəzolunmaz tədbirdir, bunlar bəşəriyyətin gələcəyi və firavanlığı üçün lazımdır".

Avropa Şurasının prezidenti Şarl Mişel çıxışında dedi ki, Avropa İttifaqı 31 milyard dollar iqlim maliyyələşdirməsinə hazırdır: "Bu, bizim payımıza düşəndən çoxdur, hamını bizdən nümunə götürməyə çağırırıq". Böyük Britaniyanın Baş naziri Kir Starmer isə qeyd etdi ki, Böyük Britaniyanın NDC-si 2035-ci ilədək bütün istixana qazları emissiyalarını 81 faiz azaldacaq. Amerikanın siyasi xadimi Con Podesta dedi: "ABŞ-də ilk dəfə olaraq böyük neft və qaz hasilatçıları buraxdıqları metan üçün ödəniş etməli olacaqlar".

Yunanıstanın Baş naziri Kiriakos Mitsotakis çıxışında "biz ağıllı və proqramlı olmalıyıq" söylədi. Keçid ağrısız olmayacaq və əlvə etdi ki, Avropada tənzimlənmənin yenidən qurulmasına ehtiyac var. Hər ölkənin öz yolu olmalıdır. Avropaya uyğunlaşmaq üçün daha çox resurs lazımdır.

İtaliyanın Baş naziri Giorgia Meloni isə bildirdi ki, konsensusa nail olmaq inkişaf etmiş və inkişaf etməkdə olan iqtisadiyyatlar arasında məsuliyyətlərin bölüşdürülməsini və fərqlərin aradan qaldırılmasını tələb edir. İtaliya Afrika üçün İqlim Fonduna 4 milyard dollardan çox vəsait ayırır. Biz həmçinin yaşıl iqlimi, zərər və ziyan fondlarını dəstəkləyirik.

### COP29 çərçivəsində mühüm tədbirlər

Bu ərəfədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevin və Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevin üçtərəfli görüşü oldu. Bir çox problemin müzakirəsindən sonra dövlət başçıları "Azərbaycan Respublikası, Qazaxıstan Respublikası və Özbəkistan Respublikası hökumətləri arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş" imzaladılar. Mərasimdə çıxış edən Azərbaycan Prezidenti İlham Əliyev bunu üç ölkə arasında münasibətlərin tarixində əlamətdar hadisə olduğunu vurğuladı: "İmzaladığımız bugünkü Saziş Mərkəzi Asiya və Qafqaz regionlarının əməkdaşlığında yeni imkanlar açır. Mahiyyət etibarilə, Mərkəzi Asiya və Qafqaz regionlarında inteqrasiya prosesləri, nəqliyyat, energetika, ticarətlə bağlı proseslər bu gün deməyə imkan verir ki, bu iki region bir çox məsələdə, o cümlədən "yaşıl enerji"nin inkişafı sahəsində sinxron fəaliyyət göstərir. Biz Özbəkistanda, Qazaxıstanda və Azərbaycanda bərpaolunan enerji mənbələrinin yaradılması üzrə artıq əldə edilmiş böyük planlar və nəticələr haqqında bilirik. Yəni biz, belə demək mümkünsə, paralel kursla gedirik və Xəzərin dibi ilə elektrik kabelinin çəkilməsi təkcə üç ölkəmiz arasında deyil, həm də daha geniş miqyasda əməkdaşlıqdır".

Dövlət başçısı Liderlər Sammitindəki çıxışında Azərbaycandan Qara dənizin dibi ilə Avropaya kabel xətti çəkilməsi ilə bağlı ölkəmizin artıq həyata keçirilməkdə olan planlarından danışdı. Xüsusi qeyd olundu ki, bu layihənin texniki-iqtisadi əsaslandırılması tamamlanmaq üzrədir və bununla da Azərbaycan Mərkəzi Asiyanı, Qafqazı, Avropanı, Xəzər və Qara dənizləri vahid enerji dəhlizi ilə birləşdirəcək. Daha sonra Prezident İlham Əliyev dedi: "Xüsusilə sevindirici haldır ki, bu Saziş hər zaman bir-birinə yaxın olan üç qardaş ölkə arasında imzalanır. Özbəkistanla münasibətlərimiz bu il müttəfiqlik münasibətləri səviyyəsinə çatıb, müvafiq saziş imzalanıb. Qazaxıstanla artıq uzun müddətdir ki, strateji tərəfdaş kimi əməkdaşlıq edirik. Qarabağın bərpasında bizə ilk yardım edən ölkələr Özbəkistan və Qazaxıstandır. Füzulidə Mirzə Uluqbəy adına məktəb, Kurmanqazı adına yaradıcılıq mərkəzi bu gün qardaşlığımızın bariz sübutudur. Əminəm ki, biz gələcəkdə də həmişə bir yerdə olacağıq və bir-birimizi dəstəkləyəcəyik".

COP29 çərçivəsində "COP sədrlikləri üçlüyünün yüksəksəviyyəli dialoqu: Ortaq rifahın gələcəyinə doğru Missiya 1,5 üçün Yol Xəritəmiz" adlı tədbir də keçirilib. Görüşdə bildirilib ki, üçlük il ərzində ambisiyaların irəliləməsi, siyasi impulsun artırılması və problemlərin həlli istiqamətində aydın bir trayektoriya izləyərək səylə çalışıb. Bu il Kopenhagendə "Troyka"nın rəsmi təqdimatı olmuşdur. Müəyyənləşdirilmiş Milli Töhfələrə güclü diqqət ayrılmışdır. Ümumiyyətlə, "Troyka" qlobal iqlim gündəmlərində sinerji yaratmaq, həm ambisiya, həm də maliyyə mexanizmlərini irəli aparmaq, eyni zamanda kritik icra problemlərini həll etmək və inkişaf etməkdə olan ölkələrin iqlimə davamlılığını artırmaq üçün fəaliyyət həyata keçirir.

"Troyka" ölkələrinə - Birləşmiş Ərəb Əmirlikləri (COP28), Azərbaycan Respublikası (COP29) və Braziliya (COP30) aiddir.

COP29 çərçivəsində keçirilən tədbirlər, görüşlər göstərir ki, dünya bir daha bizim imkan və bacarıqlarımızın, vətəndaşlarımızın intellektual səviyyəsinin , ümumilikdə isə insan potensialımızın gücünün və perspektivlərinin şahidi olur.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

## "COP29 çərçivəsində Paris Sazişinin 6-cı maddəsi üzrə bir çox razılaşma əldə olunub"




**"COP29 çərçivəsində Paris Sazişinin 6-cı maddəsi üzrə bir çox razılaşmaya nail olunub".**

"Report" xəbər verir ki, bunu COP29 baş danışıqçısının müavini Samir Becanov COP29 sədrliyinin mətbuat konfransında bildirib.

"Tərəflərin təqdim etdiyi vədlər və hesabatlar, xüsusilə enerjinin saxlanma həcmlərinin 6 dəfə artırılmasının zəruriliyi müsbət qiymətləndirilib", - o qeyd edib.

S.Becanov həmçinin deyib ki, bu gün COP29 çərçivəsində tərəflərin iqlim dəyişikliyinin nəticələri ilə mübarizədə texnologiyalardan istifadə etməsinin məcburi olacağı Yaşıl Rəqəmsal Fəaliyyət üzrə Bəyannamə qəbul olunub.

"Bəyannamə artıq 90-dan çox hökumət və rəqəmsal texnologiya cəmiyyətinin 1000 nümayəndəsi tərəfindən dəstəklənib", - o vurğulayıb.

## "Maliyyə kəşfiyyatı ilə dağıdıcı ekoloji fəaliyyətə son qoya bilərik"




**"Dünyada iqlim dəyişikliyini sürətləndirən bütöv bir iqtisadiyyat var".**

Bunu "Egmont Group"un sədr müavini Məhəmməd Şadid Əhməd COP29 çərçivəsində təşkil olunmuş "Antropogen iqlim dəyişikliyi ilə mübarizə üzrə qlobal səylərə töhfə vermək üçün maliyyə kəşfiyyatının imkanları" mövzusuna həsr olunmuş tədbirdə bildirib.

"Bu kontekstdə maliyyə kəşfiyyatı imkan verir ki, ətraf mühitə zərəri maliyyələşdirən və həyata keçirən qeyri-qanuni maliyyə axınlarını təhlil edək və aşkar edək. Bu, pula dəstək verən ekoloji deqradasiyanın harada baş verdiyini, onun sərhədləri necə keçdiyini müəyyən etmək üçün qeyri-qanuni maliyyə nümunələri haqqında biliklərimizdən istifadə etməliyik. Güclü maliyyə kəşfiyyatı mexanizmləri ilə biz bu qeyri-qanuni axınları dayandıra, onların asılı olduğu maliyyənin ekoloji cəhətdən dağıdıcı fəaliyyətinə son qoya bilərik", - deyə o qeyd edib.

Qonaq əlavə edib ki, dünyada qeyri-qanuni olaraq ağaclar kəsilir: "Meşələrin qırılması iqlim dəyişikliyini sürətləndirir, ekosistemlərin sabitliyini pozur. Maliyyə kəşfiyyatı yolu ilə bu fəaliyyətlərdən əldə edilən gəliri izləyə, əlaqəli tərəfləri müəyyən edə və onların əməliyyatlarını poza bilərik. Maliyyə kəşfiyyatı iqlim idarəçiliyini zəiflədən korrupsiyanı da ifşa edir. İqlim təşəbbüsləri üçün dövlət vəsaitləri korrupsiya yolu ilə başqa istiqamətə yönəldildikdə, bu, icmaları resurslardan məhrum edir və inamı sarsıdır, qeyri-qanuni gəlirlərin siyasətə təsir göstərməsinə imkan yaradır"

"İqlim dəyişikliyinin həllində maliyyə kəşfiyyatının əhəmiyyəti böyüdülməlidir. Bu, ekoloji cinayətlərin maliyyələşdirilməsini pozmaq və iqlim siyasətimizin bütövlüyünü qorumaq üçün əvəzsiz vasitədir. Maliyyə kəşfiyyatına sərmayə qoymaq və onu prioritetləşdirməklə biz ətraf mühitə ziyan vurmaqdan qazanc əldə edən maliyyə şəbəkələrini sıradan çıxara və iqlimlə mübarizə üçün nəzərdə tutulan vəsaitlərin korrupsiyadan qorunmasını təmin edə bilərik", - deyə o vurğulayıb.

COP29 Baku Azerbaijan

# Azərbaycanın nümunəvi evsahibliyi






## "İT-nin inkişaf etdirilməsi ilə bu sahədə biznesə töhfə vermək istəyirik"



**"Özbəkistan informasiya texnologiyalarının (İT) inkişaf etdirilməsi ilə bu sahədə biznesin inkişafına töhfə vermək istəyir".**

"Report" xəbər verir ki, bunu Özbəkistanın rəqəmsal texnologiyalar naziri Şerzod Şermatov COP29 çərçivəsində təşkil olunmuş Yaşıl Rəqəmsal Fəaliyyət Proqramı üzrə yüksəksəviyyəli "dəyirmi masa"da bildirib. O vurğulayıb ki, ölkəsində dövlət xidmətlərinin 80 faizdən çoxu onlayn rejimdə göstərilir.

"Biz çalışırıq ki, ölkəmizi İT mərkəzinə çevirək, İT şirkətləri gəlib öz bizneslərini inkişaf etdirə bilsin. Özbəkistanda insanlar bir ofisdən digərinə qaçmağa məcbur deyil. Həmçinin süni intellektin imkanlarına artan tələbatı nəzərə alaraq səudiyyəli tərəfdaşlarımızla birlikdə tam karbonsuz məlumat mərkəzinin yaradılmasına təşəbbüs göstəririk", - deyə nazir qeyd edib.

## "Yaşıl Rəqəmsal Fəaliyyət Bəyannaməsinin icrası üçün tam dəstək tələb olunur"



**"COP29 çərçivəsində təqdim olunacaq Yaşıl Rəqəmsal Fəaliyyət Bəyannaməsinin icrası üçün tam dəstək tələb olunur".**

"Report" xəbər verir ki, bunu Beynəlxalq Telekommunikasiya İttifaqının (BTİ) baş katibi Doreen Bogdan-Martin COP29 çərçivəsində təşkil olunmuş Yaşıl Rəqəmsal Fəaliyyət Proqramı üzrə yüksəksəviyyəli "dəyirmi masa"da bildirib.

O qeyd edib ki, üzv dövlətlər rəqəmsal transformasiya və davamlılığın birlikdə getməli yol olduğunu anlayırlar: "Buna görə də qərara gəlinib ki, davamlı rəqəmsal transformasiya BTİ-nin iki strateji hədəfindən biri olsun. Texnologiya şirkətləri bərpaolunan enerjinin ən böyük alıcıları arasındadır və bəziləri artıq 100 faiz bərpaolunan elektrik enerjisindən istifadə edirlər. Eyni zamanda BTİ-nin Yaşıllaşdırıcı Rəqəmsal Şirkətlər Hesabatında göstərildiyi kimi, texnoloji sektorun ətraf mühitə təsiri şəbəkə xidmətləri və məlumatların saxlanmasına qlobal tələbatın artması səbəbindən artır".

Bundan başqa, qonağın sözlərinə görə, COP29 Sədrliyi və ev sahibi ölkəsi Azərbaycanın baxış və dəstəyi Rəqəmsallaşma Gününü mümkün edib: "Yaşıl Rəqəmsal Fəaliyyət üçün bu önəmli məqam bizi rəqəmsal texnologiyaların ətraf mühitə təsirini azalda biləcəyimizə və azaltmalı olduğumuza, iqlim böhranı ilə mübarizədə onların danılmaz potensialından istifadə edəcəyimizə dair ümumi inancla irəli aparmalıdır. Gəlin COP30-a qədər olan yaşıl rəqəmsal gücümüzü və onunla birlikdə gələcək nəsillər üçün daha davamlı rəqəmsal gələcəyimizi qurmağa davam edək".

## *Tatyana MOLÇAN:* "BMT Azərbaycanın ekoloji fəaliyyətlə bağlı səylərini alqışlayır"



**"BMT Azərbaycanın ekoloji fəaliyyətlə bağlı səylərini alqışlayır".**

Bunu BMT-nin Avropa İqtisadi Komissiyasının məsul katibi Tatyana Molçan COP29 çərçivəsində gündəliyə salınmış BMT-nin Avropa İqtisadi Komissiyası tərəfindən hazırlanan Azərbaycanın "Ətraf mühit üzrə fəaliyyətin icmalı" (EPR) hesabatının təqdimatında deyib. "Report" xəbər verir ki, onun sözlərinə görə, iqlim dəyişikliyi məqsədlərinə nail olunmasına töhfə verən ölkələrin sayının artması biomüxtəlifliyin qorunmasında da rol oynayır:

"Biz davamlı kənd təsərrüfatının inkişafına kömək etməyə necə nail ola biləcəyimizi görəcəyik. Bununla bərabər, tullantıların idarə olunması mərkəzi yaratmışıq və həmçinin hava keyfiyyətinin monitorinqinə böyük diqqət yetiririk. Xüsusilə yüksək qiymətləndirdiyim nailiyyətlərdən biri yaşıl təbii xəstəxanaların yaradılmasıdır".

## *Honq-Konq Universitetinin professoru:* "Yaşıl enerji" ilə bağlı daha çox infrastruktura ehtiyac var"



**"İqlim dəyişikliyinə dair riskləri azalda bilmək üçün ölkələrin ticarət və investisiyaya yanaşmasında daha çox dəyişikliyə ehtiyac duyulur".**

Bunu "Report"a açıqlamasında COP29-da iştirak edən Çinin Honq-Konq Universitetinin professoru Alfred Ho bildirib. Onun sözlərinə görə, COP29 çox mühüm konfransdır: "Burada Honq-Konq Universitetindən 30-a yaxın tələbə də iştirak edir. Davamlı inkişaf, iqlimin maliyyələşdirilməsi haqqında daha çox öyrənmək və iqlim gündəmini inkişaf etdirmək üçün qlobal idarəetmə və çoxtərəfli əməkdaşlığı araşdırmaq istəyirik".

A.Ho deyib ki, COP29-da iqlim mövzusu ilə bağlı məsələlərə təkcə hökumətlərin deyil, özəl sektorun və maliyyə sektorunun da cəlb edilməsinə ciddi önəm veriləcək: "Vaxtımız tükənir və "yaşıl enerji" ilə bağlı daha çox infrastruktura ehtiyacımız var. İqlim dəyişikliyinə dair riskləri azalda bilmək, həmçinin potensial risklərə uyğunlaşmaq üçün ölkələrin ticarət və investisiyaya yanaşmasında daha çox dəyişikliyə ehtiyac duyulur. Bəlkə də gələcəkdə dəniz səviyyəsi yüksək olacaq, temperatur daha da artacaq. Buna görə də "yaşıl enerji" ilə bağlı infrastrukturun genişləndirilməsinə böyük ehtiyac var. Ümid edirəm ki, COP29-da təkcə müxtəlif ölkələrin rəsmilərini deyil, həm də maliyyə, biznes və təchizat zənciri kimi sahələrin nümayəndələrini bir araya gətirmək imkanı olacaq".

## "Nobel Enerji" tullantı qazların emalı ilə karbon emissiyalarını azalda bilər"



**"Nobel Enerji" şirkəti tullantı qazların emalı ilə karbon emissiyalarını əhəmiyyətli dərəcədə azalda bilər".**

COP29 çərçivəsində keçirilən sessiyalarda iştirak edən "Nobel Enerji" şirkətinin texniki məsələlər üzrə rəhbəri Mustafa Şahingöz "Report"a açıqlamasında bildirib ki, şirkət sənaye obyektlərindən çıxan karbon qazı və digər istixana qazlarının azaldılması üçün xüsusi proseslər həyata keçirir: "Tullantı qazların toplanması və emal edilməsi texnologiyası sayəsində karbon qazı, hidrogen-sulfid və digər zərərli qazları effektiv şəkildə ayıraraq təkrar istifadə edirik. Bu proseslər tullantı qazların emalını təmin edir və atmosferə buraxılacaq zərərli emissiyaların qarşısını alır".

M.Şahingöz əlavə edib ki, karbon qazının maye halına gətirilərək təkrar istifadəsi, yəni "karbon tutma prosesi" ekoloji tarazlığın qorunmasında mühüm əhəmiyyət daşıyır: "Bu üsul sənaye obyektlərində karbon emissiyalarının uzunmüddətli saxlanması və ətraf mühitin mühafizəsi baxımından strateji əhəmiyyət kəsb edir. Biz bu texnologiya ilə karbon emissiyalarını azaltmaqla yanaşı, hidrogen-sulfid və su buxarını da effektiv şəkildə ayırırıq. Bu isə yalnız ətraf mühitin qorunması ilə məhdudlaşmır, həm də iqtisadi səmərəliliyin artırılmasına töhfə verir".

O həmçinin vurğulayıb ki, "Nobel Enerji" şirkəti gələcəkdə karbon tutma texnologiyalarının inkişafını dəstəkləmək və bu sahəyə daha çox investisiya yatırmaq niyyətindədir. "İqlim dəyişikliyinin təsirlərini azaltmaq və "yaşıl enerji" həllərinə keçid etmək üçün innovativ texnologiyalara investisiya qoyuluşu prioritetlərimiz sırasındadır".

# Dünyanın gözü Azərbaycandadır

## COP29-da qəbul edilən qərarlar diqqətlə izlənilir

**"Bu günlər dünyanın gözü və diqqəti Azərbaycandadır. Yer kürəsinin gələcəyini düşünən hər kəs Bakıda keçirilən COP29 tədbirində qəbul ediləcək qərarları diqqətlə izləyir. Dünyanın ən nüfuzlu ekspert və mütəxəssisləri Bakı konfransını bir maliyyə tədbiri kimi də qiymətləndirirlər".**



Bu sözləri "Azərbaycan" qəzetinə BDU-nun kafedra müdiri, professor Kamilə Əliyeva deyib. O bildirib ki, əvvəlki COP-larda böyük və zəngin dövlətlər tərəfindən iqlim dəyişikliyindən əziyyət çəkən kiçik ada dövlətlərinə yardım ayrılması barədə qərar qəbul edilsə də, bu, həmin ölkələrə çatdırılmayıb. Azərbaycanın COP29-a sədrliyə başladığı ilk gündən Prezident İlham Əliyev dəfələrlə dünya dövlətlərinə müraciət edib ki, kiçik dövlətlərə maliyyə yardımlarının ayrılması çox zəruri məsələdir. Azərbaycan bu işdə körpü rolu oynayan bir dövlət kimi çıxış edir. Dövlət başçısı iqlim dəyişikliyi ilə əlaqədar dünya dövlətlərini həmrəy olmağa çağırıb. "Prezident İlham Əliyev hər zaman Yer kürəsinin sağlam gələcəyi naminə əsaslı təkliflərlə çıxış edib, dünya dövlətlərinin və xalqlarının azad və müstəqil yaşamalarının tərəfdarı olduğunu vurğulayıb. Azərbaycan yalnız sözdə deyil, əməli fəaliyyətində də bunu göstərir. Pandemiya dövründə Qoşulmama Hərəkatına sədrlik edən Azərbaycan 80 dövlətə maddi və humanitar yardımlar göstərərək vətəndaşlarını ölümün pəncəsindən qurtarıb. Bir sıra Qərb dövlətləri isə vaksin millətçiliyi ilə məşğul olurdular", - deyə ekspert əlavə edib.

O qeyd edib ki, Azərbaycanın COP29-a sədrliyi ərəfəsində Fransa və Niderland kimi dövlətlər ölkəmizə qarşı qarayaxma, qərəzli, təxribat xarakterli bəyanatlar səsləndirməyə başladılar: "Hər zaman olduğu kimi, bu dəfə də onlar Azərbaycan qarşısında məğlub olaraq dünya ictimaiyyətinin gözündə aciz və rəzil duruma düşdülər. COP29-a 80 ölkənin dövlət və hökumət başçısı, 190-dan artıq ölkədən 72 mindən çox nümayəndə heyəti gəldi. Bakıya gələn qonaqlar tədbirin çox yüksək səviyyədə təşkil olunduğunu vurğulayırlar".

Liderlər Sammitinin açılış mərasimində Prezident İlham Əliyevin dünya ictimaiyyətinə olduqca önəmli mesajlar verdiyini xatırladan K.Əliyeva bildirib ki, dövlət başçısı Azərbaycanın iqlim dəyişikliyinə qarşı həyata keçirdiyi layihələr, iqlim dəyişikliyinin qarşısının alınması üçün görüləcək işlər, eləcə də inkişaf etmiş dövlətlərin qarşısında duran vəzifələr barədə təkliflərini səsləndirib: "Dövlət başçısı eyni zamanda COP29-u baykot etməyə çalışan dövlətlərin dünyanı narahat edən iqlim dəyişikliyinə biganə yanaşdıqlarını və onların bu çağırışlarının fiaskoya uğradığını vurğuladı. Prezident İlham Əliyevin noyabrın 13-də COP29 çərçivəsində inkişaf etməkdə olan kiçik ada dövlətlərinin (SIDS) sammitindəki çıxışı iştirakçı dövlətlər tərəfindən böyük maraq və alqışla qarşılandı. Dövlət başçımız çıxışında XXI əsrdə də Fransa və Niderlandın müstəmləkə, neokolonializm siyasəti həyata keçirdiyini qətiyyətlə dünya ictimaiyyətinin diqqətinə çatdırdı. Demokratiya, insan hüquq və azadlıqlarından dünyaya dərs keçmək istəyən Fransa dəniz ərazilərində insanlığa və bəşəriyyətə qarşı dəhşətli cinayətlər törətməkdədir. Adalarda nüvə silahlarını həyata keçirən Makron hakimiyyəti burada yaşayan insanların həyatına son qoymaqla bərabər, ekoloji fəlakətlər törədir, iqlim dəyişməsinə zəmin yaradır. Makron rejimi Yeni Kaledoniyada yerli kanak xalqının haqlı etirazlarının qarşısını amansızlıqla alaraq qətllər törədib, insanları günahsız yerə həbs edib".

Professor Kamilə Əliyevə vurğulayıb ki, Fransa hökuməti müstəmləkədə saxladığı digər ərazilərdə də insanları günahsız yerə həbs edərək onlara işgəncələr verir: "Təəssüflər olsun ki, Avropa Komissiyası, Avropa Parlamenti və Avropa Şurası Parlament Assambleyası Fransanın bu cinayətlərinə göz yumur. AP və AŞPA günahsız insanların qətlinə görə Makron hakimiyyəti ilə məsuliyyəti bölüşür. AP və AŞPA-nın korrupsiyalaşan təşkilat olmaları dünya ictimaiyyətinə məlumdur. Bu təşkilatlar digər dövlətlərə demokratiyadan dərs keçməyə çalışırlar. Əslində, bu qurumlar Azərbaycan kimi müstəqil siyasət həyata keçirən, heç kimdən asılı olmayan dövlətlərə təsir etmək üçün Fransanın əlində bir alətdir. Azərbaycan hər zaman neokolonializmə qarşı mübarizə aparan, müstəmləkəyə məruz qalan dövlətləri və xalqları müdafiə edən bir dövlətdir. Ölkəmiz evsahibliyi etdiyi bütün beynəlxalq tədbirlər kimi, COP29 konfransını da yüksək səviyyədə keçirəcək".

*Əsmər QARDAŞXANOVA, "Azərbaycan"*






COP29 Baku Azerbaijan

# Kütləvi iştirak, böyük ictimai maraq, peşəkar təşkilatçılıq






## COP29 Azərbaycanın dünyanın yaşıllaşdırılmasındakı rolunun aynasıdır

**BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası insanların iqlim sisteminə təhlükəli müdaxiləsinin qarşısını almaq məqsədilə 1992-ci ilin iyununda Rio-de-Janeyro şəhərində keçirilmiş Yer Sammitində imzalanmış sazişdir və onun da ilk sessiyası 1995-ci ildə Almaniyanın Berlin şəhərində keçirilmişdir.**



Qeyd etmək yerinə düşər ki, iqlimin dəyişməsi ümumən təbiət hadisəsi olsa da, hazırda qeyd edilən qlobal iqlim dəyişməsi insanların təbiətə intensiv müdaxiləsinin (istixanalar, avtomobil qazları, fabrik-zavod tullantıları və s.) nəticəsi olması hamının qəbul etdiyi reallıqlardandır. Belə ki, buna misal olaraq insanların qidaya olan tələbatlarının ödənilməsi üçün meyvə və tərəvəzlərin becərilməsi məqsədi ilə istifadə edilən istixanalardan və meqaşəhərlərdə avtomobillərdən atmosferə buraxılan zərərli qazların insan orqanizminə nə qədər ağır təsir etdiyini demək yetərli olar. Lakin iqlim dəyişmələri təkcə insanların sağlamlığına mənfi təsir etmir, eyni zamanda özü ilə bir sıra iqtisadi və ekoloji problemlər də yaradır.

İqlimin mənfi tərəfə dəyişməsi müxtəlif sahələrə müxtəlif formada təsir etsə də, ən ciddi təsir tullantıların səmərəli utilizasiya olmamasına və temperaturun yüksəlməsinə görə aqrar sektorda, xüsusən də bitkiçiliklə bağlı olanlarda hiss edilməkdədir. Belə ki, bitkilər təkamül prosesində daim iqlim dəyişikliklərinə məruz qalmışlar ki, bu da CO2 qazının atmosferdəki miqdarı və temperaturla əlaqədar olmuşdur. Bəzi məlumatlara görə, təxminən 20 min il bundan qabaq, daha dəqiq, sonuncu buzlaşma dövründən bəri havada CO2-nin miqdarı 0,018 faiz ppm olduğu halda, hazırda onun miqdarı 0,041 faiz təşkil edir və əsrin sonuna kimi onun 0,051-0,1 faizə kimi yüksəlməsi gözlənilir. Qlobal temperaturun orta göstəricisi isə həmin dövrdən birinci sənaye inqilabına kimi 4,5°C yüksəlmişdir və ondan sonra isə hazırkı günlərə kimi daha 0,8°C artmışdır.

Yaşadığımız əsrin sonuna kimi temperaturun 1-3,7°C arasında yüksələcəyi də proqnozlaşdırılır. Bunun qarşısının alınmasının zəruri olması COP-un qarşısında duran vəzifədir. Çünki COP bir sıra iqlim dəyişikliyi məsələlərini müzakirə etmək və danışıqlar aparmaq üçün dünya liderlərini, hökumət rəsmilərini, alimləri, QHT-ləri və digər maraqlı tərəfləri bir araya gətirən böyük tədbirdir ki, onun 29-cu sessiyası Azərbaycanda keçirilir. COP29-un əsas mövzusunun iqlim dəyişmələrinin təsirlərindən zərər görən ölkələr üçün nəzərdə tutulan maliyyələşmə ilə bağlı olacağı açıqlanmışdır. Belə bir mövzunun seçilməsini də təbii hesab etmək olar. Belə ki, maliyyə mənbəyi olmayan ən gözəl ideya belə söz olaraq qalacaq. İnanırıq ki, COP29 bu məsələnin öhdəsindən gələcək və bu gün bəşəriyyəti narahat qedən karbon emissiyasının azaldılması üçün işlək maliyyə mexanizminin tapılması yolunda ciddi addımlar atılacaqdır.

Onu da deyək ki, COP29-un Azərbaycanda keçirilməsi bir dövlət olaraq aparılan xarici siyasətin böyük təntənəsidir və ölkəmizə həm siyasi, həm iqtisadi, həm də elmi baxımdan böyük dividendlər gətirəcək, dünyanın yaşıllaşdırılmasında respublikamızın da payının olmasını əyani şəkildə göstərəcəkdir. Belə ki, Prezident İlham Əliyevin 2024-cü ili "Yaşıl dünya naminə həmrəylik ili" elan etməsi, Azərbaycanda istixana qazı emissiyalarının 2050-ci ilə qədər 40 faiz azaldılmasının planlaşdırılması, su qıtlığının aradan qaldırılmasına və biomüxtəlifliyin kasadlaşması kimi qlobal xarakterli problemin həllinə istiqamətlənmiş strategiya və tədbirlər bunu əyani şəkildə təsdiq edir və COP29 bunu özündə aydın şəkildə əks etdirən bir ayna kimi də xarakterizə oluna bilər.

*Pənah MURADOV,*
*AR ETN-nin Mikrobiologiya İnstitutunun baş direktoru, AMEA-nın müxbir üzvü*







## "Enerji keçidləri zamanı ədalət prinsiplərinə əsaslanan siyasət prioritet olmalıdır"

**"Report" xəbər verir ki, bunu Avropa İqlim Fondunun icraçı direktoru Lorens Tubiana COP29 çərçivəsində keçirilən "Təmiz enerji keçidlərində ədalət və əlçatanlıq üçün dizayn" tədbirində deyib.**



Onun sözlərinə görə, enerji sistemlərində köklü dəyişikliklər aparıldığı bir zamanda beynəlxalq maraqlı tərəflər enerji iqtisadiyyatının kənarında qalanları da nəzərə almalıdırlar.

O bildirib ki, bu yanaşma qlobal səviyyədə insanların rifahını yaxşılaşdırmaq üçün unikal imkan yaradır: "Milli müəyyən edilmiş töhfələrin (NDC) ədalətli keçid prinsipləri ilə uyğunlaşdırılması iqlim və sosial ədalət məqsədlərinə eyni vaxtda nail olmağın əsas şərtidir. Bu iki hədəf bir medalın iki üzüdür".

Hökumətlər və beynəlxalq təşkilatların enerji keçidi strategiyalarını mərkəzli şəkildə qurmalı olduğunu qeyd edən L.Tubiana bu prosesdə ədalət, əlçatanlıq və bərabərlik prinsiplərinin əsas götürülməsinin vacibliyini diqqətə çatdırıb. O əlavə edib ki, enerji keçidlərinin təkcə ekoloji deyil, həm də sosial-iqtisadi nəticələrini nəzərə alaraq, bərabərsizliyin azaldılması istiqamətində addımlar atılmalıdır. Xərclərin və faydaların ədalətli paylanması, həssas qrupların müdafiəsi və iş yerlərinin yaradılması bu prosesin əsas tərkib hissələrindən olmalıdır.

L.Tubiana həmçinin vurğulayıb ki, ədalətli keçid planlarının hazırlanması və həyata keçirilməsi zamanı siyasətçilərin, vətəndaş cəmiyyəti nümayəndələrinin və əmək liderlərinin fəal iştirakı təmin edilməlidir. "Bu yanaşma enerji keçidini sürətləndirməklə yanaşı, sosial bərabərliyə və ədalətə töhfə verəcək".

## "Bu gün planetin hər 11-ci sakini aclıqdan əziyyət çəkir"

**"COP29 beynəlxalq konfransında təmsil olunan insanların sayının çox olması dünya birliyinin iqlim dəyişikliyinin nəticələri ilə mübarizəyə sadiqliyini nümayiş etdirir".**



"Report" xəbər verir ki, bunu Tanzaniya parlamentinin üzvü, Parlamentlərarası İttifaqın (IPU) prezidenti Tuliya Ekson COP29 çərçivəsində keçirilən Parlament Görüşündə bildirib.

"Burada iştirak edən parlamentarilər COP29-un keçirilməsinə və iqlim dəyişikliyi ilə mübarizədə həll yollarının axtarılmasına sadiqliyinə görə Azərbaycana minnətdarlıqlarını bildirirlər", - deyə o qeyd edib.

T.Ekson vurğulayıb ki, iqlim dəyişikliyi müasir dövrün əsas çağırışlarından biridir, çünki onun mənfi nəticələri insanların həyatının bütün aspektlərinə təsir göstərir. O, Paris Sazişinin qəbulundan sonra IPU-nun iqlim, eləcə də qanunvericilik təşəbbüslərini dəstəklədiyini vurğulayıb.

"İqlim dəyişiklikləri çox sayda insanın həyatına təsir edir, ona görə də tərəflər iqlim dəyişikliyinin nəticələri ilə mübarizə üzrə təcili tədbirlər görməlidirlər. Biz COP29-da etiraf etməliyik ki, təxminən 733 milyon insan, yəni planetin hər 11-ci sakini hazırda aclıqdan əziyyət çəkir və iqlim dəyişiklikləri bu böhranı daha da ağırlaşdırır", - deyə o bildirib.

T.Ekson ambisiyaları real hərəkətlərə çevirməyə və iqlim böhranı ilə mübarizədə birləşməyə çağırıb. Onun sözlərinə görə, biz yalnız bu halda uğur qazana bilərik.

## "Rəqəmsal texnologiyalar 2030-cu ilə qədər bəzi sektorlarda emissiyaları 10-20 faiz azalda bilər"

**"Rəqəmsal texnologiyalar sayəsində 2030-cu ilə qədər enerji, nəqliyyat və kənd təsərrüfatı kimi yüksək təsirli sektorlarda emissiyalarda 10-20 faiz azalma əldə edilə bilər".**



"Report" xəbər verir ki, bunu Birləşmiş Millətlər Təşkilatının Baş katibinin müavini və BMT-nin Ətraf Mühit Proqramının (UNEP) icraçı direktoru İnger Andersen COP29 çərçivəsində keçirilən yaşıl rəqəmsal fəaliyyət üzrə yüksəksəviyyəli "dəyirmi masa"da deyib.

O bildirib ki, rəqəmsal texnologiyaların və süni intellektin istixana qazlarının azaldılması strategiyasına daxil edilməsi böyük zərurətə çevrilib: "Rəqəmsal texnologiyalar emissiyaların azaldılmasında böyük potensiala malikdir. Bundan əlavə, rəqəmsal texnologiyalarla azaldılan emissiyalar bu texnologiyaların yaratdığı emissiyalardan yeddi dəfə çoxdur. Həmçinin dünən biz tərəfdaşlarımızla birlikdə peyk əsasında məlumatlarla işləyən Metan Məlumat Platformasını işə saldıq. Bu platforma metan emissiyalarının yerlərini müəyyən edir, müvafiq xəbərdarlıqlar verir və emissiya edən tərəflərə bu istiqamətdə tədbirlər görməyə imkan verir".

İ.Andersen qeyd edib ki, bu, Beynəlxalq Metan Emissiyaları Rəsədxanası vasitəsilə həyata keçirilir, peyk təsviri, qabaqcıl süni intellekt texnologiyası və müstəqil məlumat təhlili kombinasiyasından istifadə edərək real vaxt rejimində məlumat verir".

## "Rəqəmsal transformasiyanın karbon emissiyasını azaltmasına çalışmalıyıq"

**"Yaşıl rəqəmsal keçid" termini məşhur ifadə kimi görünə bilər, lakin rəqəmsal alətin təkcə telekommunikasiyada deyil, həm də digər sektorlarda davamlılığı əhəmiyyətli dərəcədə artıra biləcəyini xatırlamaq vacibdir".**



"Report" xəbər verir ki, bunu Litvanın nəqliyyat və rabitə nazirinin müavini Aqne Vaysyurtviçyute COP29 çərçivəsində təşkil olunmuş yaşıl rəqəmsal fəaliyyət üzrə yüksəksəviyyəli "dəyirmi masa"da bildirib.

O qeyd edib ki, Litva müxtəlif sektorlarda rəqəmsal texnologiyaya keçidə töhfə verir: "Artıq bizdə 4G və 5G texnologiyaları işlədilir. Kağızdan istifadə külli miqdarda azaldılıb ki, data istifadəsi genişləndirilsin. Bizim özəl data mərkəzimiz var ki, burada günəş enerjisindən istifadə edilir, eyni zamanda yaşayış mərkəzlərindən gələn istilik yenidən emal edilərək istifadə olunur".

Nazir müavini əlavə edib ki, rəqəmsallığın gücləndirilməsi üçün innovasiyaların gücləndirilməsinə çalışmaq lazımdır: "Rəqəmsal çağırışlar qarşımızdadır. Rəqəmsal transformasiyanın qlobal miqyasda karbon emissiyasının azaldılmasına töhfə verməsinə çalışmalıyıq".






# Azərbaycan qlobal tədbirlərin mükəmməl təşkilatçılıq modelini yaradıb









## Sergio Muhika MONTES: "İnanıram ki, iqlim dəyişikliyi ilə mübarizəyə töhfə vermək üçün imkanlara malikik"



**Beynəlxalq Standartlaşdırma Təşkilatının (International Organization for Standardization, ISO) baş katibi Sergio Muhika Montes COP29 tədbirinin təşkilatçılığını yüksək qiymətləndirib.**

"Bakıya ilk dəfə gəlmişəm. Bu, heyrətamizdir. Burada çox yaxşı vaxt keçirirəm, şəhər gözəldir, insanlar isə çox mehribandır. Daha önəmlisi isə odur ki, bu miqyaslı tədbirin əla təşkil olunduğunu düşünürəm. İnanıram ki, biz vəziyyəti yaxşıya doğru dəyişmək və iqlim dəyişikliyi ilə mübarizəyə töhfə vermək üçün imkanlara malikik", - deyə o bildirib.

Sergio Muhika Montes vurğulayıb ki, siyasətçilərə, danışıqlar zalında əyləşən şəxslərə əsas mesaj ondan ibarətdir ki, onlar öz siyasətlərini, normativ aktlarını və qərarlarını həyata keçirmək üçün standartlardan istifadə edə bilərlər.

"Ona görə də onlar bizdən istifadə etməlidirlər, bizi öz qərarlarını həyata keçirmək üçün əvəzedilməz bir alət kimi görməlidirlər", - deyə ISO-nun baş katibi qeyd edib.

ISO rəhbəri tədbirin təşkilatçılığını yüksək qiymətləndirib.

"Təşkilatçılıq mükəmməldir: logistika, təhlükəsizlik sahəsi. Məsələn, təhlükəsizlik yoxlamalarından keçəndə proses çox effektivdir, indiyə qədər buna bənzər bir şey görməmişdim. Bu səbəbdən də səmimi təbriklərimi qəbul edin. Hər şey çox gözəl təşkil olunub, sizə çox təşəkkür edirəm, COP29 tədbirində iştirak etmək çox xoşdur", - deyə o əlavə edib.

## *Con PATTERSON:* "Britaniya Baş nazirinin Azərbaycana səfəri münasibətlərin yüksək səviyyədə inkişafının göstəricisidir"



**"Britaniyanın Baş naziri Kir Starmerin COP29 çərçivəsində Azərbaycana səfəri iki ölkə arasında münasibətlərin yüksək səviyyədə inkişafının göstəricisidir".**

Bu sözləri Britaniya Ticarət Palatasının Azərbaycan bölməsinin sədri Con Patterson AZƏRTAC-a eksklüziv müsahibəsində bildirib. Con Patterson Baş nazirin Bakıya səfərini yüksək qiymətləndirib: "Baş nazir Kir Starmerin Azərbaycana gəlməsi böyük əhəmiyyət kəsb edir. O, Böyük Britaniyanın emissiya hədəfləri barədə çox açıq şəkildə danışdı. Bu həm Böyük Britaniya-Azərbaycan münasibətlərinin yüksək səviyyəsini, həm də bu əməkdaşlığın davamlı inkişafını göstərir", - deyə o qeyd edib. C.Patterson vurğulayıb ki, Böyük Britaniya iqlim dəyişikliyi ilə mübarizə sahəsində qabaqcıl texnologiyalara və təcrübəyə malikdir. O qeyd edib ki, Azərbaycanın günəş enerjisi potensialı çox böyükdür və bu sahədə Britaniya şirkətləri texnoloji həllər təqdim edərək Azərbaycanın bərpaolunan enerji mənbələrinə keçidinə dəstək ola bilər: "Azərbaycan günəşli ölkədir və günəş enerjisindən istifadə çox əlverişlidir. Bundan başqa, hidroenerji potensialı da yüksəkdir. Britaniya şirkətləri bu sahələrdə lazımi dəstəyi göstərə bilərlər".

O deyib ki, artıq COP29 çərçivəsində Böyük Britaniya və Azərbaycan şirkətləri arasında bir sıra razılaşmalar imzalanıb. Con Patterson həmçinin COP29-un Azərbaycan üçün böyük uğur olduğunu vurğulayıb:

"Sammit çox qısa zaman ərzində mükəmməl təşkil edilib. Bu, Azərbaycan üçün qürurverici bir göstəricidir", - deyə o qeyd edib.

O əlavə edib ki, COP29 çərçivəsində iqlim dəyişikliyi ilə mübarizə istiqamətində mühüm tədbirlər keçirilir. O, Azərbaycanın bərpaolunan enerji potensialını inkişaf etdirmək üçün böyük imkanlara malik olduğunu və bu istiqamətdə Böyük Britaniyanın dəstəyinin mühüm rol oynayacağını vurğulayıb.

## *Muhammet Kasim GÖNÜLLÜ:* "Rəqəmsal texnologiyaların inkişafı həyatımızda çox böyük rol oynayır"



**"Rəqəmsal texnologiyaların inkişafı həyatımızda çox böyük rol oynayır".**

"Report" xəbər verir ki, bunu Türkiyənin sənaye və texnologiya nazirinin müavini Muhammet Kasim Gönüllü Yaşıl Rəqəmsal Fəaliyyət üzrə yüksəksəviyyəli "dəyirmi masa"da bildirib.

O, qeyd edib ki, rəqəmsal texnologiyaların inkişafına töhfə vermək üçün Türkiyədə texnoparklar fəaliyyət göstərir: "Biz rəqəmsal infrastrukturun qurulmasına töhfə verməyə çalışırıq. Bu istiqamətdə işlər gücləndirilməlidir. Həmçinin savadlılığın artırılması istiqamətində iş prinsiplərini həyata keçiririk. Burada bütün sektorlarda olduğu kimi, kiçik və orta sahibkarları da prosesə cəlb etmək lazımdır. Biz "yaşıl rəqəmsal gündəlik"dən böyük töhfələr əldə etməyi gözləyirik. Bu, COP30-dakı hədəflərə çatmaq üçün önəmlidir".













## *Rest KANCU:* "İnkişaf etmiş ölkələrin inkişaf etməkdə olan ölkələri enerji keçidində dəstəkləməsi olduqca zəruridir"



**"Bizim fəaliyyətimiz Cənubi Afrikada müxtəlif sahələrdə ekoloji inklüziv sahibkarlığın dəstəklənməsindən və təbliğ edilməsindən ibarətdir. Biz COP konfranslarında artıq dördüncü ildir ki, iştirak edirik. Bu konfranslarda iştirak etməkdə əsas məqsədimiz Cənubi Afrikada iqlim dəyişmələrindən əziyyət çəkən icmaları təmsil etmək, onların iqlim dəyişmələrinə dözümlülüyünü və uyğunlaşmasını artırmaqdır".**

Bunu AZƏRTAC-a müsahibəsində Cənubi Afrikanın "Indalo Inclusive" qeyri-kommersiya təşkilatının direktoru və əməliyyatlar üzrə müdiri Rest Kancu deyib.

R.Kancu inkişaf etmiş ölkələrin inkişaf etməkdə olan ölkələri enerji keçidində dəstəkləməsinin olduqca zəruri olduğunu vurğulayaraq qeyd edib: "Biz öz növbəmizdə beynəlxalq ictimaiyyətin bir hissəsi olduğumuzu anlayırıq, lazım olan töhfəni də verməyə hazırıq. Başqa ölkələrdən, tərəfdaşlardan lazım olan bilikləri əldə etməyə də çalışırıq. Burada tədbirin məkanı olan Bakı Olimpiya Stadionunu çox bəyəndim. Çox istərdim ki, gələcəkdə burada futbol oyununu izləyim".

## *Naderev SANO:* "COP29 ehtiyac duyulan imkanlar baxımından yüksəksəviyyəlidir"



**"Bu, mənim iştirak etdiyim sayca 21-ci COP tədbiridir. Mən uzun müddətdir ki, bu prosesi müşahidə edirəm. Ətrafımızda çox şey baş verir. Danışıqlar davam edir və hələ də həll edilməli olan çoxlu məsələlər var, amma ümid edirəm ki, biz müəyyən irəliləyiş görə biləcəyik".**

Bunu AZƏRTAC-a müsahibəsində "Greenpeace International" Cənub-Şərqi Asiya təşkilatının icraçı direktoru, Filippindən olan iqlim fəalı Naderev Sano deyib.

"Azərbaycanın qonaqpərvərliyinə, məkandakı könüllülərin iştirakçılara etdiyi köməyə görə təşəkkür etmək istəyirəm. COP29 ehtiyac duyulan imkanlar baxımından yüksəksəviyyəlidir. İqlim danışıqlarının çox mühüm aspektlərinə irəliləyiş gətirmək üçün zəruri olan atmosfer burada yaradılıb.

Azərbaycandan olan nümayəndələr, siyasətçilər "yaşıl enerji", bərpaolunan enerji sahəsində müəyyən addımlar atmağa çalışırlar. Biz buraya Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası kontekstində və Paris Sazişinin həyata keçirilməsini gücləndirəcək razılaşmaları davam etdirmək üçün toplaşmışıq", - deyə N.Sano qeyd edib.

## *Roda ARRİNDELL:* "COP29-da Azərbaycan Prezidentinin çıxışından ruhlandıq"



**"COP29-da iştirakıma görə Bakı Təşəbbüs Qrupuna təşəkkür edirəm. Sent-Martin Assosiasiyası və şəxsən öz adımdan dünyaya mesaj çatdırmaq üçün buraya gəlmişəm. Müstəmləkəçilikdən necə əziyyət çəkdiyimizi beynəlxalq ictimaiyyətə çatdırmaq istəyirəm".**

Bu fikirləri COP29 çərçivəsində Fransa və Niderlandın müstəmləkəsi altında olan Afrika ölkələri və dənizaşırı ərazilərin nümayəndələrinin keçirdiyi "Yaşıl və müstəmləkəsiz dünya naminə həmrəylik" adlı dinc aksiyanın iştirakçısı, "One St Martin" Assosiasiyasının prezidenti Roda Arrindell AZƏRTAC-a müsahibəsində deyib. O bildirib ki, müstəmləkə zülmü altında necə əziyyət çəkdiklərini dünyaya göstərməyə çalışır.

"COP29-a gələndə heç bir gözləntim yox idi. Sadəcə iştirak üçün gəlmişdim. Ancaq Azərbaycan Prezidentinin bizim Fransa və Niderlandın müstəmləkəsi altında olduğumuzu tanıyan mesajını eşidəndə çox təəccübləndim. Çünki müstəmləkəçi dövlətlər tez-tez adalarımızın müstəmləkə olmadığını söyləyirlər. Onlar deyirlər ki, onların əraziləridir, onların dənizaşırı əraziləridir, onlar bərabərhüquqlu tərəfdaşlardır. Ancaq yerlərdə reallıq çox fərqlidir. Ona görə də COP29-da Azərbaycan Prezidentinin çıxışından ruhlandıq. O, çox yaxşı Liderdir, reallığı öz həmkarlarına deməyə cəsarəti çatan Liderdir, səsimizi eşidən Liderdir" deyən R.Arrindell Fransa və Niderland kimi ölkələrin ikiüzlülüyündən şikayətlənib.

"Onlar azad, yaşıl, firavan dünyadan danışırlar, amma əraziləri, zəngin sərvəti olan xalqları müstəmləkə altında saxlayırlar. COP29-da eşitdiklərimiz bizi yaşamağa ruhlandırdı. Bizimlə gələn gənclər həyəcanlıdır. Gənc nəsil müstəmləkəçiliyə qarşı mübarizədə bizimlə birlikdə olacaq", - deyə o vurğulayıb.









COP29 Baku Azerbaijan







# BAKIDAN DÜNYAYA...













COP29 Baku Azerbaijan

# Yaşıl Rəqəmsal Fəaliyyətlə bağlı mətbuat konfransı keçirilib

**COP29 çərçivəsində Yaşıl Rəqəmsal Fəaliyyətlə bağlı mətbuat konfransı keçirilib.**



AZƏRTAC xəbər verir ki, konfransda iqlim dəyişikliyi ilə mübarizədə güclü vasitə sayılan rəqəmsallaşmanın potensialından, dayanıqlı infrastrukturun inkişafına və ətraf mühitin yaxşılaşmasına müsbət təsirindən danışılıb.

Yaşıl rəqəmsal fəaliyyət təşəbbüsünün COP29 sədrliyinin fəaliyyət gündəliyinə daxil olan qlobal təşəbbüsdən biri olduğu qeyd edilib.

Vurğulanıb ki, innovasiya və dayanıqlığa əsaslanan rəqəmsallaşma gələcək COP-larda prioritet olaraq qalmasını gerçəkləşdirərək davamlılığa yönələn çağırışdır.

Konfransda Yaşıl Rəqəmsal Fəaliyyət üzrə Bəyannamə və onun əhəmiyyəti barəsində məlumat verilib.

Eyni zamanda konfransda qaz emissiyalarının azaldılmasında yeni texnologiyaların rolu vurğulanıb.

Rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev Yaşıl Rəqəmsal Fəaliyyət üzrə Bəyannamənin davamlı gələcək üçün vacib olduğunu deyib: "Artıq Azərbaycanda dövlət xidmətləri rəqəmsallaşdırılıb. Bütün sənəd mübadilələri rəqəmsal yolla reallaşır. Eyni zamanda ölkədə nəqliyyat sahəsi və Bakı metrosu da rəqəmsal xidmətdən istifadə edir. Yaşıl Rəqəmsal Fəaliyyət üzrə Bəyannaməyə bu günədək minə yaxın rəqəmsal texnologiya cəmiyyətinin üzvü öz dəstəyini bəyan edib.

Bəyannamə sürətli rəqəmsallaşmanın ətraf mühitə mənfi təsirlərini yumşaltmaqla yanaşı, iqlimlə bağlı fəaliyyətin və davamlılığın artırılması üzrə əməkdaşlıq üçün çərçivə rolu oynayacaq".

Azərbaycan Xarici İşlər Nazirliyinin Beynəlxalq Təhlükəsizlik idarəsinin rəisi, COP29-un baş danışıqçısının müavini Samir Becanov Yaşıl Rəqəmsal Fəaliyyət üzrə Bəyannamənin iqlim dəyişikliyi ilə mübarizəyə verəcəyi dəstəyə diqqət çəkib: "Bu gün təqdim etdiyimiz bəyannamə öz dəstəkləyicilərini iqlim dəyişikliyi ilə mübarizə aparmaq üçün rəqəmsal vasitələrdən istifadə etməyə, rəqəmsal infrastrukturun iqlim dəyişikliyinə davamlılığını artırmağa və rəqəmsallaşmanın ətraf mühitə təsirini azaltmağa məcbur edir. Bəyannamə artıq mindən çox rəqəmsal icma nümayəndəsinin, o cümlədən 90-dan çox ölkənin hökumətlərinin razılığını alıb".




# COP29-da gənclərin iqlim texnologiyaları sahəsində startapları təqdim edilib






**Noyabrın 16-da BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasında (COP29) SOCAR və SABAH HUB tərəfdaşlığı ilə "Dayanıqlı innovasiyalar çağırışı" mövzusunda tədbir keçirilib.**

AZƏRTAC xəbər verir ki, tədbirdə açılış nitqləri ilə çıxış edən SOCAR-ın prezidenti Rövşən Nəcəf və SABAH HUB-ın icraçı direktoru Rəhim Bayramlı qlobal əməkdaşlığın və iqlim texnologiyalarının gələcəyin qorunmasındakı vacibliyini vurğulayıblar.

Tədbirdə yerli və xarici startaplar olmaqla, ümumilikdə 10 startap layihəsi, iqlim texnologiyaları sahəsində innovativ həllər təqdim edilib. Hər komanda davamlı gələcək üçün öz unikal yanaşmasını nümayiş etdirib.

Beynəlxalq investorlar və tədbir iştirakçıları tərəfindən keçirilən qiymətləndirmə nəticəsində ən yaxşı 3 startap seçilib.

SABAH HUB şirkətinin İcraçı direktoru Rəhim Bayramlı bildirib ki, builki COP29-da iqlim hədəflərinə nail olmaq üçün maliyyələşmənin aparılması ilə bağlı mühüm mövzular müzakirə edilir. Bu hədəflərə çatmaq üçün kreativ və yaradıcı gənclərin iqlim mövzuları üzrə təşəbbüslərinin dəstəklənməsi olduqca vacibdir.

O əlavə edib ki, COP29 çərçivəsində tərəfdaşlıq nəticəsində SOCAR SABAH HUB vasitəsilə "cleantech" sahəsində fəaliyyət göstərən şirkətlərə bir milyon dollar vəsait ayırıb: "COP29-da SABAH HUB olaraq, 38 komanda ilə təmsil olunuruq. Onlardan on beşi bizim proqramların məzunlarıdır. Bu gün beş qitənin 15 ölkəsindən 25-ə yaxın startapçı COP29-da iştirak edir".

Qeyd edək ki, SABAH HUB müxtəlif sahələrdə yeni startapların yaranmasına və inkişaf etməsinə dəstək olan innovasiya mərkəzidir.

# Azərbaycanın irəli sürdüyü "İqlim üçün mədəniyyət" təşəbbüsünün təqdimatı olub

**Bakıda keçirilən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində noyabrın 16-da Azərbaycanın irəli sürdüyü "İqlim üçün mədəniyyət" (C4C) təşəbbüsünün təqdimatı olub.**

AZƏRTAC xəbər verir ki, tədbirdə beynəlxalq təşkilatların, mədəniyyət sahəsində fəaliyyət göstərən qurumların nümayəndələri, yerli və xarici ekspertlər iştirak ediblər.

Azərbaycanın mədəniyyət nazirinin müavini Fərid Cəfərov tədbirdə çıxış edərək C4C təşəbbüsü haqqında məlumat verib, mədəniyyətin müsbət iqlim gündəmini formalaşdırmaq gücündə olduğunu vurğulayıb. "Azərbaycan COP29-da "İqlim üçün mədəniyyət" təşəbbüsünü irəli sürməkdən məmnunluq duyur. Hazırda bu təşəbbüs beynəlxalq miqyasda geniş təbliğ olunur və bir çox ölkə onu dəstəkləməkdə maraqlıdır. C4C ənənələrin, incəsənətin və irsin davamlı təcrübə və dəyərləri necə inkişaf etdirə biləcəyini vurğulayaraq, mədəniyyəti müsbət iqlim fəaliyyəti üçün təsirli qüvvəyə çevirməyə çalışır", - deyə nazir müavini qeyd edib.

Gəncləri C4C təşəbbüsündə fəal rol almağa çağıran F.Cəfərov bildirib ki, iqlim böhranı qarşısında planetimizi qoruyan yeni dəyərləri təşviq etmək üçün mədəniyyətin potensialından yararlanmaq imkanımız var.

Digər çıxışlarda da C4C təşəbbüsünün əhəmiyyəti vurğulanıb, onun konkret hədəfə yönəldiyi diqqətə çatdırılıb, bu təşəbbüsə dəstək ifadə olunub. "Newman Partnership" təşkilatının təsisçisi, tanınmış təlimçi Martin Nyuman "İqlim üçün mədəniyyət" təşəbbüsünün məqsədləri haqqında məlumat verib.

Sonra mövzu ilə bağlı məlumatların yer aldığı videoçarx nümayiş olunub.

Sonda mövzu ilə bağlı müzakirələr aparılıb, tədbir iştirakçılarının sualları cavablandırılıb.

# COP29 çərçivəsində "İqlim dəyişikliyinə dayanıqlı kiçik orta bizneslər" mövzusu müzakirə olunub

**COP29 çərçivəsində "İqlim dəyişikliyinə dayanıqlı kiçik və orta bizneslər" mövzusu müzakirə olunub.**




AZƏRTAC xəbər verir ki, tədbirdə COP29-un iqlim dəyişmələri üzrə yüksəksəviyyəli çempionu Nigar Arpadarai, Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) İdarə Heyətinin sədri Orxan Məmmədov, ICC-nin Qlobal siyasət üzrə direktoru Andrev Vilson, "Climate KIC"in baş direktoru Kirsten Dunlop, "Climate Group"un baş direktoru Helen Clarkson və digərləri iştirak edib.

Kiçik və orta bizneslərin iqtisadiyyatın əsasını təşkil etdiyini deyən N.Arpadarai, KOB-ların qlobal təchizat zəncirləri və yerli icmalar üçün çox vacib olduğunu bildirib: "KOB-lar qlobal təchizat zəncirləri və yerli icmalar üçün olduqca vacibdir. Xalis sıfra nail olmaq öhdəliyi götürmüş KOB-ların 63 faizinə maraqlı tərəflərdən emissiyaların azaldılması tələbi verilməyib. KOB-lardan 84 faizinə isə heç bir maliyyə stimulu təklif olunmayıb". O, bu il Nyu Yorkda fəaliyyətə başlayandan bəri "Fərqlilik yaradanlar" kampaniyasının 40 milyondan çox KOB ilə əməkdaşlıq edən 90-dan çox işçini bir araya gətirdiyini, bəzilərinin bu tədbirdə iştirak etdiyini diqqətə çatdırıb: "Bəziləri yerli kampaniyaların təşkilatçılarıdır və 100-dən çox ölkədə yerli kiçik və orta bizneslərlə işləyirlər. Kiçik və orta sahibkarlara yaşadığımız iqlim dəyişikliyinin təsirlərinə qarşı davamlı olmağa kömək edirlər".

Yüksəksəviyyəli çempionun sözlərinə görə, kampaniya iştirakçıları dəstəyinin ən çox ehtiyacı olan kiçik bizneslər üçün əhatə dairəsini və mövcudluğunu genişləndirirlər. Daha sonra O.Məmmədov kiçik və orta bizneslərin "yaşıl keçid" üzrə Bakı koalisiyasının önəmindən danışıb. Müzakirələrdə qeyd olunub ki, çoxtərəfli əməkdaşlıqlar sistemli maneələri həll etmək üçün ideal vasitədir. Eyni zamanda iqlim ambisiyalarını və fəaliyyətlərini sürətləndirmək üçün kiçik və orta bizneslərə əlavə dəstək yolları barədə müzakirə aparılıb.

# Bakıda Qlobal Beyin Mərkəzləri Forumu keçirilib

**İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi (İİTKM) Asiya İnkişaf Bankı (AİB), Asiya İnkişaf Bankı İnstitutu (AİBİ) və Mərkəzi Asiya Regional İqtisadi Əməkdaşlıq Proqramı İnstitutu (CAREC Institute) ilə birgə Qlobal Beyin Mərkəzləri Forumu keçirib.**



AZƏRTAC xəbər verir ki, "Qlobal "yaşıl iqtisadiyyat": İqlim fəaliyyəti, maliyyələşdirmə və innovasiya" (Global Green Economy: Climate Action, Financing and Innovation) mövzusunda təşkil olunan forumda T20 şəbəkəsinə daxil olan və qlobal miqyasda ən nüfuzlu beyin mərkəzlərinin nümayəndələri, alimlər, dövlət qurumlarının rəsmiləri, özəl sektor təmsilçiləri, QHT-lər və digər maraqlı tərəflər iştirak ediblər.

Forum çərçivəsində "yaşıl iqtisadiyyat" modeli - iqtisadi inkişafı ətraf mühitin qorunması ilə uyğunlaşdıraraq davamlı inkişafın təmin edilməsi modeli mühüm müzakirə predmeti olub. Forum iştirakçıları karbon emissiyalarının azaldılması, bərpaolunan enerji mənbələrinin genişləndirilməsi, "yaşıl maliyyə" mexanizmlərinin tətbiqi və iqlim dəyişikliklərinə uyğunlaşma tədbirlərinin vacibliyini vurğulayıblar.

Qlobal Beyin Mərkəzləri Forumu ölkələr arasında dialoqu təşviq etməklə iqlim dəyişikliyinin təsirlərinin daha yaxşı anlaşılmasına və Paris Sazişinin icrasını dəstəkləyən tədbirlərin təşviqinə töhfə verməyi qarşıya hədəf qoyub. Forum Azərbaycanın COP29 çərçivəsində qlobal arenada nüfuzunun artırılmasına və beynəlxalq beyin mərkəzləri şəbəkəsi daxilində ölkənin strateji mövqeyinin gücləndirilməsinə mühüm töhfə verib.

Forum iki əsas sessiyadan ibarət olub.

"Davamlılığa aparan qlobal yollar: təsirlərin azaldılması, uyğunlaşma və enerji keçidi" (Global Pathways to Sustainability: Mitigation, Adaptation, and Energy Transition) mövzusunda keçirilən birinci sessiyası, qlobal iqlim hədəflərinə nail olmaq üçün enerji keçidləri, uyğunlaşma strategiyaları və innovativ siyasətlərə həsr olunub.

"Qlobal iqlim dayanıqlılığı üçün "yaşıl maliyyə": Strategiyalar və innovasiyalar" (Green Finance for Global Climate Resilience: Strategies and Innovations) mövzusunda keçirilən ikinci sessiyada "yaşıl istiqraz"lar, dayanıqlı investisiya mexanizmləri və maliyyə sektorunun iqlim məqsədlərinə töhfəsi müzakirə edilib. Bu tədbir iqlim dəyişikliyi ilə mübarizə, "yaşıl iqtisadiyyat"ın inkişafı və qlobal əməkdaşlığın gücləndirilməsi baxımından mühüm platforma rolunu oynayıb. Forum iştirakçıları tərəfindən iqlim məqsədlərinin həyata keçirilməsində beyin mərkəzlərinin rolunu artırmaq üçün təkliflər irəli sürülüb. Tədbir, həmçinin Azərbaycanın "yaşıl iqtisadiyyat"ın inkişafı və iqlim dəyişikliyinə qarşı qlobal səylərə verdiyi töhfəni bir daha nümayiş etdirib.

Forumda Asiya İnkişaf Bankı (AİB), Asiya İnkişaf Bankı İnstitutu (AİBİ) və Mərkəzi Asiya Regional İqtisadi Əməkdaşlıq Proqramı İnstitutu (CAREC Institute) ilə yanaşı, "Brookings Institutions", İtaliyanın Beynəlxalq Münasibətlər İnstitutu (IAI), Braziliya Beynəlxalq Münasibətlər Mərkəzi (CEBRI), BMT Universitetinin Ətraf Mühit və İnsan Təhlükəsizliyi İnstitutu, Stokholm Ətraf Mühit İnstitutu, Su və İqlim Dəyişikliyi üzrə Asiya Platforması, Cənubi Afrika Beynəlxalq Münasibətlər İnstitutu, Qazaxıstan-Britaniya Texniki Universiteti, Kral Abdullah Neft Araşdırmaları və Tədqiqat Mərkəzi (KAPSARC) kimi nüfuzlu qlobal beyin mərkəzlərinin rəhbər heyəti iştirak ediblər.

COP29 Baku Azerbaijan

# Gənclər və idman naziri Fatih Terimi qəbul edib

**Gənclər və İdman Nazirliyində Azərbaycanda səfərdə olan türkiyəli tanınmış futbol mütəxəssisi Fatih Terimlə görüş keçirilib.**



Nazirlikdən AZƏRTAC-a bildirilib ki, nazir Fərid Qayıbov qonağa ölkəmizdə idman sahəsində görülən işlər və qazanılan uğurlar barədə məlumat verib. Ölkəmizə ilk dəfə 1996-cı ildə gəldiyini xatırladan F.Terim Azərbaycan futbolu ilə bağlı maraqlı xatirələrinin olduğunu bildirib.

Görüş zamanı iki qardaş ölkədə futbolun hazırkı vəziyyəti və uşaq futbolunun inkişafı yolları müzakirə edilib. COP29 çərçivəsində "Qarabağ"ın təşəbbüsü ilə təşkil olunan futbol klublarının iqlim dəyişikliyi üzrə mübarizədə birgə alyansın yaradılmasına dair məsələlər barədə fikir mübadiləsi aparılıb.

Görüşdə "Qalatasaray"ın 2-ci prezidenti İbrahim Hatipoğlu, klubun İdarə Heyətinin üzvü Emin İmanov, Fatih Terimin köməkçisi Eray Sözən, "Qarabağ"ın baş direktoru Əmrah Çəlikəl və İdarə Heyətinin üzvü Asif Əsgərov da iştirak ediblər.

# COP29-da iştirak üçün Azərbaycana gələn futbol klublarının nümayəndə heyəti ilə görüş olub

**Gənclər və İdman Nazirliyində COP29-da iştirak etmək üçün Azərbaycana gələn futbol klublarının nümayəndə heyəti ilə görüş keçirilib.**



Nazirikdən AZƏRTAC-a verilən məlumata görə, görüşdə Avropa Klublar Assosiasiyasının baş icraçı direktoru Çarli Marşall, dayanıqlılıq üzrə rəhbəri Qaya Pretner, "Udineze"nin sahibi Maqda Pozzo, "Liverpul"un təsir üzrə direktoru Rişi Jain, "Fənərbağça"nın dayanıqlılıq üzrə direktoru Gülcə Şənərən, "Atletiko"nun dayanıqlılıq və məsuliyyətli biznes üzrə rəhbəri Rosiya Torres, "Portu"nun dayanıqlılıq üzrə meneceri Teresa Santos, "Tottenhem"in dayanıqlılıq üzrə meneceri Markus Perri, "Real Betis" fondunun baş meneceri Rafel Muela Pastor, "Flamenqo"nun direktoru Katya Alensar və "Qarabağ"ın İdarə Heyətinin üzvü Asif Əsgərov iştirak ediblər.

"Qarabağ"ın təklifini qəbul etdikləri üçün qonaqlara təşəkkürünü bildirən nazir Fərid Qayıbov COP29 çərçivəsində artıq bir çox futbol ulduzunun və mütəxəssisin Azərbaycana gəldiyini xatırladıb. 700-dən çox futbol klubunun birləşdiyi Avropa Klublar Assosiasiyasının baş icraçı direktoru Çarli Marşall təşkilatın missiyası barədə məlumat verib. Qonaqlar təmsil etdikləri klubların fəaliyyətləri ilə bağlı danışıblar.

Görüş zamanı Bakıda keçirilən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu Sessiyası (COP29) çərçivəsində futbol klublarının iqlim dəyişikliyi ilə mübarizədə birgə alyansın yaradılması ilə bağlı məsələlər barədə fikir mübadiləsi aparılıb.

# Məşhur futbol klublarının iqlim dəyişikliyi ilə mübarizədə birgə alyansı yaradılıb

**Bakıda keçirilən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Sazişinin Tərəflər Konfransının 29-cu Sessiyası (COP29) çərçivəsində "Qarabağ" komandasının təşəbbüsü ilə dünyanın tanınmış futbol klublarının iqlim naminə alyansının açılış tədbiri keçirilib.**



AZƏRTAC xəbər verir ki, "Sky sports"un məşhur idman şərhçisi David Qarridonun moderatorluğu ilə təşkil olunan "İqlim naminə Futbol" tədbirində dünyanın bir sıra nüfuzlu futbol klubları iqlim dəyişmələrinə qarşı mübarizədə öz öhdəliklərini əks etdirən bəyanatlarla çıxış ediblər.

Gənclər və idman naziri Fərid Qayıbov Azərbaycanın Avropa və İslam Həmrəylik Oyunları, "Formula-1" kimi böyük turnirlərə və 2019-cu ildə UEFA Avropa Liqasının "Çelsi" və "Arsenal" (hər ikisi İngiltərə) komandaları arasında keçirilmiş final matçına evsahibliyi etdiyini, Bakının idman tədbirlərinin mərkəzinə çevrildiyini xatırladıb. O, 4 milyarddan çox izləyiciyə sahib futbolun mühüm iqlim konfransının bir parçası olmasının əhəmiyyətindən danışıb. COP29-un baş danışıqçısı Yalçın Rəfiyev misilsiz təşəbbüsə rəhbərlik etdiyinə görə "Qarabağ"a, bu təşəbbüsün əhəmiyyətini dərk etdiyinə və dəstək verdiyinə görə Avropa Klublar Assosiasiyasına (ECA) təşəkkür edib. O, alyansın dünyada ən aktual problemlərindən biri olan iqlim dəyişikliyinin həllinə öz töhfəsini verəcəyini bildirib. "Qarabağ"ın prezidenti Tahir Gözəl isə dünyanın ən nüfuzlu klublarının bu təşəbbüs ətrafında toplaşmasının qürurverici hal olduğunu vurğulayıb. Onun sözlərinə görə, bu təşəbbüs futbolun iqlim dəyişmələrinə qarşı mübarizəsində populyarlığından istifadə etmək məqsədi daşıyır.

Sonra iqlim dəyişikliyi ilə mübarizədə idmanın təsiri haqqında geniş müzakirələr aparılıb. İqlimlə bağlı mövzularda daim həssas davranan, inkişaf edən və hazırda dünya futbolunda dayanıqlılıq lideri olan "Liverpul" və bu sahədə liderlərdən sayılan "Udineze" komandaları zəngin təcrübələrini digər klublarla bölüşüblər. Klublar dayanıqlılıqla bağlı sınaqdan keçirdikləri unikal layihələr barədə təqdimat ediblər.

Təqdimatlardan sonra tanınmış futbol klublarının iqlim dəyişikliyi ilə mübarizədə birgə alyansı yaradılıb. Alyansda Ağdam təmsilçisi ilə yanaşı, iqlim dəyişikliyi ilə mübarizədə və dayanıqlılıq mövzularında böyük təcrübəyə malik 10 klub - "Liverpul", "Tottenhem" (hər ikisi İngiltərə), "Atletiko Madrid", "Real Betis" (hər ikisi İspaniya), "Fənərbağça", "Qalatasaray" (hər ikisi Türkiyə), "Udineze" (İtaliya), "Portu" (Portuqaliya), "Flamenqo" (Braziliya) və "Malmö" (İsveç) yer alıb.

İqlim mövzusuna həssas yanaşan və bununla bağlı yaddaqalan layihələr reallaşdıran həmin klublar alyansın yaradılması barədə sənədə imza atıblar. Bununla da həmin 11 tanınmış klub qurumun yaradıcıları hesab olunub, öz öhdəliklərinin bəyannaməsini imzalamaqla və insanları iqlim dəyişmələri üçün hərəkətə keçməyə çağırmaqla həmrəylik nümayiş etdiriblər. Bu məqsədlə futbol klubları dayanıqlı təcrübələr tətbiq etmək, məlumatlılığı artırmaq, futbolun populyarlığından istifadə etməklə iqlim dəyişmələrinə qarşı mübarizəni təşviq etməyə, təkcə bir-biri ilə deyil, "İqlim Fəaliyyəti üçün UNFCCC İdman" da daxil olmaqla, digər müvafiq təşkilatlarla əməkdaşlıq etməyə hazır olduqlarını bildiriblər.

Qeyd edək ki, alyans COP29 sədrliyi və Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının (Framework Convention on Climate Change, UN FCCC) dəstəyi, "Qarabağ" və Avropa Klublar Assosiasiyasının (ECA) birgə təşkilatçılığı ilə təsis olunub.



## OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

### "AZƏRBAYCAN" *qəzetinə*

*2024-cü il üçün abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | (012) 598-49-55, (051) 225-02-13 |
| *"Azərmətbuatyayımı" ASC* | (012) 441-19-91, (050) 322-33-17 |
| *"Qaya" firması* | (012) 566-77-80, (050) 214-40-53 |
| *"Region Press" MMC* | (055) 316-79-01, (050) 316-79-01 |
| *"Səma-M" MMC* | (012) 594-09-59 |
| *"Ziya" LTD* | (012) 497-76-96, (050) 306-77-22 |
| *"Pressinform" MMC* | (012) 598-49-52, (070) 340-01-00 |
| *"City press" MMC* | (055) 819-09-26 |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**


RƏSMİ DÖVLƏT QƏZETİ
AZƏRBAYCAN
DÜZGÜN SİYASƏT VƏ REAL İŞ
Azərbaycan-Rusiya strateji tərəfdaşlıq və müttəfiqlik əlaqələrinin hərtərəfli inkişafı təmin ediləcək
Azərbaycan hər zaman Fələstin xalqının azadlığı və müstəqilliyini dəstəkləmişdir
"Dünyanı birləşdirən Azərbaycan"
Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə
COP29 Baku Azerbaijan

### Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*


# Azərbaycan multikulturalizmi İspaniyada təbliğ olunub

**İspaniya Krallığının Maqos Fondunun təşkilatçılığı ilə noyabrın 14-16-da Malaqa şəhərində "Müdrik İnsanların Xəzinəsi" adlı beynəlxalq sərgi keçirilib.**



Tədbirlə əlaqədar Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin (BBMM) rəhbərliyi ilə Azərbaycandakı dini icma nümayəndələrinin İspaniyaya səfəri təşkil olunub.

Mərkəzdən AZƏRTAC-a bildiriblər ki, ölkəmizin İspaniyadakı səfirliyinin, eləcə də Maqos Fondunun təşkilatçılığı və Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin dəstəyi ilə sərgidə Azərbaycan guşəsi təqdim edilib. Azərbaycanın tarixi, mədəniyyəti, habelə ölkəmizdə tarixən mövcud olan tolerantlıq, multikultural və çoxkonfessiyalı zəngin mədəni irsin qorunması istiqamətində dövlətimizin apardığı siyasət, həyata keçirilən layihələr haqda İspaniyanın geniş ictimaiyyətini, eləcə də medianı məlumatlandırmaq məqsədilə tədbir çərçivəsində "Azərbaycanın multikulturalizm modeli" mövzusunda xüsusi seminar da təşkil olunub.

Multikulturalizm Mərkəzinin icraçı direktoru Rəvan Həsənov tədbirdə məruzə ilə çıxış edib. O, Azərbaycanda mədəni müxtəlifliyin, tolerantlığın və multikulturalizmin təbliğinə diqqət çəkərək bildirib ki, müxtəlif etnik və dini icmalarının birgə yaşadığı mühit Azərbaycanın multikulturalizm sahəsindəki uğurlu siyasətinin nəticəsidir. Azərbaycanın tolerantlıq ənənələri, multikulturalizm siyasəti, eyni zamanda bu gün Azərbaycanda olan din-dövlət münasibətləri haqda geniş məlumat verən R.Həsənov Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin bu sahədəki fəaliyyəti, beynəlxalq tədbirlər və təcrübə mübadiləsi haqda da danışıb. Azərbaycanın qlobal miqyasda multikulturalizmin təbliğinə verdiyi töhfələrdən söz açan Rəvan Həsənov ölkəmizin mədəni müxtəliflik və harmoniya istiqamətində dünya üçün örnək bir model olduğunu qeyd edib.

Tədbirdə çıxış edən Azərbaycandakı Avropa Yəhudiləri İcmasının baş ravvini Şneor Seqal ölkəmizdə yaşayan yəhudilərin həyat tərzi, Katolik kilsəsinin keşişi Vladimir Baxa və Alban-Udi xristian icmasının sədri Robert Mobili isə xristianların Azərbaycandakı yaşam şəraiti və dini ibadətlərini azad şəkildə icra etmələrindən, eləcə də qədim Qafqaz Albaniyasının irsi olan kilsələrdən və Azərbaycan dövlətinin bu sahədəki qayğısından danışıblar.

Səfər çərçivəsində BBMM-in icraçı direktoru Rəvan Həsənov Malaqa Şəhər Şurasının Xarici Əlaqələr üzrə direktoru İzabel Paskual Villamor ilə görüşüb. Görüş zamanı Malaqa Universitetində Azərbaycan multikulturalizmi fənninin tədrisi və gələcəkdə birgə tədbirlərin təşkili imkanları müzakirə edilib. Multikulturalizm Mərkəzinin nəşrləri xanım Villamorun xüsusi marağına səbəb olub.

Noyabrın 16-da Dünya Tolerantlıq Günü münasibətilə Maqos Fondu tərəfindən təşkil olunmuş silsilə tədbirlər çərçivəsində Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin rəsmiləri, habelə ölkəmizdəki müsəlman, xristian, alban-udi, yəhudi dini konfessiyalarının nümayəndələri Malaqa Şəhər Bələdiyyəsinin rəsmi iqamətgahında şəhər bələdiyyə rəhbəri Fransiska Torre ilə birlikdə dünyada sülh və birgəyaşayışın təbliğatında göstərilən xidmətlərə görə mükafatlandırma mərasimində də iştirak ediblər. Nobel Sülh mükafatı laureatı Şirin Ebadi, UNESCO-nun mədəni diplomatiya üzrə xoşməramlı səfiri Hedva Ser, NATO Parlament Assambleyasının sabiq prezidenti, o cümlədən İspaniya və Fransanın tanınmış ictimai xadimlərinin iştirakı ilə keçirilmiş tədbirdə Rəvan Həsənovun rəhbərlik etdiyi nümayəndə heyətinə Maqos Fondu tərəfindən mükafat təqdim olunub. Çıxışında Azərbaycandakı multikulturalizm ənənələrinə toxunan R.Həsənov mədəniyyətlər və dinlərarası dialoqun dünyada sülhün təminatının əsas qayəsi olduğunu, bu məqsədlə Azərbaycan modeli olan multikulturalizm və tolerantlığın yayılması istiqamətindəki sülhpərvər fəaliyyətlərini davam etdirəcəklərini bildirib. R.Həsənov daha sonra yerli media qurumlarının suallarını cavablandırıb.

Tədbir qala şam yeməyi ziyafəti ilə davam edib.

## ALLAH RƏHMƏT ELƏSİN!

Bəxtiyar Sadıqov Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımova atası

**ELDAR QASIMOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Milli Aerokosmik Agentliyinin baş direktoru professor Natiq Cavadov Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımova atası

**ELDAR QASIMOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikasının Maliyyə Nazirliyinin rəhbərliyi və kollektivi Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımova atası

**ELDAR QASIMOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti akademik İsa Həbibbəyli Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımova atası

**ELDAR QASIMOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri Sahib Məmmədov və AHİK-in kollektivi konfederasiyanın Üzv, tabe və tərəfdaş təşkilatlarla iş və maarifləndirmə şöbəsinin müdiri Günay Qasımovaya anası

**MƏNZƏR XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Texniki Universitetinin rektorluğu və Həmkarlar İttifaqı Komitəsi Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımova atası

**ELDAR QASIMOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

COP29 Baku Azerbaijan


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir**

**Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır**

**Gündəlik rəsmi dövlət qəzeti**

**Tiraj 4218**
**Sifariş 2612**

**Qiyməti 60 qəpik**